DƏRSLİK

# ÜMUMİ TARİX



9

Layihə



# HEYDƏR ƏLİYEV

## AZƏRBAYCAN XALQININ ÜMUMMİLLİ LİDERİ

Leyihe

*KƏRİM ŞÜKÜROV, PƏRVİZ AĞALAROV,*
*NİYAMƏDDİN QULİYEV, HAFİZ CABBAROV,*
*ELNUR HÜSEYNOV, RAMİN ƏLİZADƏ*

*Ümumi təhsil müəssisələrinin* 9 *-ci sinifləri üçün*

# ÜMUMİ TARİX

*fənni üzrə*

**DƏRSLİK**

© "Şərq-Qərb" Açıq Səhmdar Cəmiyyəti

Bu nəşrlə bağlı irad və təkliflərinizi
**info@eastwest.az** və **derslik@edu.gov.az**
elektron ünvanlarına göndərməyiniz xahiş olunur.
Əməkdaşlığınız üçün əvvəlcədən təşəkkür edirik!

ŞƏRQ-QƏRB

Leyla

# Mündəricat

## Dünya ölkələri XIX yüzillik və XX yüzilliyin əvvəllərində




Amerika Birləşmiş Ştatları ........ 6
Böyük Britaniya və Fransa ........ 12
Almaniya və İtaliya ........ 18
Rusiya ........ 24
Türk dünyası. Qacarlar dövləti ........ 30
Hindistan, Çin və Yaponiya ........ 36
Birinci Dünya müharibəsi ........ 42
Mədəniyyət ........ 50

## Dünya ölkələri 1918-1945-ci illərdə



Versal-Vaşinqton sistemi ........ 54
Amerika Birləşmiş Ştatları,
Böyük Britaniya və Fransa ........ 60
Almaniya və İtaliya ........ 66
SSRİ ........ 72
Türk dünyası və İran ........ 78
Hindistan, Çin və Yaponiya ........ 84
İkinci Dünya müharibəsi ........ 88
Mədəniyyət ........ 96




Dərslikdəki **QR kodlara** müraciət edərək mövzu ilə əlaqədar daha çox maraqlı məlumat əldə edə bilərsiniz.




## Dünya ölkələri İkinci dünya müharibəsindən sonra

Amerika Birləşmiş Ştatları ........ 100
Böyük Britaniya, Fransa, Almaniya və İtaliya ........ 106
SSRİ. Rusiya müasir dövrdə ........ 112
Türk dünyası və İran ........ 118
Hindistan, Pakistan və Ərəb ölkələri ........ 124
Çin, Yaponiya və Koreya ........ 130
Dövlətlərarası münasibətlər ........ 136
Mədəniyyət ........ 142

### Şərti işarələr

**S** **Sual**

**T** **Tapşırıq**

**M** **Maraqlıdır**

# Əziz məktəblilər!

Layihə

# 1 AMERİKA BİRLƏŞMİŞ ŞTATLARI

Tomas Cefferson, Gent müqaviləsi, Avraam Linkoln, vətəndaş müharibəsi, "Böyük dəyənək"

## ABŞ XIX yüzilliyin birinci yarısında

*Amerika Birləşmiş Ştatları* yarandığı vaxtdan etibarən əsas diqqət ölkənin bütövlüyünün saxlanılmasına və müstəqil dövlətçilik prinsipinin inkişafına yönəldilmişdi. Buna görə də Avropa dövlətləri ilə normal münasibətlərin saxlanılmasına xüsusi önəm verilirdi. Avropa dövlətləri arasında baş verən müharibələrdən kənarda qalması ABŞ-nin iqtisadi-siyasi inkişafını təmin etdi. Qitədə rəqibinin olmaması ona ərazisini genişləndirməyinə şərait yaratdı.

Hərbi xərclərin azlığı, faydalı qazıntılarla zəngin olan münbit torpaqların mövcudluğu ABŞ-nin inkişafını şərtləndirən əsas amillərdən idi. Bu isə Avropadan mühacir axınının artmasına səbəb oldu.



*Tomas Cefferson*

S

**ABŞ-nin coğrafi mövqeyinin onun iqtisadi inkişafına hansı təsirləri var idi?**

**Tomas Ceffersonun** prezidentliyi dövründə (1801–1809) dövlətin möhkəmləndirilməsi üçün əhəmiyyətli tədbirlər həyata keçirildi. Seçki senzi ləğv olundu, qərbə doğru məskunlaşmağa icazə verildi və ölkəyə yeni kölə axınlarının qarşısı alındı.

T

T.Ceffersonun hakimiyyəti illərində həyata keçirilən tədbirləri dövr baxımından qiymətləndirin.

T

Tomas Ceffersonu şəxsiyyət kimi dəyərləndirin.

M

Tomas Cefferson ABŞ-nin "İstiqlaliyyət Bəyannaməsi"nin əsas müəllifi, ilk Dövlət katibi və 3-cü prezidenti olmuşdur. Onun prezidentliyi dövründə ABŞ Fransadan Luizananı satın alaraq öz ərazisini əhəmiyyətli dərəcədə genişləndirmişdir. Maraqlıdır ki, o, bir vaxtlar B.Franklindən sonra ABŞ-nin Fransadakı səfiri vəzifəsində çalışmışdır. Görünür ki, bu fakt Fransa imperatoru Napoleon Bonapartla Luiziana məsələsində razılığa gəlməkdə müəyyən qədər rol oynamışdır. T.Cefferson təsviri Raşmor dağında əks olunan dörd ABŞ prezidentindən biridir. O, tarixdə 100 ən çox öyrənilmiş şəxsiyyətlər siyahısına daxil edilmişdir.

Layihə



***Raşmor dağında dörd ABŞ prezidentinin büstü (T.Cefferson soldan ikincidir)***

XIX yüzilliyin əvvəllərində Fransanın Avropada apardığı müharibələr dövlətlərarası münasibətlərə ciddi şəkildə təsir göstərdi. ABŞ-nin Avropa ölkələrinə ərzaq daşıyan ticarət gəmilərinin Böyük Britaniya donanması tərəfindən müsadirə olunması iki dövlət arasında münasibətləri gərginləşdirdi.

Böyük Britaniyanın Fransa ilə müharibəyə cəlb olunmasından istifadə edən ABŞ Kanadanı işğal etmək istəyirdi. Britaniya isə, öz növbəsində, Amerikadakı keçmiş müstəmləkələrini geri qaytarmağa çalışırdı. Bütün bu ziddiyyətlər iki dövlət arasında müharibəyə səbəb oldu.

1812-ci ildə ABŞ qoşunlarının Kanadaya daxil olması ilə başlayan müharibə iki il davam etdi və 1814-cü ildə Belçikada Gent müqaviləsinin imzalanması ilə başa çatdı. Müqaviləyə görə ABŞ Kanadaya olan iddiasından, İngiltərə isə ABŞ-yə öz müstəmləkəsi kimi baxmaqdan əl çəkdi.



***Gent müqaviləsinin imzalanması***

S

**ABŞ – Britaniya müharibəsinin başlanmasına hansı amillər səbəb oldu?**




**XIX yüzillikdə ABŞ ərazisinin genişlənməsi**

- 1783-cü ildə Böyük Britaniya ilə bağlanmış sülh müqaviləsinə görə ABŞ-nin ərazisi
- 1803-cü ildə Fransadan satın alınmış Luiziana ərazisi
- 1845-ci ildə ilhaq olunmuş Texas Respublikasının ərazisi
- 1846-cı ildə Böyük Britaniya ilə bağlanmış müqaviləyə görə birləşdirilən ərazi
- 1848-ci ildə Meksika ilə müharibə nəticəsində birləşdirilən ərazi

**T** Xəritə əsasında ABŞ-nin ərazi dəyişikliyini əks etdirən cədvəl hazırlayın.

XIX yüzilliyin ortalarına doğru ABŞ-nin əraziləri xeyli genişləndi. Luizianadan sonra Florida, Şimali Kaliforniya və Texas ABŞ-yə birləşdirildi.

ABŞ-nin iqtisadi inkişafı yolunda başlıca maneə quldarlıq münasibətlərinin saxlanılması idi. Quldarlığın ləğv olunduğu Şimal ştatlarında fermer təsərrüfatı geniş yayılır və nəticədə sənaye inkişaf edirdi. Quldar plantasiyalarının üstünlük təşkil etdiyi Cənub ştatlarında qul əməyi tətbiq olunurdu. Burada qaradərili əhaliyə qarşı irqi ayrı-seçkilik dərin kök salmışdı. Fermerlər, fəhlələr və qabaqcıl ziyalılar quldarlığın ləğv olunması üçün mübarizə aparırdılar. Onları **abolisionistlər★** adlandırırdılar.

★ *Abolisionist* ingilis dilindəki "abolition" (ləğvetmə) sözündən yaranmışdır. Mənası "quldarlığın ləğv olunması tərəfdarı" deməkdir.



*Amerikada pambıq plantasiyasında kölə əməyi*

**S** Sizcə, kölə əməyinin tətbiqi iqtisadi və siyasi inkişafa mənfi təsir göstərə bilərdimi? Fikrinizi necə əsaslandırardınız?

# ABŞ XIX yüzilliyin ikinci yarısında

Ölkədə quldarlıq əleyhdarları ilə tərəfdarları arasında mübarizə get-gedə kəskinləşirdi. 1854-cü ildə yaradılan **Respublikaçılar** partiyası quldarlığın ləğv olunması tərəfdarlarının sıx birləşdiyi mərkəzə çevrildi. Sənaye burjuaziyasının rəhbər rol oynadığı bu partiyanın tərəfdarları içərisində daha çox fermerlər və fəhlələr yer tuturdu. 1860-cı ilin prezident seçkilərində respublikaçıların namizədi **Avraam Linkoln** prezident seçildi.



***Avraam Linkoln***

Onun prezident seçilməsi Cənub ştatlarında böyük həyəcanla qarşılandı. O, vəzifəsinin icrasına başlamamış Cənub ştatları ABŞ-dən ayrılaraq **Konfederasiya**★ adlanan dövlət yaratdı.

★ *Konfederasiya* latın dilindəki *"konfederasio"* (*birlik*) sözündən yaranmışdır. Sözün ifadə etdiyi məna *"suverenliklərini mühafizə etmək üçün dövlətlərin bu və ya digər məqsədlə müvəqqəti olaraq birləşdiyi çox da möhkəm olmayan birlik"* deməkdir.

Bu, qanuni hökumətin fəaliyyət göstərdiyi Şimal ştatları ilə qiyamçılar arasında hərbi əməliyyatlara gətirib çıxartdı. Beləliklə, ABŞ-də 1861–1865-ci illəri əhatə edən vətəndaş müharibəsi baş verdi. Vətəndaş müharibəsinin əsas səbəbi sənaye burjuaziyası ilə quldarlıq tərəfdarları arasında mübarizənin kəskinləşməsi idi.



***ABŞ-də vətəndaş müharibəsi***

Müharibənin əvvəlində Cənub ştatlarının müvəqqəti uğurlar əldə etməsi, torpaq və quldarlıq məsələlərinin həll olunmaması xalq kütlələri içərisində məyusluq doğururdu. Nəhayət, 1862-ci ildə "**Homstedlər**★ **haqqında**" **Qanun** qəbul edildi. Torpaq becərmək istəyən hər bir amerikalı təqribən 65 hektar torpaq sahəsi ala bilərdi. Bu torpaqlarda kölə əməyindən istifadə olunmamalı idi. Həmin il imzalanmış "**Azadolunma haqqında Bəyannamə**"yə görə 1863-cü ilin yanvarından köləlik ləğv olundu. Bu tədbirlər müharibədə Şimalın üstünlüyünü təmin etdi. 1865-ci ilin aprelində Konfederasiyanın paytaxtının tutulması nəticəsində müharibə başa çatdı. Şimalın qələbəsi nəticəsində ikihakimiyyətliliyə son qoyuldu və ölkənin bütövlüyü qorunub saxlanıldı.

★ *Homsted* ingilis sözü olub, mənası "*boş ev, yer, boş sahə, torpaq*" deməkdir.

S

**Sizcə, vətəndaş müharibəsində Konfederasiya qoşunları qalib gəlsə idi, ABŞ-nin sosial-iqtisadi və siyasi həyatında hansı dəyişikliklər baş verərdi?**




Alyaskanın Rusiyadan alınması

Müharibə qurtarmasına az qalmış A.Linkoln teatr salonunda sui-qəsd nəticəsində öldürüldü. ABŞ konqresi vətəndaş müharibəsindən sonra Konstitusiyaya yeni əlavələri qəbul etdi. Qaradərililər ağlarla bərabər mülki və siyasi hüquqlar aldılar.

ABŞ müharibədən sonra sürətli iqtisadi inkişaf yoluna qədəm qoydu. Zəngin xammal ehtiyatına malik Alyaskanın Rusiyadan alınması nəticəsində ABŞ-nin sərhədləri yenidən genişləndirildi.

T Alyaskanın ABŞ-yə qatılmasının siyasi əhəmiyyətini şərh edin.



A.Linkolnin teatrda qətlə yetirilməsi

## ABŞ XX yüzilliyin əvvəllərində

ABŞ yeni yüzilliyə elmi-texniki nailiyyətlərin geniş tətbiq edildiyi sürətli iqtisadi inkişafla qədəm qoydu. Buna görə də sənaye istehsalının həcminə görə dünyada birinci yerə çıxdı. Yeni sənaye sahələri inkişaf edir, **İnhisar**★ birliyi olan **trestlər**★★ yaranırdı.

★ *İnhisar* istehsal, satış və xarici ticarətdə müstəsna hüquqa *malik olmaq* deməkdir.

★★ *Trest* tərkibinə daxil olan müəssisələrin istehsal, satış, bəzən isə hüquqi müstəqilliklərini itirdikləri inhisar formasıdır.

İlk tresti Con Rokfeller yaratdı. Onun "**Standart oyl**" tresti XX yüzilliyin əvvəllərində ən böyük neft inhisarlarından birinə çevrildi.

1900–1903-cü illərdə baş vermiş dünya iqtisadi böhranından sonra ABŞ-də həyata keçirilən isla-



Ruzveltin inaqurasiyası

hatçılıq xəttinin ən görkəmli nümayəndələri **Teodor Ruzvelt** və **Vudro Vilson** oldu.

T.Ruzveltin prezidentliyi dövründə (1901–1909) konqresdə **"Trestlər əleyhinə" Qanun** qəbul edildi. Dövlət iri trestlərin fəaliyyətini nəzarət altına aldı. T.Ruzveltin **"Böyük dəyənək"** siyasətinin məqsədi Latın Amerikasında əsas söz sahibi olmaq və beynəlxalq aləmdə ABŞ-nin mövqeyini möhkəmləndirmək idi.

1913-cü ildə fəaliyyətə başlayan prezident V.Vilsonun hakimiyyət illəri **"Yeni demokratiya dövrü"** adlanır. O, gömrük, bank, maliyyə sahəsində əsaslı islahatlar keçirdi və inhisarlar üzərində dövlət nəzarətini gücləndirdi.



*Teodor Ruzvelt*

T Mövzu əsasında ABŞ prezidentlərinin fəaliyyətləri ilə bağlı cədvəli tamamlayın.

| Prezidentin adı | Fəaliyyəti |
|---|---|
| Tomas Cefferson | Seçki senzi ləğv olundu |
| | |

| Prezidentin adı | Fəaliyyəti |
|---|---|
| | |
| | |

# 2 BÖYÜK BRİTANİYA VƏ FRANSA

Dəmir yolu, parlament islahatı, dominion, Antanta, Napoleon Bonapart, "Müqəddəs İttifaq", İkinci imperiya

## Böyük Britaniya XIX yüzilliyin birinci yarısında

XIX yüzilliyin birinci yarısında İngiltərə sənayenin inkişafı baxımından dünyanın qabaqcıl ölkələrindən biri idi. Maşınlı istehsalın tətbiqinin genişlənməsi nəticəsində sənaye çevrilişi başa çatmış və iqtisadiyyatda üstünlük kənd təsərrüfatından sənayeyə keçmişdi. Xırda və orta müəssisələrin rəqabətə davam gətirməməsi və iri müəssisələrin daha da böyüməsi nəticəsində istehsalın **təmərküzləşməsi**★ prosesi gedirdi.

★ *Təmərküzləşmə* sənayenin müxtəlif sahələrinin iri müəssisələr şəklində cəmləşməsidir.

**Sizcə, təmərküzləşmə prosesinin baş verməsi iqtisadiyyata necə təsir göstərir?**

Bu dövrdə sənaye istehsalının həcminə görə öndə gedən İngiltərəni "dünya emalatxanası" adlandırırdılar. Dünya ticarətində və müstəmləkələr uğrunda mübarizədə İngiltərənin əsas rəqibi Fransa idi. Ona görə də Fransa əleyhinə koalisiyada iştirak edərək onu zəiflətməyə çalışırdı. Avropada aparılan müharibələrdə Fransanın məğlub olması nəticəsində İngiltərənin dünyada mövqeyi daha da möhkəmləndi. Müstəmləkələrdən böyük miqdarda xammalın gətirilməsi və iri sənaye müəssisələrinin yaradılması iqtisadi inkişafı sürətləndirdi. Ucuz və əlverişli yükdaşmanın təmin olunmasında dəmir yollarının əhəmiyyəti böyük oldu. 1825-ci ildə İngiltərədə ilk dəmir yolu çəkildi.

**İngiltərənin iqtisadi inkişafında hansı amillərin rolu olmuşdur?**

Ölkədə sənaye burjuaziyasının mövqeyinin möhkəmlənməsinə baxmayaraq, siyasi hakimiyyət hələ də iri torpaq sahiblərinin əlində idi. 1832-ci ildə keçirilən parlament islahatı nəticəsində iri burjuaziya hakimiyyətdə təmsil olunmağa başladı.





Böyük Britaniya parlamenti

# Böyük Britaniya XIX yüzilliyin ikinci yarısı – XX yüzilliyin əvvəllərində

Güclü ticarət donanması olan İngiltərə dünya bazarında ağalıq edirdi. Xarici ölkələrə qoyulan kapitalın miqdarına görə onun rəqibi yox idi. Lakin müstəmləkələrdə istehsal olunan hazır məhsulların idxal edilməsi yerli istehsala mənfi təsir göstərirdi. Başqa ölkələrdə istehsal olunan malların daxili bazarda artması da narahatlıq doğururdu. Hakimiyyətdə bir-birini əvəz edən Mühafizəkarlar və Liberal partiyaları ölkəni bu vəziyyətdən xilas etmək üçün tədbirlər həyata keçirdi. Nəticədə idxal olunan məhsullara məhdudiyyət qoyuldu. İqtisadi problemlər ölkədaxili siyasi vəziyyətə də təsir göstərdi. 1867-ci ildə ikinci parlament islahatı keçirildi. Bununla da xırda burjuaziya ilə yanaşı, fəhlələrin yuxarı təbəqəsi də seçki hüququ qazandı.

**S** **Ölkə iqtisadiyyatında məhsul idxalının ixracatı üstələməsi nəyə səbəb olur?**

Müstəmləkə işğalları və nüfuz dairələri uğrunda aparılan mübarizədə İngiltərənin əsas rəqibi Fransa idi. XIX yüzilliyin ortalarında İngiltərə Hindistanın işğalını başa çatdırdı və Çinin yarımmüstəmləkəyə çevrilməsində əsas rol oynadı. Böyük Britaniya dünyada ən çox müstəmləkəyə sahib olan imperiya idi. Onu "üzərində heç vaxt günəş batmayan imperiya" adlandırırdılar. 1867-ci ildə qəbul edilən aktla İngiltərə Kanadaya **dominion**★ hüququ verdi.

★ *Dominion* özünüidarə hüququ almış müstəmləkə ölkədir.

**S** **Nə üçün Böyük Britaniyanı "üzərində heç vaxt günəş batmayan imperiya" adlandırırdılar?**




**London, 1902-ci il**

XX yüzilliyin əvvəllərində İngiltərə dünyanın ən güclü və ən zəngin ölkələrindən biri idi. London dünyanın maliyyə mərkəzinə çevrilmişdi. İngiltərə dünya ticarətində və kapital ixracında birinci yeri tuturdu. Lakin sənaye istehsalına görə o, ABŞ və Almaniyadan geri qalırdı.

**T** XX yüzilliyin əvvəllərində İngiltərə və ABŞ-nin iqtisadi vəziyyətini müqayisə edin.

Cənubi Afrikada öz müstəmləkələrini genişləndirmək istəyən İngiltərə burada avropalıların nəslindən olan burlarla müharibəyə başladı (1899–1902). Müharibədə qalib gələn İngiltərə Cənubi Afrikanın işğalını başa çatdırdı. 1910-cu ildə bu torpaqlara Cənubi Afrika İttifaqı adı altında dominion hüququ verildi.

XX yüzilliyin əvvəllərində dünyanı bölüşdürmək uğrunda Almaniya ilə münasibətlərin kəskinləşməsi İngiltərəni Fransa ilə yaxınlaşdırdı. O, Fransanın Mərakeşdə, Fransa isə İngiltərənin Misirdə ağalığını tanıdı. 1907-ci ildə Peterburqda Rusiya ilə bağlanan saziş nəticəsində onlar üçlü "**Antanta**"* hərbi-siyasi ittifaqını yaratdılar.

**T** İngiltərə, Fransa və Rusiyanın yaxınlaşmasının səbəblərini müəyyən edin.

★ *Antanta* (*fransız dilində "saziş" deməkdir*) İngiltərə, Fransa və çar Rusiyasının Almaniya və müttəfiqlərinə qarşı yaratdığı hərbi blokdur.




**İngilis əsgərləri, 1902-ci il**

# Fransa XIX yüzilliyin birinci yarısında

1804-cü ildə Napoleon Bonapartın imperator elan edilməsi ilə Fransada **Birinci imperiya** yarandı. Monarxiya bərpa olundu. I Napoleon hakimiyyətini gücləndirmək üçün bütün idarəçiliyi əlində cəmləşdirdi. Mərkəzləşmiş idarə sistemi yaradıldı, məhkəmə orqanları hökumətdən asılı hala salındı. Formal xarakter daşısa da, şəxsiyyətin toxunulmazlığı, vicdan azadlığı və bərabərlik hüququ rəsmiləşdirildi. Xüsusi mülkiyyət toxunulmaz elan olundu. Fəhlə ittifaqları və tətillər qadağan edildi.



I Napoleon Bonapart

**T** I Napoleonun daxili siyasətinin mahiyyətini izah edin.

Fransanın xarici siyasətinin əsasını işğalçılıq müharibələrinin aparılması təşkil edirdi. Ona görə də Avropa dövlətləri Fransaya qarşı koalisiya-ittifaq təşkil etdi.

## Qərbi Avropa XIX yüzilliyin birinci yarısında



1805-ci ilin oktyabrında **Trafalqar** dəniz döyüşündə ingilis donanması fransızları məğlubiyyətə uğratdı. I Napoleon əsas zərbəni Avstriyaya yönəldərək Vyananı tutdu. **Austerlits** döyüşündə Rusiya və Avstriya ordusu məğlub edildi. 1806-cı ildə Prussiya ordusunu məğlub edən I Napoleon Berlinə daxil oldu. O, burada **"Kontinental (Qitə) blokada haqqında"** dekret imzaladı. Fransa imperiyasına və ondan asılı olan ölkələrə İngiltərə ilə ticarət qadağan edildi. 1807-ci ildə Rusiyanı məğlub edən Fransa onunla **Tilzit** müqaviləsini imzaladı. Bununla da o, Fransanın Avropadakı işğallarını tanıdı və İngiltərəyə qarşı kontinental blokadaya qoşuldu.

T

I Napoleonun apardığı müharibələrə dair cədvəl tərtib edin.



***I Napoleonun Berlinə daxil olması***

İngiltərə ilə ticarət əlaqələrini davam etdirdiyinə görə I Napoleon 1812-ci ildə Rusiyaya hücum etdi. O deyirdi: ***"Əgər mən Kiyevi tutsam, Rusiyanın ayaqlarından, Peterburqu ələ keçirsəm, Rusiyanın başından yapışmış olaram. Moskvanı tutmaqla mən Rusiyanın ürəyinə zərbə endirəcəyəm"***. **Borodino** döyüşündə böyük itki versə də, fransız ordusu Moskvanı tutdu.

Sərt iqlim, ərzaq ehtiyatının toplanılmasındakı çətinlik, əsas döyüşdən yayınan rus ordusunun hər yerdə düşməni təqib etməsi və xalqın yadellilərə qarşı **partizan*** müharibəsi aparması böyük itkilər verən fransız ordusunun Rusiyanı tərk etməsinə səbəb oldu. Fransa ordusunun Rusiyadakı məğlubiyyəti I Napoleon imperiyasının süqutunun başlanğıcı oldu.



***Borodino döyüşü***

★ *Partizan* düşmən arxasında müstəqil hərəkət edən silahlı xalq dəstələrinin iştirakçısıdır.

Layihə

**S** Nə üçün I Napoleon Rusiyada məğlub oldu?

1813-cü ildə Leypsiq yaxınlığındakı "*Xalqlar döyüşü*"ndə fransız ordusu müttəfiqlərə məğlub oldu. 1814-cü ildə Parisə daxil olan müttəfiqlər I Napoleonu hakimiyyətdən uzaqlaşdıraraq Elba adasına sürgün etdilər. Burbonlar sülaləsi bərpa edildi. 1814–1815-ci illərdə Avropa dövlətlərinin müharibədən sonrakı sərhədlərini müəyyən etmək üçün **Vyana sülh konqresi** çağırıldı. Rusiya, Avstriya və İngiltərə bir sıra ərazilər əldə etdi. Alman dövlətlərindən ibarət Almaniya İttifaqı yaradıldı. Təzminat ödəməli olan Fransa əvvəlki sərhədlərinə qaytarıldı.

Rusiyanın təşəbbüsü ilə inqilabları yatırmaq və Osmanlı dövlətinə qarşı mübarizə aparmaq məqsədilə **Müqəddəs İttifaq** yaradıldı. Bu ittifaqda Avstriya, Prussiya və Rusiya əsas rol oynayırdı.

1815-ci ilin yazında əsirlikdən qaçan Napoleon Fransada hakimiyyətini bərpa etdi. Lakin **Vaterloo** döyüşündə müttəfiqlərə məğlub olaraq Müqəddəs Yelena adasına sürgün edildi.

**S** Vyana konqresinin hansı mühüm nəticələri oldu?





*Vyana konqresi*

# Fransa XIX yüzilliyin ikinci yarısı – XX yüzilliyin əvvəllərində

1852-ci ildə Lui Napoleonun **III Napoleon** adı ilə imperator elan edildi və Fransada **İkinci imperiya** quruldu. Bu dövrdə sənaye və ticarət inkişaf etdi. Sənaye çevrilişi başa çatdı.

Vahid Almaniya dövlətinin yaranmasına yol verməmək üçün Fransa 1870-ci ildə Prussiya ilə müharibəyə başladı. Başda III Napoleon olmaqla Fransa ordusunun Sedan ətrafında məğlub olması xalq üsyanına səbəb oldu. Nəticədə İkinci imperiya devrildi və Fransa respublika elan olundu.

1871-ci il yanvarın 18-də Versalda Almaniya imperiyasının yaranması elan edildi. Fransa Respublikası ilə Almaniya imperiyası sülh bağladı. Sülhün şərtlərinə görə, Fransa Elzas və Lotaringiya vilayətlərini Almaniyaya verməli və 5 milyard frank təzminat ödəməli idi.

**T** Fransanın məğlub olmasının səbəblərini araşdırın.

XX yüzilliyin əvvəllərində Fransa sənayenin inkişafına görə ABŞ, Böyük Britaniya və Almaniyadan geri qalırdı. Ölkədə elektrotexnika, aviasiya və avtomobil istehsalı sürətlə inkişaf edirdi. İnhisar birliklərinin sayı artırdı. Fransa kapital ixracına görə Böyük Britaniyadan sonra ikinci yerdə idi. Xarici siyasətdə əsas məqsəd Almaniyadan qisas almağa yönəlmişdi. Bu revanşizm (əvəzçıxma) siyasəti Fransanı Rusiya və Böyük Britaniya ilə yaxınlaşdırdı.

**T** XX yüzilliyin əvvəllərində Fransanın iqtisadi-siyasi inkişaf xüsusiyyətlərini müəyyən edin.

Layihə

# 3 ALMANİYA VƏ İTALİYA

Almaniya ittifaqı, Otto fon Bismark, Almaniya imperiyası, Üçlər ittifaqı, İtaliyanın birləşdirilməsi

## Almaniya XIX yüzilliyin birinci yarısında

XIX yüzilliyin əvvəlində feodal qaydalarının hökm sürdüyü Almaniyada siyasi dağınıqlıq mövcud idi. Vyana konqresində alman dövlətlərindən ibarət Almaniya İttifaqı təşkil edildi. İttifaqa daxil olan ən güclü dövlətlər – Prussiya və Avstriya arasında ağalıq uğrunda mübarizə gedirdi. Bu çəkişmələr Almaniyanın vahid dövlətdə birləşdirilməsinə mane olurdu.

Almaniyanın kənd təsərrüfatında mülkədar torpaq sahibliyi üstünlük təşkil edirdi. Buna baxmayaraq, bəzi təsərrüfatlarda muzdlu əmək tətbiq olunur, emal müəssisələri yaradılırdı. Fransa ilə sərhəd bölgələrində kapitalist münasibətləri inkişaf edirdi. Lakin feodal qaydalarının mövcudluğu ölkənin iqtisadi inkişafını ləngidirdi.

Çoxlu daxili gömrükxanaların olması ölkə ərazisində ticarəti çətinləşdirirdi. 1834-cü ildə Avstriya istisna olmaqla, Almaniya İttifaqında gömrük sərhədlərinin ləğv edilməsi nisbi inkişafa təkan verdi. Lakin siyasi pərakəndəlik, müxtəlif pul, ölçü və çəki vahidlərinin olması iqtisadiyyatın inkişafına mane olurdu.

**T** Almaniyanın inkişafına mane olan amilləri müəyyən edərək cədvəli tamamlayın.

| Siyasi inkişafa mane olan amillər | İqtisadi inkişafa mane olan amillər |
|---|---|
| | |




**Frankfurt-Mayn parlamentinin açılışı**

İqtisadi böhran nəticəsində əhalinin vəziyyətinin ağırlaşması 1848-ci ildə Almaniyada inqilabın başlanmasına səbəb oldu. İnqilabın başlıca məqsədi ölkənin siyasi birləşdirilməsi və feodal qaydalarının ləğv edilməsi idi.

İnqilabi qüvvələrin təzyiqi nəticəsində Frankfurt-Mayn şəhərində ümum-alman parlamenti fəaliyyətə başladı. Deputatların əksəriyyəti vahid Almaniya imperiyasının yaradılması ideyasını irəli sürdü. Prussiya və Avstriya arasındakı ziddiyyətlər bu ideyanın həyata keçirilməsinə mane oldu. 1849-cu ildə alman dövlətlərində inqilabi qüvvələr əleyhinə fəaliyyətin güclənməsi və Frankfurt parlamentinin qovulması ilə inqilab məğlubiyyətə uğradı. İnqilabın əsas nəticəsi Prussiyada konstitusiyanın qəbul edilməsi oldu.

**S** **Nə üçün Almaniyada 1848-1849-cu illər inqilabının əsas məqsədlərindən biri vahid dövlətin yaradılması idi?**

Layihə

# ALMANİYA XIX YÜZİLLİYİN İKİNCİ YARISINDA

Burjua inqilabından sonra Almaniyada kapitalizmin inkişafı sürətləndi. Sənaye çevrilişi başladı. Ölkənin qabaqcıl siyasi düşüncə sahibləri yaxşı başa düşürdülər ki, vahid dövlət olmadan davamlı inkişafa nail olmaq və digər dövlətlərlə rəqabət aparmaq mümkün deyil. Bu ağır siyasi prosesi Prussiya krallığı öz üzərinə götürdü. Prussiya kralı I Vilhelm 1862-ci ildə **Otto fon Bismarkı** baş nazir təyin etdi. O, ölkənin güc yolu ilə – **"dəmir və qanla"** birləşdirilməsinin tərəfdarı idi. 1864-cü ildə Danimarkanın əlində olan iki alman hersoqluğunun Prussiya tərəfindən tutulması Avstriyanın narazılığına səbəb oldu. Nəticədə iki ölkə arasında müharibə başladı. 1866-cı ildə Sadova döyüşündə Avstriya məğlub oldu. Almaniyanın birləşdirilməsi yolundakı başlıca maneə aradan qaldırıldı. Almaniya ittifaqı buraxıldı. Onun yerində **Şimali alman ittifaqı** təşkil edildi. 1867-ci ildə Şimali alman ittifaqının konstitusiyası qəbul edildi.



*Otto fon Bismark*

Fransa qonşuluğunda güclü Almaniya dövlətinin yaradılmasını istəmirdi. Prussiya ilə olan ziddiyyətlər ölkələr arasında müharibəyə səbəb oldu. Müharibədə qalib gələn Prussiya 1871-ci ildə Versalda **Almaniya imperiyasının** yaradıldığını elan etdi. Almaniyanın birləşdirilməsi prosesi başa çatdı Və imperiyanın konstitusiyası qəbul edildi. I Vilhelm imperator, Bismark isə kansler – baş nazir oldu. Sülh müqaviləsinə görə Elzas və Lotaringiyanın Almaniyaya keçməsi və Fransanın 5 milyard frank təzminat ödəməsi Almaniya iqtisadiyyatının inkişafına səbəb oldu.

**T** Almaniya ittifaqı ilə Şimali alman ittifaqını müqayisə edin.

| Almaniya ittifaqı | | Şimali alman ittifaqı |
|---|---|---|
| | | |

I Vilhelmin tacqoyma mərasimi








*Üç imperatorun ittifaqı*

**T** Almaniyanın birləşdirilməsi prosesini dövr baxımından qiymətləndirin.

**T** Bismarkın fəaliyyətini təhlil edin və ona münasibət bildirin.

Almaniya üç tərəfdən böyük dövlətlərlə – Fransa, Avstriya-Macarıstan və Rusiya ilə əhatə olunmuşdu. Fransanın bu iki dövlətdən biri ilə ittifaqı Almaniyanı iki cəbhədə mübarizə aparmaq məcburiyyəti qarşısında qoya bilərdi. Buna görə də Almaniya Avstriya-Macarıstanla yaxınlaşdı. İtaliyanın da bu dövlətlərlə yaxınlaşması nəticəsində 1882-ci ildə **Üçlər ittifaqı** yarandı. Avropada öz təhlükəsizliyini təmin edən Almaniya Afrika və Asiyada təcavüzkar siyasət yeritməyə başladı. Müstəmləkələr uğrunda mübarizə Almaniya və İngiltərə arasında rəqabətin artmasına səbəb oldu.




**S** **Üçlər ittifaqının yaradılmasının səbəbi nə idi?**

**M** Otto fon Bismark 1815-ci ildə zadəgan ailəsində anadan olmuşdur. Hələ uşaqlıq illərindən Otto yüksək intellektual səviyyəyə malik olması ilə fərqlənirdi. O, ingiliscə yazır və oxuyur, fransız, rus dillərində sərbəst danışırdı. Natiqlik məharəti ilə seçilirdi. Berlin Universitetini bitirən Bismark bir müddət vəkillik fəaliyyəti ilə məşğul olmuşdur. Siyasi fəaliyyətə Prussiya parlamentinə deputat seçilməklə başlamışdır. Diplomatik bacarığı ilə seçilən Bismark bir müddət Prussiyanın Rusiya və Fransada səfiri vəzifəsində çalışmışdır. O, 1862–1890-cı illərdə Prussiyanın, Şimali alman ittifaqının və Almaniya imperiyasının baş naziri vəzifəsini icra etmişdir. O. Bismarkın 80 illik yubileyi ölkədə təntənə ilə qeyd edilmişdir. Almaniya tarixinə öz damğasını vuran bu böyük siyasətçi 1898-ci ildə vəfat etmişdir.

# Almaniya XX yüzilliyin əvvəllərində

XX yüzilliyin əvvəllərində Almaniya sənaye istehsalının həcminə görə Fransa və Böyük Britaniyanı ötüb keçdi. Bu göstəriciyə görə o yalnız ABŞ-dən geri qalırdı. İqtisadi inkişaf inhisarların yaranmasını sürətləndirdi. Almaniyanın xarici ölkələrə qoyduğu kapitalın həcmi daha da artdı. Almaniyanın Osmanlı imperiyasında yüksək nüfuz əldə etməsi və dənizlərdə İngiltərə ilə rəqabətə hazırlaşması onun Avropada hökmranlıq iddiasını gücləndirdi. Almaniyanın hakim dairələri müharibə xəttini əsas götürmüşdü.

1905-ci ildə Almaniyanın Baş qərargah rəisi **A.Şliffenin** rəhbərliyi ilə Fransa və Rusiyaya qarşı müharibə planı hazırlandı. **"Şliffen planı"** iki cəbhədə müharibənin aparılmasına əsaslanırdı. Müharibəyə iqtisadi, hərbi və ideoloji hazırlıq baxımından Almaniya öz rəqiblərindən irəlidə gedirdi.



*Alfred fon Şliffen*

T — Almaniyanın XX yüzilliyin əvvəllərindəki siyasi vəziyyətini qiymətləndirin.

# İtaliyanın birləşdirilməsi

XIX yüzilliyin birinci yarısında İtaliya siyasi cəhətdən dağınıq vəziyyətdə idi. İqtisadi cəhətdən ölkənin ən inkişaf etmiş hissəsi **Sardiniya krallığı** hesab olunurdu. Digər inkişaf etmiş bölgə Lombardiya Venesiya ilə birlikdə Avstriyanın hakimiyyəti altında idi. İtaliya dövlətlərindən yalnız Sardiniyada konstitusiya qəbul edilmişdi. İtaliyanın birləşdirilməsi uğrunda mübarizəyə Sardiniya krallığı başçılıq edirdi. Fransa ilə ittifaq bağlayan Sardiniya Avstriyaya qarşı müharibəyə başladı. 1859-cu ildə baş vermiş **Salferino döyüşündə** avstriyalılar məğlub edildi. Lombardiya azad edildi. Növbəti ildə xalq qəhrəmanı **Cüzeppe Haribaldinin** rəhbərlik etdiyi dəstələr Siciliya krallığını ələ keçirib Sardiniyaya birləşdirdi.

1861-ci ildə İtaliya krallığı yaradıldı. Avstriya Prussiya ilə müharibədə məğlub olduqdan sonra Venesiya İtaliyaya birləşdirildi. 1870-ci ildə Romanın tutulması nəticəsində İtaliyanın birləşdirilməsi başa çatdı. Roma İtaliya krallığının paytaxtı oldu. Siyasi pərakəndəliyin başa çatması ölkənin iqtisadi inkişafına səbəb oldu.

S — **İtaliyanın birləşdirilməsinin hansı mühüm nəticələri oldu?**

İtaliyanın birləşdirilməsi gedişində iki mühüm vəzifə həll edildi:

- ölkənin şimal-şərqi Avstriya zülmündən azad edildi;
- vahid dövlət yaradıldı.

Bir müddət sonra İtaliya, Almaniya və Avstriya-Macarıstan arasında baş verən siyasi yaxınlaşma nəticəsində Üçlər İttifaqı yaradıldı. İtaliya mümkün Fransa təhlükəsinə qarşı Almaniyaya kömək edəcəyinə və Avstriya-Macarıstanla Rusiya arasında baş verəcək münaqişədə bitərəf qalacağına dair öhdəlik götürdü.

T — İtaliya və Almaniyanın birləşdirilməsi siyasətini müqayisə edin.

# 4 RUSİYA İMPERİYASI

I Aleksandr, Dekabristlər üsyanı, Krım müharibəsi, burjua islahatları, Qafqaz müharibəsi, Dövlət Duması

## Rusiya XIX yüzilliyin birinci yarısında

XIX yüzilliyin əvvəllərində dünyanın ən böyük dövlətlərindən biri olan Rusiya feodal-təhkimçi ölkəsi olaraq qalırdı. Bu da ölkənin iqtisadi inkişafını ləngidir və onun Qərbi Avropa dövlətlərindən geri qalmasına səbəb olurdu. 1801-ci ildə baş verən saray çevrilişi nəticəsində hakimiyyətə I Aleksandr (1801–1825) gəldi. O, bir sıra islahatlar həyata keçirdi. Siyasi məhbuslar əfv olundu, senzura yumşaldıldı, zadəganların hüquqları bərpa olundu. Qəbul edilmiş **"Azad taxılçılar"** haqqında fərmana əsasən mülkədarlar təhkimli kəndliləri ödənc alaraq torpaqla birlikdə azad edə bilərdilər.



***I Aleksandr***

Təhsil sahəsində mühüm addımlar atıldı. Ölkədə yeni universitetlər açıldı. Bir sıra şəhərlərdə gimnaziya və qəza məktəbləri fəaliyyətə başladı. Dövlət idarəçiliyi sahəsində nizam-intizam yaratmaq məqsədilə kollegiyaların əvəzinə, Avropada olduğu kimi nazirliklər təşkil edildi. 1810-cu ildə məşvərətçi orqan olan **Dövlət Şurası** yaradıldı.

T I Aleksandrın keçirdiyi islahatların əhatə etdiyi sahələrlə bağlı cədvəl tərtib edin.

I Aleksandrın hakimiyyəti dövründə də Rusiya xarici siyasətdə öz işğalçılıq ənənəsini davam etdirirdi. Belə ki Rusiya İsveçi məğlub etməsi ilə Finlandiyanı, Osmanlı imperiyası ilə müharibədən sonra Bessarabiyanı, Qacarlar dövləti ilə apardığı müharibənin nəticəsində isə Cənubi Qafqazın böyük hissəsini işğal etdi.

1812-ci ildə Rusiya I Napoleonun böyük ordusunun hücumuna məruz qaldı. Buna səbəb Rusiyanın Avropanın Fransa tərəfindən işğalına əsas maneə olması və Tilzit müqaviləsinin şərtlərinə əməl etməməsi idi. Fransızlar Moskvanı tutsalar da, buranın qışına hazır deyildilər. Bundan istifadə edən rus xalqının apardığı partizan müharibəsi öz bəhrəsini verdi. Açıq döyüşə girməkdən imtina edərək öz varlığını qoruyub saxlayan rus ordusunun təqibi altında qalan fransızlar Rusiyanı məğlubiyyətlə tərk etdilər. Bu qələbə mürəkkəb sosial-iqtisadi ziddiyyətlərə baxmayaraq, hakimiyyət, ordu və xalqın vahid vətənpərvərlik ideyası ətrafında birləşməsinin nəticəsi idi.





Satış



*I Napoleonun Rusiyadan geri çəkilməsi*

I Aleksandrın hakimiyyəti dövrünə aid cədvəli doldurun.

Fransa ilə aparılan müharibələr zamanı Avropanın mütərəqqi ictimai-siyasi quruluşu ilə tanış olan rus zabitləri gizli cəmiyyətlər yaradırdılar. Mütləqiyyətin əleyhinə olan bu cəmiyyətlər təhkimçiliyin ləğvini və konstitusiya qəbul edilməsini istəyirdi. Onların 1825-ci ilin dekabrında həyata keçirmək istədikləri çevriliş cəhdinin qarşısı taxta yenicə çıxmış I Nikolay (1825–1855) tərəfindən alındı. "Dekabristlər üsyanı" kimi tarixə düşən bu hərəkat Rusiyada inqilabi mübarizənin başlanğıcı oldu. Üsyanın yatırılmasından sonra I Nikolay ölkədə mütləqiyyət rejimini daha da möhkəmləndirdi.

"Dekabristlər üsyanının" əsas səbəbləri nə idi?



*Dekabristlər üsyanı*

Layihə

# Rusiya XIX yüzilliyin ikinci yarısında

XIX yüzilliyin ortalarında da Rusiyanın xarici siyasətinin əsasını işğalçılıq müharibələrinin aparılması təşkil edirdi. Bu dövrdə Osmanlı imperiyasının hakimiyyəti altında olan torpaqların bölüşdürülməsi və Yaxın Şərqdə nüfuz qazanmaq uğrunda Avropa dövlətləri arasında mübarizə gedirdi.

**"Şərq məsələsi"** adlanan bu siyasətin həyata keçirilməsində Rusiya öz fəallığı ilə seçilirdi. Böyük Britaniya və Fransa Rusiyanın bu məsələni təkbaşına həll etmək istəyinə qarşı çıxırdı.

Ona görə də onlar **Krım müharibəsində** (1853–1856) Osmanlı dövlətinə yardım etdilər. Rusiya məğlub oldu. Parisdə sülh müqaviləsi imzalandı.



*Parisdə sülh müqaviləsinin müzakirəsi*

**PARİS SÜLH MÜQAVİLƏSİNİN ƏSAS ŞƏRTLƏRİ**

- **Tərəflər işğal etdikləri torpaqları geri qaytaracaq;**
- **Osmanlı imperiyasının ərazi bütövlüyünə və müstəqilliyinə Avropa dövlətləri tərəfindən zəmanət veriləcək və onun daxili işlərinə qarışılmayacaq;**
- **Qara dənizdə heç bir dövlət hərbi donanma saxlamayacaq;**
- **Bosfor və Dardanel boğazları sülh dövründə xarici hərbi gəmilərə bağlanacaq;**
- **Dunay çayında nəqliyyat azadlığı bərpa olunacaq və s.**

Müqavilənin Avropa üçün əsas əhəmiyyəti Rusiyanın pozduğu beynəlxalq tarazlığın bərpası idi. Rusiyanın Qara dənizdə hərbi donanma saxlamaq hüququ 1871-ci ildə Londonda keçirilən beynəlxalq konfransda bərpa olundu.

T Paris sülhünün Rusiya üçün nəticələrini təhlil edin.

Krım müharibəsindəki məğlubiyyət Rusiyanın Qərbi Avropa dövlətlərindən geri qaldığını göstərdi. Ona görə də Çar II Aleksandr (1855–1881) ölkədə burjua islahatlarını həyata keçirməyə başladı. 1861-ci ildə çar təhkimçiliyin ləğv edilməsi barədə **"Əsasnamə"** verdi. Buna görə təhkimli kəndlilər şəxsi azadlıq əldə etdilər. Onlara əmlaka sahib olmaq hüququ verildi. Kəndlilər mülkədarlardan aldıqları pay torpağının əvəzində onlara pul ödəməli, pay torpaqlarını əldə etmək üçün dövlətdən aldıqları borcu 49 ilə qaytarmalı idilər. Pulu ödəyənə qədər kəndlilər əvvəlki mükəlləfiyyətləri yerinə yetirirdilər. Onlar bu müddət ərzində **"müvəqqəti mükəlləfiyyətli"** adlandırılırdılar. Bu vəziyyətə 1881-ci ildə son qoyuldu.

T Şəxsi asılılığın ləğvinin kənddə kapitalist münasibətlərinin inkişafına təkan verdiyini əsaslandırın.

1864-cü ildə çar seçkili özünüidarəetmə orqanı olan **"Zemstvo idarələri haqqında əsasnamə"**-ni təsdiq etdi. Quberniya və qəza ərazisində torpağı və başqa daşınmaz əmlakı olan bütün təbəqələrin nümayəndələrinə seçkilərdə iştirak etmək

Layihə



hüququ verildi. Zemstvolar təsərrüfat və mədəniyyət məsələləri ilə məşğul olurdu. 1870-ci ildə zemstvo idarələrinin nümunəsində şəhər özünüidarəsini yaratmaq məqsədilə **"Şəhər əsasnamə"**si təsdiq edildi. Daşınmaz əmlakı olan bütün təbəqələrin nümayəndələri şəhər dumasına seçkilərdə iştirak hüququ qazandı. Şəhər özünüidarə orqanlarına yerli vergi rüsumlarını müəyyən etmək səlahiyyəti verildi.



***II Aleksandr***

1864-cü ilin məhkəmə islahatına görə məhkəmələr bütün təbəqələrdən olan andlı iclasçıların iştirakı ilə açıq keçirilməli idi. Hakimlərin seçilməsi və məhkəmələrin hökumətdən asılı olmaması ölkədə hüquq sisteminin möhkəmləndirilməsinə xidmət edirdi. Bu, burjua islahatları içərisində ən ardıcılı idi.

1874-cü ildə keçirilən hərbi islahata əsasən ümumi əsgəri mükəlləfiyyət tətbiq olundu. Hərbi xidmət müddəti azaldılır, 21 yaşa çatan və hərbi xidmətə yararlı olan bütün kişilər orduya çağırılırdı.

İslahatlar təhsil sahəsindən də yan keçmədi. Ali tədris müəssisələrinə geniş muxtariyyətin verilməsi və tam orta təhsil verən gimnaziyaların açılması bu sahədə mütərəqqi addımlar oldu.

XIX yüzilliyin 60-70-ci illərində Rusiyada həyata keçirilən burjua islahatlarına aid cədvəl tərtib edin.

## Qafqazın işğalı

XIX yüzilliyin əvvəllərində Rusiya Qafqazın işğalına böyük əhəmiyyət verirdi. 1801-ci ildə Şərqi Gürcüstanın Rusiyaya birləşdirilməsi Qafqazın işğalında ilk addım oldu.

Rusiyanın apardığı işğalçılıq siyasəti Osmanlı imperiyası və Qacarlar dövləti ilə müharibələrə səbəb oldu. Nəticədə qalib gələn Rusiya 1829-cu ildə Cənubi Qafqazın işğalını başa çatdırdı. Qafqazdakı rus qoşunlarının komandanı tərəfindən idarə edilən ərazilərdə hərbi müstəmləkə rejimi tətbiq edildi. Türk-müsəlman xalqları dini və milli zülmə məruz qaldı.

Osmanlı imperiyasından və Qacarlar dövlətindən ermənilərin kütləvi şəkildə köçürülüb Azərbaycan torpaqlarında yerləşdirilməsi çarizmin burada həyata keçirdiyi müstəmləkəçilik siyasətinin tərkib hissəsi idi.

Bu vəziyyət Cənubi Qafqazda yaşayan əhalinin say və milli tərkibində dəyişikliyə səbəb olmaqla yanaşı, gələcəkdə Azərbaycan türklərinə qarşı soyqırımı və etnik təmizləmə siyasətinin həyata keçirilməsinin əsasını qoydu.

**Sizcə, ermənilərin köçürülməsində çarizmin əsas məqsədi nə idi?**

Cənubi Qafqazın işğalı başa çatdırıldıqdan sonra Şimali Qafqazın işğalı davam etdirildi. İşğal edilmiş ərazilərdə qalaların inşa edilməsi, dağlı əhalinin yaşayış məskənlərinin dağıdılması və əhalinin düzənlik ərazilərə köçürülməsi onların azadlıq uğrunda mübarizəyə qalxmasına səbəb oldu.

Bu mübarizə tarixə **Qafqaz müharibəsi** kimi daxil oldu. Rusiyanın işğalçılıq siyasətinə qarşı **müridizm*** bayrağı altında birləşən Şimali Qafqaz xalqlarına Şeyx Şamil rəhbərlik etdikdən sonra mübarizə daha ciddi xarakter aldı.

* *Müridizm* – Rusiyanın müstəmləkəçilik siyasətinə qarşı yönəlmiş milli azadlıq hərəkatı.



**Şeyx Şamil**

O, güclü hərbi-dini dövlət – imamət yaratdı. Qoşun sərt nizam-intizama tabe edildi. Dövlətin bütün gücü düşmənlə mübarizə aparmağa yönəlmişdi. Azərbaycanın şimal bölgələrindən və Osmanlı imperiyasından kömək alan dağlı xalqlar rus işğalçılarına qarşı mərdliklə vuruşurdular. Özlərindən çox böyük qüvvəyə malik olan Rusiyaya qarşı mübarizə dağlı xalqların gücünü tükəndirdi. 1859-cu ildə Şeyx Şamil mübarizəni dayandırsa da, dağlıların müqaviməti bir müddət də davam etdi. Nəhayət, 1864-cü ildə bütün Qafqaz Rusiyanın tərkibinə daxil edildi.

Şeyx Şamil 1834-cü ildə imam seçildikdən sonra dağlı xalqları öz ətrafında birləşdirərək rus işğalına qarşı 25 il yorulmadan mübarizə apardı. Tükənməz hərbi istedada malik olan Şamilin döyüşlərdə göstərdiyi qəhrəmanlıqları bəzən onunla vuruşan rus generalları belə etiraf etməkdən çəkinmirdi. 1859-cu ildə 70000-lik rus ordusu tərəfindən mühasirəyə alınan Şamil sonda təslim olmaq məcburiyyətində qaldı. Onu ailə üzvləri ilə birlikdə Peterburqa, çarın yanına apardılar. Rusiya çarı II Aleksandr sarayın qapısında Şamili hörmətlə qarşıladı. Onu bir ay sarayda qonaq saxladı. Bundan sonra Şamilin əsirlik həyatı başladı. Çar 10 ildən sonra Şamilin Həcc ziyarətinə getməsinə icazə verdi. Əvvəlcə İstanbula gələn Şamil Sultan Əbdüləziz tərəfindən təmtəraqla qarşılandı. O, buradan sultanın ayırdığı gəmi ilə ziyarətə yola düşdü. Ciddə limanında Məkkənin əmiri Şamili böyük ehtiramla qarşıladı. Həcc ziyarətini başa vurduqdan sonra Şamil Mədinəyə getdi. 1871-ci ildə Şeyx Şamil Mədinədə xəstələnərək 74 yaşında vəfat etdi.

Mətn əsasında Şeyx Şamilin şəxsiyyətini qiymətləndirin.

Şeyx Şamil haqqında esse yazın.

**“Şeyx Şamilin əsir alınması”.**
*Rəssam Aleksey Kivşenko*






**Qafqaz XIX yüzillikdə**

Müsəlman əhaliyə qarşı milli və dini zülm siyasətinin yeridilməsi nəticəsində onların bir hissəsi Osmanlı dövlətinin ərazisinə köçdü. Əvəzində bölgəyə rus kəndlilərinin köçürülməsinə başlanıldı.

**S** **Qafqaza erməni və rusların köçürülməsinin hansı oxşar cəhətləri vardır?**

# RUSİYA XX YÜZİLLİYİN ƏVVƏLLƏRİNDƏ

XX yüzilliyin əvvəllərində Rusiya sosial-iqtisadi cəhətdən ABŞ və Qərbi Avropa ölkələrindən geri qalırdı.

Dünya iqtisadi böhranı bir sıra sənaye müəssisələrinin fəaliyyətinin dayanmasına, işsizliyin artmasına və fəhlə tətillərinin baş verməsinə səbəb olurdu. Belə bir şəraitdə baş verən rus-yapon müharibəsindəki (1904–1905-ci illər) məğlubiyyət ölkədəki sosial-iqtisadi vəziyyəti daha da ağırlaşdırdı.

Nəticədə 1905–1907-ci illərdə Rusiyada inqilab baş verdi. İnqilabi qüvvələrin islahat tələbləri və əsarət altında olan xalqların milli azadlıq mübarizəsi çar hökumətini güzəştə getməyə məcbur etdi.

Müəyyən siyasi azadlıqlar verildi. Məhdud qanunvericilik səlahiyyətlərinə malik olan Dövlət Dumasına seçkilər keçirildi. Deputatlarla hökumət arasında olan ziddiyyətlər dumaların buraxılmasına səbəb olurdu. İkinci Dövlət Dumasının qovulması ilə inqilab başa çatdı.

**S** **Birinci rus inqilabının baş verməsinə səbəb olan amillər hansılardır?**

Kəndli çıxışlarının qarşısını almaq və kənddə özünə sosial dayaq yaratmaq məqsədilə çar hökuməti aqrar islahat həyata keçirdi. İslahatın əsas məqsədlərindən birini kənd icmalarının dağıdılması və xırda mülkiyyətçiliyin inkişaf etdirilməsi təşkil edirdi.

Digər mühüm vəzifə Sibir, Altay kimi aqrar rayonlarda kəndlilərin torpaqla təmin olunması idi. Bu islahatlar kənddə sosial təbəqələşmənin güclənməsinə səbəb oldu.

**S** **Aqrar islahatın əsas istiqamətləri hansılar idi?**

Layihə

# 5 TÜRK DÜNYASI. QACARLAR DÖVLƏTİ

Kenesar xan, "Tənzimati-xeyriyyə", "Gənc türklər", Balkan müharibələri, Qacarlar sülaləsi

## Mərkəzi Asiya

Qazaxıstanda Kiçik və Orta Juzun Rusiya tərəfindən işğalından sonra həmin bölgə rus sənayesi üçün xammal bazasına çevrilmişdi. XIX yüzilliyin 40-cı illərində Böyük Juza məxsus ərazilərin xeyli hissəsi Rusiya tərəfindən qəsb edildi. Qazaxların yaşadığı digər ərazilər isə Mərkəzi Asiyanın işğalı zamanı tabe edildi. Rusiyanın apardığı müstəmləkəçilik siyasətindən narazı qalan qazax xalqı işğalçılara qarşı mübarizəyə başladı. Kenesar xanın başçılıq etdiyi bu üsyan Qazax torpağını rus hökmranlığından və Kokand bəylərinin zülmündən xilas etmək məqsədi daşıyan azadlıq mübarizəsi idi. Rus ordusu üsyanı yatırmağa nail oldu.

**T** Rusiya əleyhinə baş vermiş bu üsyanla 1830-cu il Car-Balakən üsyanını müqayisə edin.

XIX yüzilliyin ortalarında Rusiya və Böyük Britaniya arasında rəqabət meydanına çevrilən Mərkəzi Asiyada müxtəlif dövlətlər mövcud idi. Onlardan ən böyüyü Kokand xanlığı idi. Mühüm ticarət əhəmiyyəti olan Daşkənd şəhəri bu xanlığın ərazisində yerləşirdi. Buxara əmirliyi və Xivə xanlığı da bölgənin nüfuzlu dövlətlərindən sayılırdı.

*Kenesar xan*






*Mərkəzi Asiya XIX yüzilliyin ortalarında*



**S** **Mərkəzi Asiyada müxtəlif dövlətlərin olması onun müdafiə qabiliyyətinə necə təsir göstərirdi?**

Rusiya Mərkəzi Asiyanı zəngin xammal mənbəyi və inkişaf etməkdə olan sənayesinin hazırladığı məhsullar üçün satış bazarı kimi qiymətləndirirdi. Xanlıqlar arasında gedən ara müharibələri onları zəiflədir və Rusiyanın bu əraziyə hərbi müdaxiləsini asanlaşdırırdı. İngiltərənin Mərkəzi Asiyaya açıq müdaxilə edəcəyindən çəkinən Rusiya bölgənin işğalını sürətləndirdi.

Xanlıqlar bir-birinin ardınca işğal edildi. Onların ərazisində mərkəzi Daşkənd şəhəri olan Türküstan general-qubernatorluğu yaradıldı. 1895-ci ildə Pamirin tutulması ilə Rusiya Mərkəzi Asiyanın işğalını başa çatdırdı.

Mərkəzi Asiya xalqları Rusiyanın yeritdiyi ağır müstəmləkə siyasətinə məruz qalır, milli və dini zülm əhalinin vəziyyətini daha da ağırlaşdırdı. Çar hökuməti burada özünə dayaq yaratmaq məqsədilə bölgəyə rus kəndlilərini köçürməyə başladı. Yerli əhalinin torpaqları müsadirə olunur və köçürülən ruslara verilirdi.

Rusiyanın Mərkəzi Asiyada həyata keçirdiyi siyasət xalq kütləsinin narazılığına səbəb olur və bəzi hallarda üsyanlara gətirib çıxarırdı. Üsyanlara rəhbərlik edən feodalları ələ alan hökumət orqanları bu çıxışları asanlıqla yatırırdı.

**T** Rusiyanın Mərkəzi Asiyada həyata keçirdiyi “parçala, hökmranlıq et” siyasətini şərh edin.

Layihə



*Rusların Qarsı mühasirəyə alması*

# OSMANLI İMPERİYASI

XIX yüzilliyin əvvəllərində üç qitədə ərazilərə malik olan Osmanlı imperiyasının siyasi və iqtisadi cəhətdən geriliyi özünü açıq şəkildə büruzə verirdi. Dövlətin hərbi qüdrətinin artırılması məqsədilə aparılan islahatlar uğursuzluğa düçar olmuşdu. Belə bir vaxtda Avropada baş verən hadisələr Osmanlı imperiyasının xarici siyasətinə təsirsiz ötüşmədi. Napoleon Fransasının işğalçılıq müharibələri Osmanlı və Rusiya imperiyalarının yaxınlaşmasına səbəb oldu. Lakin bu vəziyyət uzun sürmədi. Rusiyanın Valaxiya və Moldovaya hücumu iki dövlət arasında müharibəyə gətirib çıxardı. 1806–1812-ci illəri əhatə edən bu müharibə Osmanlının məğlubiyyəti ilə başa çatdı. Tərəflər arasında imzalanan Buxarest sülhünün şərtlərinə görə Bessarabiya Rusiyaya verildi, Moldova və Valaxiya Osmanlının tərkibində qaldı. Rus gəmiləri isə Dunay çayında sərbəst üzə bilərdi.

**T** Osmanlı dövlətinin müharibədə məğlub olmasının səbəblərini araşdırın.

XIX yüzilliyin əvvəllərində Balkanlarda yaşayan xalqların Osmanlı hakimiyyətinə qarşı mübarizəsi gücləndi. Bu üsyanların baş verməsində Osmanlı imperiyasını parçalayıb ərazilərini bölüşdürmək istəyən böyük dövlətlərin də marağı var idi. Serblərin üsyanının yatırılmasından bir az sonra yunanlar Osmanlı əleyhinə mübarizəyə başladılar. Bu müharibədə İngiltərə, Fransa və Rusiya yunanların tərəfində idi. Müttəfiq dövlətlərin donanması 1827-ci ildə **Navarin** döyüşündə Osmanlı donanmasını



*Navarin döyüşü*

məğlubiyyətə uğratdı. Rusiyanın Osmanlı əleyhinə xüsusi canfəşanlıq göstərməsi 1828-ci ildə onların arasında müharibəyə səbəb oldu. Balkanlar və Cənubi Qafqaz yenidən döyüş meydanına çevrildi. Müharibə 1829-cu ildə Osmanlının məğlubiyyətini rəsmiləşdirən **Ədirnə** müqaviləsinin bağlanması ilə başa çatdı. Şərtlərə görə Osmanlı dövləti:

- Moldova, Valaxiya və Serbiyaya **muxtariyyət**★ hüququ verdi;
- Təzminat ödəməli idi;
- Rusiyanın Cənubi Qafqazdakı işğallarını tanımalı idi.

1830-cu ildə isə Osmanlı imperiyası Yunanıstanın müstəqilliyini qəbul etdi.

★ *Muxtariyyət* – dövlətin hər hansı bir hissəsinə özünüidarə hüququnun verilməsidir.

T Ədirnə və Buxarest müqavilələrini müqayisə edin.



*Sultan II Mahmud*

| BUXAREST | | ƏDİRNƏ |
|---|---|---|
| Fərqli | Oxşar | Fərqli |
| | | |

Osmanlı imperiyasını bürümüş siyasi və iqtisadi böhran dövlətin möhkəmləndirilməsi üçün islahatların keçirilməsini zəruri edirdi. Bu sahədə əməli addımlar Sultan **II Mahmud**un (1808–1839) dövründə atıldı. Müharibələrdəki məğlubiyyətlər göstərdi ki, təkcə yeniçərilər deyil, bütün Osmanlı ordusu yararsız vəziyyətdədir. 1826-cı ildə sultan yeni nizami ordu yaradılması haqqında fərman imzaladı. Dərhal yeniçərilər bu fərmana qarşı qiyam etdilər.



Qiyamı yatırdan II Mahmud yeniçəri dəstələrini ləğv edib, hərbi xidmətlə məşğul olmayanların timar və ziyamət torpaqlarını əllərindən aldı. Nizami hərbi dəstələrin yaradılması sərt tədbirlərlə həyata keçirildi. Hərbi-len sisteminin ləğv edilməsi inzibati sistemdə də islahatların keçirilməsinə səbəb oldu. İmperiyanın ərazisi əyalətlərə və sancaqlara (mahallara) bölündü. İdarəçilik sahəsində Avropa nümunəsi əsas götürüldü və nazirliklər yaradıldı.

Salnaməçilərin təsvirinə görə, II Mahmudun fərmanından sonra, ilk növbədə, şəhər əhalisinin xarici görünüşündə Avropa təsiri özünü göstərməyə başladı. Müasirlərdən birinin dediyinə görə, alabəzək Şərq geyimi əvəzinə, indi kişilər qara, avropasayağı pencək və dar şalvar geyinir, çalma əvəzinə, fəs qoyurdu. Uzun saqqal qoyanlar azalmışdı... "Türklərin yuxarı təbəqələrinin indiki gəncləri daha əvvəlki kimi ...hay-küy salmır, fransızca laqqırtı vurur, naz-əda ilə söhbət edir, sarı rəngli qədim çəkmə əvəzinə, laklı tufli geyirdilər...Uzun yaylı, avropasayağı faytonlar da dəbə düşmüşdü..."



Sultan II Mahmudun islahat keçirdiyi sahələrlə bağlı cədvəli tamamlayın.

| HƏRBİ | İDARƏETMƏ | İNZİBATİ | MƏDƏNİ |
|---|---|---|---|
| | | | |

1839-cu ildə **"Gülhanə xətti-şərifi"** adlanan fərman verildi. Fərmanda bütün təbəələrin həyat, şərəf və əmlak təhlükəsizliyinin təmin olunması, vergilərin düzgün toplanılması, iltizam sisteminin ləğv edilməsi və orduya çağırışın qaydaya salınması nəzərdə tutulurdu. Dini etiqadından asılı olmayaraq, imperiyanın bütün təbəələrinə hüquq və vəzifə cəhətdən bərabərlik vəd edilirdi. 1876-cı ilədək keçirilən islahatlar Osmanlı tarixində **"Tənzimati-xeyriyyə"** adlanırdı. Bu islahatlar burjua xarakteri daşıyırdı.

İslahatların davam etdirilməsi tərəfdarı olan ziyalılar özlərini **"Yeni osmanlılar"** adlandırırdılar. Onlar ölkədə konstitusiya qəbul edilməsini tələb edirdilər.

**"Yeni osmanlılar" cəmiyyətinin meydana gəlməsinə hansı amillər səbəb olmuşdu?**





***II Mahmudun fərmanından sonra əhalinin görünüşü***

1876-cı ildə hakimiyyətə gələn sultan **II Əbdülhəmid** konstitusiya qəbul etdi. Bununla da Osmanlı konstitusiyalı monarxiya oldu. İmperiya ərazisində yaşayan bütün əhali "osmanlı" adlandırıldı. 1877-ci ildə parlament fəaliyyətə başladı. Balkanlarda Osmanlı əleyhinə üsyanların baş verməsi, Rusiya ilə müharibənin başlanması, deputatların hökumətdən hesabat tələb etməsi nəticəsində növbəti il parlament buraxıldı.

S

**Sizcə, parlamentin buraxılması və konstitusiyanın dayandırılmasının idarəçiliyə nə kimi təsiri ola bilər?**

1877-ci ildə Rusiya və Osmanlı imperiyaları arasında müharibə başladı. Balkanlarda və Qafqazda gedən hərbi əməliyyatlarda Osmanlı ordusu məğlub oldu. 1878-ci ildə tərəflər arasında San-Stefano müqaviləsi imzalandı. Rusiyanın Yaxın Şərqdə güclənməsinə yol vermək istəməyən İngiltərə və Avstriya müqavilənin şərtlərinə etiraz etdi. Berlində beynəlxalq konfrans çağırıldı. Konfransın qərarına görə:

- Bolqarıstan muxtar knyazlıq oldu;
- Makedoniya Osmanlıda qaldı;
- Çernoqoriya (Qaradağ), Serbiya və Rumıniya müstəqil elan edildi;



***Sultan II Əbdülhəmid***

- Avstriya-Macarıstan Bosniya və Hersoqovinanı idarə etmək hüququ aldı;
- İngiltərə Kipr adasını tutdu;
- Ərdəhan, Batum və Qars Rusiyaya verildi.



Layihə



*1878-ci il Berlin konfransı*

**T** Berlin konfransının qərarına görə dövlətlərə verilən ərazilərə aid cədvəl tərtib edin.

Osmanlı imperiyasının uğursuzluqlarından narahat olan ziyalılar sultan hakimiyyətinə qarşı mübarizəni davam etdirirdilər. İstanbul Hərbi Tibb Məktəbinin tələbələri **"İttihad və Tərəqqi"** cəmiyyətini yaratdılar. Onları **"Gənc türklər"** adlandırırdılar. Əsas məqsədləri konstitusiyanı bərpa etmək idi. 1908-ci ildə **"Gənc türklər"** üsyan etdilər. II Əbdülhəmid konstitusiyanın bərpası və parlamentin çağırılması haqqında fərman imzalamaq məcburiyyətində qaldı.

Bir il sonra II Əbdülhəmid taxtdan salındı və hökumət "Gənc türklər"in əlinə keçdi.

**T** Osmanlı imperiyasına qarşı tarixdə hansı ittifaqların qurulduğunu xatırlayın.

1912-ci ildə Bolqarıstan, Serbiya, Yunanıstan və Qaradağ **Balkan İttifaqı** yaradıb Osmanlıya qarşı müharibəyə başladı. I Balkan müharibəsində məğlub olan Osmanlı 1913-cü ildə **London müqaviləsini** imzaladı və müqaviləyə görə Avropadakı torpaqlarını və Ədirnəni itirdi. Elə həmin ildə Bolqarıstan əvvəlki müttəfiqlərinə qarşı II Balkan müharibəsinə başladı. **Buxarest sülhü** ilə başa çatan müharibədə Bolqarıstan məğlub oldu. Osmanlı dövləti bu müharibədə Ədirnə və ətrafındakı torpaqları geri ala bildi. Ümumilikdə, Balkan müharibələri nəticəsində Osmanlının Avropadakı hakimiyyəti başa çatdı.



# Qacarlar dövləti

XIX yüzilliyin əvvəllərində İranı türksoylu qacarlar sülaləsi idarə edirdi. Bu dövrdə İngiltərə və Fransa Qacarlar dövlətində iqtisadi və siyasi üstünlüyə nail olmağa çalışırdı. Qacarları bu dövlətlərlə yaxınlaşmağa məcbur edən səbəb Rusiya ilə mövcud münasibətləri idi. Rusiyanın Cənubi Qafqazda apardığı işğalçılıq siyasəti iki dövlət arasında müharibə ilə nəticələndi. Rusiya ilə müharibələrdə məğlub olan Qacarlar Cənubi Qafqazın işğalı ilə barışmalı oldu.

S

**Rusiya ilə aparılan müharibələr Qacarların mövqeyinə necə təsir göstərdi?**

XIX yüzilliyin ortalarında Qacarlar dövlətinin iqtisadi vəziyyəti ağır idi. İranda ticarət üstünlüyünə nail olmaq istəyən aparıcı dövlətlər bu ölkəyə xammal mənbəyi və satış bazarı kimi baxır və bir-birinin ardınca Qacarlarla qeyri-bərabər hüquqlu müqavilələr imzalayırdı. Bu müqavilələr ölkədə xarici dövlətlərin təsirinin artmasına səbəb olurdu.Bu məsələdə İngiltərə və Rusiya xüsusilə seçilirdi.

S

**Dövlətin başqa ölkələrlə qeyri-bərabər hüquqlu müqavilələr bağlamasının siyasi və iqtisadi sahəyə hansı mənfi təsirləri ola bilər?**

Hakim dairələrin yeritdiyi siyasət və xarici kapitalın ölkədə ağalıq etməsindən yaranan narazılıq tez-tez xalq kütlələrinin üsyanlara səbəb olurdu. Belə qüdrətli çıxışlardan biri 1848–1852-ci illərdə baş vermiş **Babilər hərəkatı** idi. Onun əsas hərəkətverici qüvvəsini kəndlilər, sənətkarlar və xırda tacirlər təşkil edirdi. Hətta ruhanilərin də bir qismi üsyana qoşulmuşdu. Babilərin insanların bərabərliyi ideyası, xüsusi mülkiyyətin ləğv edilməsi və əmlak ümumiliyinin yaradılması tələbləri geniş xalq kütlələrini özünə cəlb edirdi.

Babilərin qaldırdığı üsyanlar şah qüvvələri tərəfindən amansızlıqla yatırıldı və hərəkat iştirakçılarına divan tutuldu.

S

**Babilər hərəkatının geniş yayılmasının səbəblərini müəyyən edin.**

Babilər hərəkatı ölkədə ictimai ziddiyyətlərin həddsiz kəskinləşdiyini göstərdi. Hakim təbəqənin nisbətən uzaqgörən nümayəndələri yaranmış vəziyyətdən çıxış yolunu islahatların keçirilməsində görürdülər. Baş vəzir **Mirzə Tağı xan** dövlət hakimiyyətini möhkəmləndirməyə, ordunu və maliyyə sistemini yenidən təşkil etməyə çalışırdı. O, əyalət hakimlərinin özbaşınalığına, iri ruhanilərin və xarici məmurların dövlət işlərinə müdaxiləsinə qarşı mübarizə aparırdı.

Mirzə Tağı xanın təşəbbüsü ilə İranda ilk qəzet çap olundu və Avropa nümunəsində məktəb açıldı. Məktəbdə dərs deyən müəllimlərin çoxu müxtəlif Avropa ölkələrindən dəvət olunmuşdu. İslahatlardan narazı qüvvələr, xüsusən də iri ruhanilər Mirzə Tağı xanı gözdən salıb vəzifədən uzaqlaşdırmağa nail oldular. Beləliklə, xalqın mənafeyinə xidmət edən islahatlar dayandırıldı.

T

Mirzə Tağı xanın islahatlarına aid cədvəli tamamlayın.

| | |
|---|---|
| SİYASİ | |
| İQTİSADİ | |
| MƏDƏNİ | |

Qacarlar dövlətinin iqtisadi-siyasi cəhətdən İngiltərə və Rusiyadan asılılığı artmaqda davam edirdi. XX yüzilliyin əvvəllərində geniş xalq kütləsi xarici kapitalın ölkədə ağalıq etməsindən narazı idi.

1905-ci ildə İranda xaricilərə verilən imtiyazların azaldılması, Konstitusiya (Məşrutə) qəbul edilməsi və Məclisin çağırılması tələbləri ilə etiraz çıxışları başladı. Çıxışların güclənməsi nəticəsində 1906-cı ildə Qacarlar dövlətində konstitusiya qəbul edildi. **Məşrutə hərəkatı** 1911-ci ildə xarici qüvvələrin köməyi ilə yatırıldı.

T

Məşrutə hərəkatının tələblərini şərh edin.



Lahiyə

# 6 HİNDİSTAN, ÇİN VƏ YAPONİYA

HİNDİSTAN

## Asiyada ən böyük müstəmləkə

XIX yüzilliyin əvvəllərində Hindistan ərazisinin ¾ hissəsindən çoxu Böyük Britaniyanın Ost-Hind şirkətinin nəzarəti altında idi. Böyük Britaniya parlamentinin qərarı ilə Ost-Hind şirkətinin rəhbəri Hindistanda bütün ingilis mülklərini idarə edən general-qurbernator elan edilmişdi. İngilis müstəmləkəçiliyinin mərkəzi isə Kəlküttə şəhəri idi.

Böyük Moğol dövlətinin tənəzzülü dövründə müstəqilliyə meyil edən yerli hakimlər – **racələr**★ arasında ara müharibələri Hindistanın müstəmləkə ölkəsinə çevrilməsini sürətləndirdi. Böyük Britaniya hökumətinin Hindistanda müstəmləkə rejimini möhkəmləndirmək üçün racələrin müstəqilliyini formal olaraq saxlaması genişmiqyaslı üsyanların baş verməməsi üçün vacib şərt idi.

**T** XIX yüzilliyin birinci yarısında Böyük Britaniyanın Hindistanı işğal etməsini asanlaşdıran amilləri müəyyən edin.

★ *Racə* – Hindistanda feodal knyazlara verilən addır.

## Şirkət gücü ələ keçirir: İşğal və üsyan

XIX yüzilliyin birinci yarısında Ost-Hind şirkətinin yeni vergilər tətbiq etməsi, korrupsiya əməlləri və digər özbaşınalıqları yerli əhalinin iqtisadi vəziyyətini ağırlaşdırdı. Kəndlilər həm müstəmləkəçilərə, həm də racələrə torpaqdan istifadəyə görə yüksək icarə haqqı ödəyirdilər. Məhsulun yarıdan çoxunun vergi kimi alınması kəndlilərin daha da yoxsullaşmasına səbəb olurdu.

1856-cı ildə ingilislərin Aud knyazlığını tabe etməsi ilə Hindistanın işğalı başa çatdı. Müstəmləkə zülmü və zorakı xristianlaşdırma siyasəti Sipahilər üsyanının (1857–1859) başlanmasına səbəb oldu. Sipahilər Ost-Hind şirkətinin ordusunda xidmət etmək üçün yerli əhalidən toplanmış döyüşçülər idi. Üsyançılar Dehliyə daxil olaraq Böyük Moğol dövlətinin sonuncu hökmdarı olan II Bahadır şaha sədaqət andı içdilər. İngilislər tərəfindən imtiyazları və mülkləri əllərindən alınmış yerli hakimlər də üsyana qoşuldu.

**S** **XIX yüzillikdə Şimali Azərbaycanda və Hindistanda baş vermiş üsyanların səbəbləri arasında oxşar xüsusiyyətlər hansılardır?**





*Sipahilər üsyanı 1857-1858*

Üsyançılar II Bahadır şahı ölkənin yeganə qanuni hökmdarı və özlərinə rəhbər seçdilər. 1858-ci ildə onun ingilislər tərəfindən həbs edilərək Birmaya sürgün edilməsi ilə Böyük Moğol dövlətinə son qoyuldu. 1859-cu ildə isə üsyançılar vahid komandanlığın olmaması səbəbindən məğlub oldular.

Sipahilər üsyanı nəticəsində ingilis hökuməti müstəmləkə rejimini yumşaltmaq üçün tədbirlər görməyə məcbur oldu. Böyük Britaniya hökuməti Ost-Hind şirkətinin idarəçilik hüquqlarını ləğv edərək Hindistanda ali hakimiyyəti vitse-krala verdi. Britaniya Hindistanı adlı müstəmləkə mülkü yaradıldı.

**S** **Sipahilər üsyanından sonra ingilis hökuməti Hindistanın idarəçiliyində hansı tədbirləri həyata keçirdi?**

Şərqin bir sıra ərazilərinin, əsasən də Hindistanın işğal olunmasında mühüm rol oynamış Ost-Hind şirkəti ləğv edildi.

**T** XIX yüzilliyin ikinci yarısında çar Rusiyasının Şimali Azərbaycanda, Böyük Britaniyanın Hindistanda müstəmləkə siyasətinin oxşar və fərqli cəhətlərini müqayisə edin.

# Britaniya Hindistanı

Britaniya Hindistanı Asiya qitəsində ən böyük ingilis müstəmləkəsi idi. Onun ərazisi müasir Hindistan, Pakistan, Banqladeş və Birma (Myanma) torpaqlarını əhatə edirdi. 1876-cı ildə Böyük Britaniya imperatriçası Viktoriya öz müstəmləkəsi olan Hindistanın da imperatriçası titulunu qəbul etdi. Hindistanda kapitalizmin meydana gəlməsi və inkişafı ingilis müstəmləkəçiliyi dövründə baş verdi. Hindistanın təbii sərvətlərini mənimsəyən müstəmləkəçilər onu Böyük Britaniya imperiyasının "mirvarisi" adlandırırdılar. Hindistanda milli burjuaziyanın və demokratik ziyalıların təşəkkül tapması müstəmləkə dövrünə təsadüf edir. İngilis sahibkarları, əsasən, dəmir yollarının çəkilməsinə, suvarma qurğularının tikintisinə, pambıq və şəkər qamışı plantasiyalarının salınmasına diqqət yetirirdilər. Yeni formalaşmış milli burjuaziya da ölkənin siyasi və mədəni-iqtsadi inkişafına öz töhvəsini verdi. Milli kapitala məxsus ilk sənaye müəssisələri işə düşdü.

1885-ci ildə ingilislərin razılığı ilə Hindistan Milli Konqresi (HMK) yaradıldı. "Parçala və hökmranlıq et" siyasəti yürüdən İngiltərə hökuməti Milli Konqresdə hindli millətçilərlə müsəlmanlar arasındakı ziddiyətlərdən istifadə edərək Hindistanda müstəmləkə zülmünə qarşı vahid cəbhənin yaradılmasına imkan vermədi.

**S** **Böyük Britaniyanın Hindistanda "parçala və hökmranlıq et" siyasəti yürütdüyünü hansı dəlillər sübut edir?**

**T** Hindistan Milli Konqresinin uğurlu fəaliyyət göstərə bilməməsinin səbəblərini müəyyən edin.



Layihə

ÇİN

# "Ağ ölüm"lə müharibə

XIX yüzilliyin əvvəllərində Çində rüşvətxorluq və korrupsiya halları üsyanlara səbəb oldu. Əhalinin say artımı isə əkinəyararlı torpaqların çatışmazlığı problemini önə çıxartdı. Ost-Hind şirkətinin Hindistandan Çinə "Ağ ölüm" adlandırılan tiryək ixracını genişləndirməsi əvvəllər Tsin sülaləsinin və bəzi yerli məmurların mənafeyinə uyğun idi. Çünki onlar bu sahəyə qazanc mənbəyi kimi baxırdılar. Tiryək alveri insanları qan tökülmədən öldürmək vasitəsinə çevrilmişdi.

İngilislər Çində tiryək alverini, əsasən, gümüş pulla həyata keçirirdilər. Gümüş pulun ölkədən çıxarılması isə maliyyə böhranına səbəb oldu. (niyə çıxarıldı) Tiryək ticarətindən varlanmaq üçün ingilislərlə əlbir olan yerli məmurlardan fərqli olaraq, xalqın gələcəyini düşünən mütərəqqi fikirli əyanlar da vardı. Məhz onların təzyiqləri nəticəsində Çin imperatorunun tiryək ticarətini qadağan etməsi, əcnəbi tacirlərdən bu zərərli məhsulun idxalı və ixracı ilə məşğul olmayacaqları barədə iltizam tələb etməsi İngiltərə-Çin münasibətlərini pisləşdirdi. **Birinci Tiryək müharibəsi** nəticəsində İngiltərə Çini məğlub edərək, onunla 1842-ci ildə **Nankin sülh müqaviləsini** imzaladı. Bu müqaviləyə görə Çin İngiltərəyə böyük məbləğdə təzminat ödəyib Syanqan (Honkonq) şəhərini güzəştə getdi və beş limanını ticarət üçün açmağa məcbur oldu. Nankin sülhü ilə Çinin yarımmüstəmləkəyə çevrilməsinin əsası qoyuldu. Bu, Çin tarixində ilk qeyri-bərabərhüquqlu müqavilə idi.

**T** Çinin "Ağ ölüm"lə müharibədə məğlub olmasının səbəblərini müəyyən edin.




*Çinin bölünməsinə aid karikatura*

# "Kəndlilərin imperiyası"

XIX yüzilliyin ortalarında Tsin sülaləsinin ağır vergi siyasəti və xarici təcavüz kəndli üsyanına səbəb oldu. **Taypinlər üsyanı** (1850–1864) adlanan bu qiyamın əsas ideyası ümumi bərabərlik və "Taypin tyan qo" ("Böyük rifahın səmavi dövləti") yaratmaq idi. Üsyançılar Nankin ("cənub paytaxtı") şəhərini tutub, öz dövlətlərini yaratdılar. Taypinlərin islahatları nəticəsində vergilər azaldıldı və qadınlara kişilərlə bərabər hüquq verildi. Lakin monarxiya ləğv edilmədi. Böyük Britaniya, Fransa və ABŞ yeni iqtisadi güzəştlər əldə etmək üçün Çin imperatoruna bu üsyanı yatırmaqda kömək etdi.

**S** **Cənubi Azərbaycanda baş vermiş Babilər hərəkatı ilə Taypinlər üsyanının oxşar cəhətləri hansılardır?**

*Nankin sülh müqaviləsini imzalanması*





*İkinci Tiryək müharibəsi*

# Tsin monarxiyasının tənəzzülü

Böyük Britaniya və Fransanın Çindən yeni güzəştlər qoparmaq cəhdləri **İkinci Tiryək müharibəsinə** (1856–1860) səbəb oldu. 1860-cı ildə ingilis-fransız qoşunları ciddi müqavimətə rast gəlmədən Pekini ələ keçirdilər. Bundan sonra Çin hökuməti Böyük Britaniya və Fransa ilə qeyri-bərabər hüquqlu müqavilələr imzalamağa məcbur oldu. Pekin müqavilələrinə görə Çin hökuməti tiryəkin açıq satışına icazə verdi, məğlub tərəf kimi təzminat ödədi, ingilis və fransız təbəələrinin ölkə ərazisində sərbəst hərəkətini və Yantszı çayı vasitəsilə ticarət etmək hüququnu tanıdı.

S

**Çin hökuməti niyə ağır şərtli Pekin müqavilələrini imzalamağa məcbur oldu?**

XIX yüzilliyin sonunda Çinin zəifləməsi onun beynəlxalq nüfuzuna da ağır zərbə oldu. Fransa və Yaponiya ilə aparılan müharibələr nəticəsində Vyetnam, Koreya və Tayvan üzərində nəzarət itirildi. Ölkənin daxili vəziyyətinin böhranlı həddə çatmasının və müharibələrdə ardıcıl məğlubiyyətlərin əsas günahını xalqın birliyinə nail ola bilməyən, yalnız öz şəxsi mənafeyini düşünən Tsin sülaləsində görən demokratik ziyalılar inqilabi mübarizəyə başladılar. 1905-ci ildə Sun Yatsenin rəhbərliyi ilə yaradılmış **"Birləşmiş ittifaq"** adlı təşkilat millətçiliyi, demokratiyanı və xalq rifahını bərqərar etmək üçün Tsin imperiyasını devirməyi vacib hesab edirdi. 1911–1913-cü illərdə Çin inqilabı nəticəsində Tsin monarxiyası devrildi, müvəqqəti konstitusiya qəbul olundu, respublika elan olundu və Sun Yatsen prezident seçildi.



*Sun Yatsen*

Layihə

YAPONİYA

## “Qapalı ölkə”də inqilab

XIX yüzilliyin əvvəllərində Yaponiyanı imperatorun adından Tokuqava sülaləsinə mənsub olan syoqun idarə edirdi. İmperator Yaponiyanı “qapalı ölkə” elan etdiyi üçün xarici ticarət zəifləmiş, nəinki kəndlilər, hətta hərbi feodal təbəqəsi olan samuraylar da yoxsullaşmışdı. 1854-cü ildə ABŞ ilə Yaponiya arasında imzalanan sülh və dostluq haqqında müqaviləyə görə ABŞ gəmilərinə bəzi limanlara daxil olmaq hüququ verildi. Yaponiyada ABŞ konsulluğu yaradıldı. Bu müqavilə nəticəsində Yaponiyanın özünütəcrid siyasətinə son qoyuldu. Yaponiyanın ABŞ və Avropa dövlətləri ilə imzaladığı müqavilələr həmin ölkələrin Çinlə bağladığı müqavilələr qədər ağır deyildi. Çünki bu müqavilələrdə Yaponiya öz üzərinə ağır öhdəliklər götürmürdü. Lakin samuraylar və knyazlar bu müqavilələrin ölkənin müstəqilliyi üçün təhlükə yaratdığını düşünürdülər. Buna görə də onlar syoqun rejiminə qarşı çıxır və xarici təbəələrə hücumlar edirdilər. 1867-ci ildə syoqun rəsmi şəkildə hakimiyyətdən əl çəkdiyini və ali hakimiyyəti imperatora qaytardığını elan etdi. 1867–1868-ci illər inqilabı nəticəsində yeni hakimiyyət formalaşdı. 15 yaşlı **Mutsuxito** (1867–1912) imperator taxtına çıxdı.

S

**XIX yüzilliyin ortalarında Çinin və Yaponiyanın xarici dövlətlərlə imzaladıqları müqavilələrin oxşar və fərqli cəhətləri hansılardır?**



*İmperator Mutsuxito*

## İslahatlar

1868-ci ildə imperator Mutsuxito yeni hökumətin **“Andlı öhdəlik”** adlı sənədini bəyan etdi. Bu sənədə görə bütün dövlət işləri ictimai rəy nəzərə alınmaqla həll ediləcək, hakimiyyətdə təmsil olunmasından asılı olmayaraq, bütün vətəndaşlar millətin





*Susima dəniz döyüşü*

dirçəlməsinə çalışacaq, ədalət qorunacaq, haqsızlığa yol verilməyəcək, elm dünya səviyyəsində inkişaf etdiriləcək və bu yolla dövlətin gələcək inkişafı təmin ediləcəkdir.

Burjua islahatlarını imperatorun adından onun müşavirləri həyata keçirirdi. İlk növbədə, yarımfeodal knyazlıqlar ləğv edildi, ölkə ərazisi **prefekturalara*** bölündü. Samuray dəstələri ləğv edilərək müasir ordu quruldu. Avropa nümunəsində ilk nazirliklər, orta və ali təhsil ocaqları yaradıldı. Ali və orta təhsilin inkişafına xüsusi diqqət yetirildi. Uşaqlar 6 yaşından etibarən 4 illik məcburi təhsilə cəlb edildi. İlk qadın pedaqoji məktəbi açıldı. Vahid pul sistemi tətbiq edildi. Dövlətin xəzinəyə məxsus sənaye müəssisələrini ayrı-ayrı sahibkarlara satması nəticəsində "Mitsui" və "Mitsubişi" kimi nəhəng şirkətlər yaradıldı. Bu tədbirlər sahibkarlığın və bazar iqtisadiyyatının inkişafına şərait yaratdı.

1889-cu ildə qəbul edilmiş Konstitusiyaya görə qanunverici və icraedici hakimiyyətə malik olan imperator müqəddəs və toxunulmaz elan edildi. Vətəndaşlara mülkiyyət, vicdan, söz, mətbuat və toplaşmaq azadlığı verildi.

* *Prefektura* – Yaponiyada inzibati ərazi bölgüsüdür.

# Uzaq Şərqdə yapon imperializmi

Yaponiya iqtisadi inkişaf strategiyasını müəyyən edəndən sonra ərazisini genişləndirmək üçün işğalçı müharibələrə başladı. Əvvəlcə Rükü adaları, sonra isə Tayvan işğal olundu. Koreya uğrunda müharibədə (1894–1895) Çini məğlub edən Yaponiya ondan böyük məbləğdə təzminat aldı. Yaponiya yeni silahlarla təchiz edilmiş müasir orduya malik idi. Uzaq Şərqdə möhkəmlənmək uğrunda başlayan Rus-yapon müharibəsi (1904–1905) Susima dəniz döyüşündə yapon donanmasının həlledici qələbəsi ilə başa çatdı. 1905-ci ildə ABŞ-nin Portsmut şəhərində imzalanmış sülh müqaviləsinə əsasən Yaponiya Cənubi Saxalinə sahib oldu, Cənubi Mancuriya və Koreyada şəriksiz ağalığını təmin etdi.

M

"Avropalıların çoxu rusların döyüş meydanında yaponları asanlıqla məğlub etmələrinə inanırdı. Doğrusu, hərbi və iqtisadi güc baxımından Rus-yapon müharibəsi Rusiyanın asanlıqla qalib gələ biləcəyi bir müharibə idi. Amma çar hakimiyyəti iki problemlə qarşı-qarşıya idi. Birincisi Sibirdə az sayda hərbi güc saxlaması idi. Çünki Trans-Sibir dəmir yolu Baykal gölü vasitəsilə daşınan yükləri qarşılayan təkxətli dəmir yolu idi. İkincisi isə daha çox ciddi problem sayılan II Nikolayın idarəçiliyə sadəlövh yanaşması və Rusiyada inqilabı sürətləndirən məclis seçkilərinin keçirilməsinə hazırlıq idi".

Layihə

# 7 BİRİNCİ DÜNYA MÜHARİBƏSİ

Marna döyüşü, Dördlər ittifaqı, Çanaqqala savaşı, "Verden qəssabxanası", Kompyen barışığı

## Müharibənin səbəbləri

XX yüzilliyin əvvəllərində dövlətlərarası münasibətlər xeyli kəskinləşdi. İnkişaf etməkdə olan sənaye sahələrinin tələbatını ödəmək üçün yeni xammal mənbələri və satış bazarlarının əldə edilməsi zərurəti meydana çıxdı. Bu isə müstəmləkələrin və nüfuz dairələrinin yenidən bölüşdürülməsi uğrunda mübarizəni daha da alovlandırdı. Böyük dövlətlər arasında rəqabətin artması sürətlə silahlanmaya səbəb oldu. Avropa dövlətlərindən ibarət iki hərbi-siyasi blok – Üçlər ittifaqı və Antanta üz-üzə gəldi. Nəticədə **Birinci dünya müharibəsi** baş verdi.

**S** Birinci dünya müharibəsinin başvermə səbəbləri hansılardır?

Almaniyanın dünya bazarlarındakı əsas rəqibi Böyük Britaniya idi. Böyük Britaniya, Fransa və Rusiyanı zəiflədərək, onların müstəmləkələrini ələ keçirməyə çalışan alman hərbi-siyasi dairələri Avropada hökmranlığa nail olmaq istəyirdi. Balkan yarımadasında öz nüfuzunu genişləndirməyə çalışan Avstriya-Macarıstanın Rusiya ilə maraqları toqquşurdu. Böyük Britaniya Almaniyanın zəiflədilməsinə nail olmaqla onun müstəmləkələrini ələ keçirməyə çalışırdı. Fransa itirdiyi Elzas və Lotaringiya torpaqlarını geri qaytarmaq və yeni ərazilər tutmaq niyyətində idi. Antanta dövlətlərinin planlarında Osmanlı imperiyasının bölüşdürülməsi xüsusi yer tuturdu.

**T** Birinci dünya müharibəsində böyük dövlətlərin maraqlarını ifadə edən cədvəl tərtib edin.

## Müharibənin başlanması

1914-cü ildə Avstriya-Macarıstan taxtının vəliəhdi **Frans Ferdinand** Bosniyada səfərdə olarkən serb millətçi qrupunun üzvləri tərəfindən öldürüldü. Bu hadisə müharibənin başlanması üçün bəhanə oldu. Bir ay sonra, iyul ayının 28-də Avstriya-Macarıstan terror hadisəsinin arxasında Serbiyanın olduğunu əsas gətirərək ona müharibə elan etdi. Tezliklə iki ölkə arasındakı münaqişə digər dövlətlərin qoşulması ilə dünya müharibəsinə çevrildi.

Rusiyanın Serbiyanı müdafiə etməsindən istifadə edən Almaniya Rusiyaya, sonra isə Fransaya müharibə elan etdi.

**Frans Ferdinandın öldürülməsi**





Layihə

Almaniya Fransanı tutmaq üçün bitərəf olan Belçikanın ərazisinə qoşun yeritdi. Bu, Böyük Britaniyanın müharibəyə girməsinə bəhanə oldu.

Yaponiya Almaniyaya müharibə elan edərək onun Sakit okeandakı torpaqlarını tutmağa başladı. Antanta dövlətlərinin təcavüzünə məruz qalan Osmanlı imperiyası Üçlər ittifaqı tərəfindən müharibəyə qoşuldu. Avropadakı müharibə üç əsas cəbhədə gedirdi: **Qərb, Şərq** (*Rusiya*) və **Balkan**. Sonradan yaranmış **Qafqaz** cəbhəsində Rusiya və Osmanlı ordusu döyüşürdü.

S

**Müharibənin sürətlə yayılmasının səbəbi nə idi?**

Almaniyanın müharibə planına əsasən Fransa və Rusiya ardıcıl olaraq darmadağın edilməli idi. Belçikadan keçən alman ordusu Fransaya daxil oldu. 1914-cü ilin sentyabrında **Marna** çayı sahilində ingilis-fransız ordusu almanların qarşısını aldı.

Marna döyüşü alman ordusunun Fransa ilə bağlı planını boşa çıxartdı və Almaniya iki cəbhədə müharibə aparmağa məcbur oldu. Almaniyanın Qərb cəbhəsində hücumunun inkişafına Rusiyanın onun ərazisinə hərbi müdaxiləsi imkan vermədi. Ehtiyat qüvvələrini döyüşə göndərən Almaniya rus ordusunu məğlub edib hücumu qarşısını aldı.





S

**"İldırımsürətli müharibə" planının boşa çıxması nə ilə nəticələndi?**

Qərb cəbhəsində tərəflərin mövqe müharibəsinə keçməsi Almaniya və müttəfiqlərinin əsas diqqətinin Rusiyaya qarşı yönəltməsinə şərait yaratdı. 1915-ci ildə **Qorlitsa** əməliyyatında Rusiya ağır məğlubiyyətə uğrayıb geri çəkildi. Ancaq Rusiyanı birtərəfli sülh bağlamağa məcbur etmək mümkün olmadı.



Almaniya dəniz döyüşlərində ilk dəfə ***sualtı qayıqlar*** tətbiq edərək İngiltərənin mülki və hərbi gəmilərini batırmağa başladı. İngilislər sualtı qayıqlara qarşı səmərəli mübarizə tədbirləri hazırlamaqla təhlükəni aradan qaldırdılar. Belçika ərazisində almanlar ingilislərə qarşı ilk dəfə kimyəvi silahdan – ***zəhərli xlor qazından*** istifadə etdilər. Sonralar hər iki tərəfin zəhərli qazlardan istifadə etməsi müxtəlif dizaynlı qaz maskalarının meydana çıxmasına səbəb oldu. Lakin bütün bunlar Almaniyanın yalnız müəyyən taktiki müvəffəqiyyət əldə etməsindən irəli getmədi.

S

**Almaniyanın tətbiq etdiyi yeni hərbi silahlar nə üçün ona böyük uğurlar gətirmədi?**

1915-ci ilin yazında Antanta dövlətlərinin bir sıra vədlər verərək İtaliyanı öz tərəflərinə çəkməsi Almaniya və müttəfiqlərinin vəziyyətini ağırlaşdırdı. Həmin ilin payızında Bolqarıstan Almaniya ilə razılığa gəldi. Nəticədə Almaniya, Avstriya-Macarıstan, Osmanlı və Bolqarıstandan ibarət **Dördlər ittifaqı** meydana gəldi. Avropanın mərkəzində yerləşdiyi üçün bu ittifaqı ***Mərkəz dövlətləri*** də adlandırırdılar.



Avropada güc tarazlığı





**T** Xəritə əsasında hərbi-siyasi blokların əhatə dairəsini müəyyən edin və onların hərbi potensialı barəsində fikir mübadiləsi aparın.

# Osmanlı İmperiyası müharibədə

Qafqaz cəbhəsində Osmanlı imperiyasının hərbi vəziyyəti ağır idi. 1915-ci ilin əvvəlində Sarıqamış döyüşlərində məğlub olması Anadolunun şərqində rus qoşunlarının hücum əməliyyatlarına başlamasına əlverişli şərait yaratdı. Burada ruslar tərəfindən silahlandırılan könüllü erməni hərbi birlikləri bölgənin türk-müsəlman əhalisinə qarşı soyqırımı həyata keçirir və dəhşətli dağıntılar törədirdi. Onlar rus ordusuna hərtərəfli yardım göstərir, sakini olduqları ölkəyə həvəslə xəyanət edirdilər. Osmanlı dövlətinin diqqətini Qafqaz cəbhəsindən yayındırmaq üçün ingilis-fransız donanması Çanaqqala boğazına yeridildi. Onların əsas məqsədi İstanbulu ələ keçirmək idi. 1915–1916-cı illərdə baş verən Çanaqqala döyüşündə böyük qəhrəmanlıq göstərən Osmanlı ordusu qalib gəldi. Bu qələbənin qazanılmasında Azərbaycandan gələn könüllülər də iştirak etmişdi.






Layihə






İngilis ordusunun təslim olması

**M**

1915-ci ilin mart ayı idi. İngilis-fransız donanmasının ağır bombardmanı nəticəsində Seyid Əlinin xidmət etdiyi topçu batareyası heyətinin əksəriyyəti ya həlak olmuş, ya da ki ağır yaralanmışdı. Yalnız Seyid Əli və dostu döyüş qabiliyyətinə malik idi. Bu zaman nəhəng bir ingilis gəmisi boğazdan keçməyə çalışırdı. Dostunun köməyi ilə 215 kiloqramlıq mərmini belinə alan Seyid Əli onu topa yerləşdirib atəş açdı. Vurulan ingilis gəmisi yavaş-yavaş boğazın sularına batdı. Bu igidliyinə görə Seyid Əliyə onbaşı rütbəsi verildi. Sonralar Seyid onbaşıdan mərmini götürüb şəkil çəkdirməyi xahiş etdilər. O nə qədər cəhd etsə də, mərmini qaldıra bilmədi. Buna görə də hərbi mətbuat üçün mərminin taxta maketi ilə şəkil çəkdirmək məcburiyyətində qaldı.

**S**

**Sizcə, nə üçün Seyid onbaşı döyüşdə göstərdiyi igidliyi adi vəziyyətdə təkrarlaya bilmədi?**

Bu zaman ingilislərin İraqı ələ keçirmək üçün başlatdıqları hücumun da qarşısı alındı. Bağdada can atan ingilis qoşunları Kütül-Amarə döyüşündə mühasirəyə salındı və təslim edildi.

**T**

Çanaqqala döyüşü barədə təqdimat hazırlayın.

Layihə



Avqust ayında Antanta tərəfindən müharibəyə qoşulan **Rumıniya** hərbi cəhətdən o qədər də güclü deyildi. Onun ordusu tezliklə döyüşlərdə darmadağın edildi. Müharibə eyni amansızlıqla dənizlərdə də davam edirdi. Alman və ingilis donanmaları arasında 1916-cı ilin mayında müharibənin tarixində ən böyük dəniz döyüşü baş verdi. **Yutlandiya** dəniz döyüşündə tərəflərin heç biri aşkar üstünlüyə nail olmadı. Döyüşlərin daha çox Qərb cəbhəsində getməsindən istifadə edən Rusiya Qafqaz cəbhəsində təşəbbüsü ələ alaraq Ərzurum və Trabzonu işğal etdi.

T

1916-cı ildə Qərb cəbhəsində baş verən əsas hərbi əməliyyatların fərqli və oxşar cəhətlərini müqayisə edib cədvəli tamamlayın:

| | |
|---|---|
| VERDEN | |
| YUTLANDİYA | |
| SOMMA | |

## 1916-cı il əməliyyatları



**Alman ordusu döyüşdə**

Almaniya ordusu 1916-cı ilin fevralında Verden yaxınlığında Fransa üzərinə hücuma keçdi. On aya yaxın davam edən bu vuruşma tarixə **"Verden qəssabxanası"** adı ilə daxil oldu. Bu döyüşdə fransızlar bir milyona yaxın canlı qüvvə itirsələr də, alman ordusunun hücumunu dayandıra bildilər. Bundan istifadə edən ingilis-fransız qüvvələri yayda **Somma** çayı sahilində ilk böyük hücum əməliyyatına başladı. Bu döyüşdə ingilislər ilk dəfə tanklardan istifadə etsələr də, çox cüzi məsafədə irəliləyə bildilər. Verden və Somma döyüşləri Birinci dünya müharibəsinin ən qanlı vuruşmaları idi. İngilis-fransız qoşunlarına üstün gəlməyi bacarmayan Almaniya müdafiəyə keçməyə məcbur oldu. O, Qərb cəbhəsində təşəbbüsü itirdi.

## Müharibənin sonları

1917-ci ilin fevralında Rusiyada baş verən inqilab nəticəsində monarxiya devrildi. Hakimiyyətə gələn Müvəqqəti hökumət ordu üzərində nəzarəti tam ələ ala bilmədi. Bu da müharibənin gedişinə təsir göstərdi. Oktyabrda Rusiyada çevriliş nəticəsində hakimiyyəti ələ keçirən bolşeviklər isə, ümumiyyətlə, müharibəni dayandırmaq fikrində idilər. İlin sonlarına doğru Şərq cəbhəsində hərbi əməliyyatlar faktiki olaraq dayandırıldı.




**Rusiyada Fevral inqilabı**



***ABŞ prezidentinin konqresdən Almaniyaya müharibə elan etməyi xahiş etməsi***

Antanta dövlətlərinə çoxlu borc verən ABŞ, təbii ki, onların məğlub olmasını istəmirdi. Almaniyanın qeyri-məhdud sualtı əməliyyatlara başlaması ABŞ-nin müharibəyə girməsinə bəhanə oldu. 1917-ci ilin aprelində ABŞ Almaniyaya müharibə elan etdi. Onun müharibəyə daxil olması Antantanın qələbə qazanmasında əsas amillərdən biri oldu.

T

“Borclu borclunun sağlığını istər” deyimini ABŞ-nin müharibəyə qoşulma siyasəti ilə əlaqələndirin.

1917-ci ilin oktyabrında İtaliya ordusu alman və Avstriya qüvvələri tərəfindən darmadağın edildi. 1918-ci ilin martında bolşevik hökuməti **Brest-Litovskda** Dördlər ittifaqı ilə **separat**★ sülh bağladı. Rusiya müharibədən çıxdı. Ardınca Rumıniya da eyni addımı atdı. Almaniyanın vəziyyəti bir qədər yaxşılaşdı.

★ *Separat sülh* – müharibə aparan ölkələr koalisiyasında üzv dövlətlərdən birinin müttəfiqlərin xəbəri və razılığı olmadan düşmənlə bağladığı sülh.

1918-ci ilin yayında alman ordusunun Paris istiqamətində hücumunun qarşısı ABŞ qüvvələrinin köməyi ilə alındı. Alman ordusu darmadağın edildi. Müttəfiq qoşunların Balkan cəbhəsindəki hücumu sentyabrda Bolqarıstanın təslim olmasına səbəb oldu.



Türk ordusunun İraq, Fələstin və Suriyada gedən hərbi əməliyyatlarda məğlub olması nəticəsində oktyabrda Osmanlı imperiyası da təslim oldu. Noyabrın əvvəlində Avstriya-Macarıstanın barışıq imzalayıb müharibədən çıxmasından sonra Almaniya təkləndi. Bu zaman Almaniyada baş verən inqilab nəticəsində monarxiya devrildi və respublika quruldu.





*Kompyendə almanların təslim aktını imzalaması*

Yeni hökumət 1918-ci il noyabrın 11-də müttəfiq qoşunların **Kompyen** meşəsində yerləşən qərargahında Almaniyanın rəqibləri ilə sülh barışığını imzaladı. Bununla da Birinci dünya müharibəsi başa çatdı.

**S** **Nə üçün Birinci dünya müharibəsində Antanta dövlətləri qalib gəldi?**

## Müharibənin yekunları

Maddi ehtiyatlar və canlı qüvvə baxımından üstün olan Antanta müharibədə qalib gəldi. Almaniya, Avstriya-Macarıstan, Osmanlı və Rusiya imperiyalarında mövcud olan quruluş müharibənin sınaqlarından çıxmadı və dağıldı. Avropanın siyasi xəritəsində dəyişikliklər baş verdi. Yeni müstəqil dövlətlər meydana gəldi. Müharibədən ən güclü çıxan ABŞ oldu. Aparıcı dövlətlərin çoxu ona borclu idi. Müharibə on milyonlarla hərbi və mülki insanın həyatına son qoydu. İyirmi milyondan çox insan yaralandı. Külli miqdarda adam xəstəlik və aclıqdan tələf oldu. Vuruşan dövlətlərin iqtisadi vəziyyətinə böyük zərbə dəydi. Onlar öz milli sərvətlərinin təxminən üçdə birini itirdilər. Birinci dünya müharibəsi müstəmləkə sisteminin böhran keçirməsinə səbəb oldu.



**T** Birinci dünya müharibəsinin nəticələrini təhlil edin.

# 8 MƏDƏNİYYƏT

Kazan Universiteti, Tomas Edison, Lev Tolstoy, Dolmabağça sarayı, Eyfel qülləsi, Cüzeppe Verdi

## Təhsil

XIX yüzilliyin əvvəllərində Osmanlı imperiyasında dini məktəb və mədrəsələr hələ də öz mövcudluğunu qoruyub saxlamışdı. Sultan II Mahmudun hakimiyyəti dövründə həyata keçirilən hərbi və inzibati islahatlar isə müxtəlif sahələrdə ali təhsil almış kadrların olmasını tələb edirdi. 40-cı illərdə keçirilən məktəb islahatı dünyəvi ibtidai, orta və ali məktəblərin açılmasını nəzərdə tuturdu.

**S** **Dini və dünyəvi məktəblərin fərqi nədir?**

Mərkəzi Asiyada təhsilin inkişafı uzun zaman İslam dini ilə bağlı olmuşdur. İbtidai dini məktəbləri qurtaranlar mədrəsələrə daxil olurdu. Burada, əsasən, din xadimləri hazırlanırdı.

Rusiya imperiyasının tətbiq etdiyi müstəmləkəçilik siyasəti nəinki Mərkəzi Asiyada, eyni zamanda Krımda, Volqaboyunda və Sibirdə yaşayan türk xalqlarının mədəni inkişafını ləngidirdi. Yerli kadrlara olan tələbatın ödənilməsi məqsədilə dövlət məktəblərinin açılması imperiyanın maraqlarına xidmət edirdi.

Volqaboyunda belə məktəblərin təşkil olunması təhsilin də inkişafına kömək etdi. 1804-cü ildə təsis olunan Kazan Universiteti məktəblərin müəllim kadrları ilə təmin olunmasında və elmin inkişafında böyük rol oynadı.

Qafqazda da Rusiyanın təhsil sahəsindəki siyasəti müstəmləkəçilik maraqlarına xidmət edirdi. XIX yüzilliyin əvvəllərində Tiflisdə fəaliyyət göstərən gürcü məktəbləri bağlandı. Onların əvəzində mütləqiyyətə sədaqətli məmurlar hazırlayan rus məktəbləri açıldı.

**S** **Sizcə, nə üçün gürcü məktəbləri bağlandı?**



*Kazan Universitetinin binası*

Layihə



***Böyük Britaniyanın Hindistanda yeritdiyi müstəmləkəçilik***

Qacarlar dövlətinin iqtisadi və siyasi geriliyi, feodal qaydalarının hökmranlığı mədəniyyətin inkişafı yolunda başlıca maneəyə çevrilmişdi. Buna baxmayaraq, **darülfünunun*** açılmasını mütərəqqi hadisə kimi qeyd etmək olar.

★ *Darülfünun* – "bilik evi" deməkdir.

Bu dövrdə Hindistanda təhsilin və mədəniyyətin inkişafı Böyük Britaniyanın yeritdiyi müstəmləkəçilik siyasəti üzündən ləngiyirdi. Xalqı cəhalətdə saxlamağa çalışan ingilislər onu öz mədəni irsinə sahib çıxmağa qoymur, milli düşüncəyə söykənən hər hansı yaradıcılığı hakimiyyətləri üçün təhlükə mənbəyi hesab edirdilər.

**T** İşğalçı dövlətlərin müstəmləkələrdə həyata keçirdikləri təhsil siyasətinin oxşarlıqlarını müəyyən edin.

Çində təhsilin inkişafını ləngidən əsas amillərdən biri feodal idarə üsulunun mövcud olması idi. Bundan başqa, hökumətin yeritdiyi özünütəcrid siyasəti və ölkə ərazisinə böyük dövlətlərin hərbi müdaxiləsi də mədəniyyətin tərəqqisi yolunda başlıca maneəyə çevrilmişdi.

XX yüzilliyin əvvəllərində Çinin bir sıra şəhərlərində Avropa tipli məktəblərin açılması təhsil sahəsində, az da olsa, irəliləyişə səbəb oldu.

XIX yüzillikdə Rusiya təhsil sahəsində qabaqcıl Avropa ölkələrindən geri qalırdı. Burada təhsilə az vəsait ayrılırdı. Əsasən, imtiyazlı təbəqələrin övladları təhsil ala bilirdi. Təhkimçiliyin uzun müddət mövcud olması və mütləqiyyətin varlığı Rusiyada mədəniyyətin inkişafına mənfi təsir göstərirdi.

Ölkə iqtisadiyyatı inkişaf etdikcə daha çox savadlı adama ehtiyac duyulurdu. Buna görə də hökumət yeni məktəblər açmağa məcbur olurdu.

**T** Çin və Rusiyada təhsilin inkişafını ləngidən səbəbləri izah edin.



*İlk avtomobil*



*Qotlib Vilhelm Daymler*

# Elm

XIX yüzillikdə Qərbi Avropada və ABŞ-də kapitalist sənayesinin inkişafı elmin və texnikanın tərəqqisinə səbəb oldu. Fabrik və zavod istehsalının genişlənməsi, texniki nailiyyətlərin tətbiqi, dəmir yollarının çəkilişi, buxar maşınlarından istifadə, rabitə vasitələrinin təkmilləşdirilməsi elmin inkişafına müsbət təsir göstərdi. Elmi kəşflərin və ixtiraların sayı çoxaldı.

Alman mühəndisi **Q.Daymlerin** benzinlə işləyən mühərrik yaratması avtomobil sənayesinin başlanğıcını qoydu. Elektrikin kəşfi ən mühüm nailiyyətlərdən biri oldu. ABŞ mühəndisi **T.Edisonun** elektrik lampalarını ixtira etməsi nəticəsində elektrik enerjisindən küçələrin və evlərin işıqlandırılmasında geniş istifadə olunmağa başlandı. Elektrik enerjisindən sənayedə və təsərrüfat sahələrində istifadə edilməsi texniki tərəqqi üçün böyük imkanlar yaratdı.

Alman alimi **V.Rentgen** ayrı-ayrı cisimlərdə gözəgörünməz şüaların olduğunu aşkar etdi. Elektromaqnit dalğalarının bu növü rentgen şüaları adlandırıldı.

Böyük rus kimyaçı-alimi **D.Mendeleyev** kimyəvi elementlərin dövri qanununu kəşf etdi. Radionun əsasını qoyan professor **A.Popov** Peterburqda dünyada ilk radiostansiya və radioqəbuledici qurğunun işini nümayiş etdirdi.

XX yüzilliyin əvvəllərində ilk mikrozərrəcik – elektron kəşf olundu. Böyük ingilis fiziki **E.Rezerford** radioaktivliyin mahiyyətinin ilk elmi izahını verərək, atomların nüvəsi olduğunu sübut etdi. **A.Eynşteynin** nisbilik nəzəriyyəsi cisimlərin ölçüləri ilə vaxt uzunluğunun nisbi olduğunu sübuta yetirdi. **Q.Mendel** tərəfindən irsiyyətin bəzi qanunları kəşf edildi. Bu, yeni elmin – genetikanın inkişafının başlanğıcını qoydu.

S

**Nə üçün elektrikin kəşfi texniki tərəqqi üçün əsas amil hesab olunur?**

T

Elm və texniki tərəqqinin qarşılıqlı təsirini izah edin.



*V.Rentgen*



*D.Mendeleyev*



*A.Popov*



*T.Edison*



*E.Rezerford*



*A.Eynşteyn*



*Q.Mendel*

Layihə



N.Kamal T.Fikrət A.Kunanbayev R.Taqor B.Şou C.London A.Puşkin L.Tolstoy

# Ədəbiyyat

XIX yüzillikdə Osmanlı dövlətində yeni ədəbiyyatın yaranması ölkənin mədəni, ictimai-siyasi həyatında yeni səhifə açdı. Türk ədəbiyyatına vətənpərvərlik, azadlıq və millət anlayışlarını gətirən **Namiq Kamal** hürriyyət şairi kimi tanınırdı. Osmanlı ədəbiyyatının qərbyönümlü inkişafında böyük xidmətləri olan **Tofiq Fikrət** inqilabçı ideyaları ilə dövrün bir çox ziyalılarına təsir göstərmişdi.

Qazax realist ədəbiyyatının görkəmli nümayəndəsi **Abay Kunanbayev** şeirlərində cəmiyyətdəki qüsurlara və ədalətsizliyə qarşı mübarizə aparırdı.

Qafqazın sosial-iqtisadi və siyasi həyatında baş verən dəyişikliklər ədəbiyyatda da öz əksini tapırdı. Gürcü şairləri şeirləri vasitəsilə müstəmləkə zülmünə qarşı mübarizə aparır, mütləqiyyətin nadan məmurları amansızcasına qamçılanırdı.

Qacarlar İranının yarımmüstəmləkə halına salınması və istibdad rejiminin hökm sürməsi mədəni inkişaf səviyyəsinə mənfi təsir göstərirdi. Məşrutə inqilabının təsiri altında ədəbiyyatda yeni meyillər meydana çıxmışdı. Satira janrı daha çox inkişaf etmişdi.

Hind ədəbi dilinin və ədəbiyyatının inkişafı hind millətinin formalaşmasında mühüm rol oynamışdı. Görkəmli hind yazıçısı **Rabindranat Taqorun** yaradıcılığı bu dövrdə çiçəklənmə mərhələsində idi. Onun romanları və şeirləri fəlsəfi dərinliyi, bədii kamilliyi ilə dünya şöhrəti qazanmışdı. Bütün yaradıcılığı milli istiqlaliyyətə çağırış olan R.Taqor Nobel mükafatına layiq görülmüşdü.

**T** Müstəmləkə əsarətində yaşayan xalqların ədəbiyyatının xarakterik cəhətlərini müəyyən edin.

Bu dövrün ədəbiyyatında satira böyük rol oynayırdı. İrlandiyalı yazıçı **Bernard Şou** tənqidi realizminin ən görkəmli nümayəndəsi idi. O, ədəbiyyat sahəsində Nobel mükafatına və "Oskar"a layiq görülən yeganə insandır. Amerika ədəbiyyatının ən tanınmış simalarından biri **Cek London** idi. Onun "Martin İden" romanı yazıçıya dünya şöhrəti qazandırmışdı.

Rus ədəbiyyatında realizmin banisi **Aleksandr Puşkin** idi. O, şeirlərində mütləqiyyət quruluşunu və təhkimçilik hüququnu tənqid edirdi. Dahi rus yazıçısı **Lev Tolstoyun** yaradıcılığı dünya ədəbiyyatında özünəməxsus yer tutur. "Hərb və sülh" romanı onun ən böyük əsəri idi.

**T** Yazıçı və şairlərin fəaliyyətinə dair cədvəl tərtib edin.

# Memarlıq və incəsənət

XIX yüzillikdə Osmanlı imperiyasında milli dram teatrının fəaliyyətə başlaması və rəssamlıq məktəbinin açılması mütərəqqi hadisə idi. Memarlıqda qərb tərzi geniş yayılmışdı. Bu dövr Osmanlı memarlığının ən məşhur nümunəsi olan Dolmabağça sarayı Avropa nümunəsində inşa olunmuşdu.

Rəssamlıqda realist cərəyanın banisi hesab olunan **Qustav Kurbe** əsərlərində təbiət, dəniz və sosial mövzulara toxunurdu. Bəhs olunan dövrdə heykəltaraşlıq sahəsində də ciddi irəliləyişlər baş vermişdi. Mütərəqqi fikirli heykəltaraşlar əsərlərində bərabərlik və ədalət prinsiplərinin qələbəsinə, insanın yaradıcı qüvvəsinə inam hissi ifadə edirdilər.

Musiqi sahəsində romantizm öz təsirini XIX yüzilliyin sonlarına qədər saxlamışdı. Əsasən, opera müəllifi kimi tanınan məşhur italyan bəstəkarı **Cüzeppe Verdinin** əsərləri dünyanın bir çox ölkələrində səhnəyə qoyulmuşdu. Musiqi mədəniyyətinin inkişafında rus bəstəkarı **Pyotr Çaykovskinin** yaradıcılığı özünəməxsus yer tutur.

**T** Dünya ölkələrinin mədəniyyətlərinin inkişaf səviyyələrini onların sosial-iqtisadi quruluşları ilə əlaqələndirin.

Layihə

# 9 VERSAL-VAŞİNQTON SİSTEMİ

Versal müqaviləsi, "Mandat sistemi", Vaşinqton konfransı, təzminat problemi, Lokarno konfransı

Birinci dünya müharibəsində qalib gəlmiş dövlətlər Almaniya və onun müttəfiqləri ilə sülh müqaviləsini hazırlamaq üçün 1919-cu il yanvarın 18-də Parisdə sülh konfransına başladı. Konfransın bu tarixdə və Versal sarayında başlaması təsadüf deyildi. Fransa bununla Almaniyadan qisas almaq istəyirdi. Çünki 1871-ci il yanvarın 18-də Versal sarayında Almaniya imperiyası elan edilmişdi.

Məğlub dövlətlər və müharibə bitməmiş separat sülh müqaviləsi imzalayaraq müharibədən çıxmış Sovet Rusiyası konfransa dəvət edilməmişdi. Almaniya və onun müttəfiqləri ilə imzalanan müqavilələr ABŞ prezidenti Vudro Vilsonun "**14 maddə" prinsipi** əsasında hazırlanmalı idi.

Vudro Vilsonun "14 maddə"sinin bəzi prinsipləri
- gizli diplomatiyadan imtina edilməsi
- silahların və hərbi qüvvələrin azaldılması
- hər bir xalqın öz müqəddəratını təyin etməsi

Tezliklə konfransda ziddiyyətlər özünü büruzə verdi. Müharibədən əvvəl bağlanmış gizli müqavilələr və razılaşmalar Vilsonun irəli sürdüyü **öz müqəddəratını təyinetmə prinsipi** ilə ziddiyyət təşkil edirdi. Fransa Almaniyanı cəzalandırmaq üçün onun bütün silahlarından məhrum edilməsini, müharibə xərcləri üçün böyük təzminat ödəməsini istəyirdi.



**Müttəfiq nümayəndə heyətlərinin qarşısında oturmuş alman nümayəndəsi Versalın Güzgülü salonunda müqaviləni imzalayır. Versal, 28 iyun 1919-cu il. Uilyam Orpenin təsviri**

Vilsonun təklifi ilə gələcək müharibələrin qarşısını almaq üçün beynəlxalq təşkilat – **Millətlər Cəmiyyəti** yaradıldı. Bunun müqabilində Vilson ərazi tənzimləmələrində İngiltərə və Fransaya güzəştə getməyə razı oldu. ABŞ senatının bu müqaviləni təsdiq etməkdən imtina etməsi Millətlər Cəmiyyətini zəiflədən əsas amillərdən oldu.

# Versal müqaviləsi

Uzun müzakirələrdən sonra 1919-cu il iyunun 28-də Almaniya ilə **Versal müqaviləsi** imzalandı. Müqavilə Almaniyanı sərt şəkildə cəzalandırdı. Xüsusilə müharibənin başlanmasına görə günahkar elan edilməsi haqqında maddə Almaniyanı narazı saldı. Almaniyadan müharibə nəticəsində müttəfiq dövlətlərin məruz qaldığı bütün zərərin əvəzində **təzminat**★ ödənilməsi tələb edilirdi.

★ *Təzminat* – məğlub dövlətin qalib dövlətə verməli olduğu puldur.

**S** **Nəyə görə alman nümayəndəsi digər ölkə nümayəndələrindən fərqli olaraq, masanın əks tərəfində oturmuşdu?**

Versal müqaviləsinin hərbi və ərazi müddəaları da almanları qəzəbləndirdi. Almaniya ordusunu yüz min nəfərə qədər azaltmalı, donanmasını ixtisar etməli və hərbi hava qüvvələrini ləğv etməli oldu. Fransaya qarşı gələcəkdə hərbi fəaliyyətin qarşısını almaq üçün Reyn çayının hər iki tərəfindəki alman torpaqları **silahsızlaşdırılmış zonaya** çevrildi. **Elzas** və **Lotaringiya** Fransaya geri qaytarıldı.

**S** **Elzas və Lotaringiya nə zaman Almaniya tərəfindən ələ keçirilmişdi?**

Şərqi Almaniyanın bir hissəsi yeni yaradılan Polşa dövlətinə verildi. "Diktə edilmiş sülh"dən narazılıq etsə də, yeni müharibə riskini gözə almaq istəməyən Almaniya müqaviləni qəbul etdi.

**S** **Versal müqaviləsinin hansı müddəası almanları xüsusilə qəzəbləndirdi?**

# Avropanın yeni xəritəsi

Almaniyadan sonra onun müttəfiqləri ilə də ayrı-ayrı sülh müqavilələri imzalandı. Bütövlükdə Versal sistemi adlanan bu müqavilələr nəticəsində Avropa-



nın xəritəsi dəyişdi. Almaniya, Avstriya-Macarıstan və Rusiya imperiyaları dağıldı. Nəticədə yeni milli dövlətlər: Finlandiya, Latviya, Estoniya, Litva, Polşa, Çexoslovakiya, Avstriya və Macarıstan yarandı.

T Xəritə əsasında baş vermiş ərazi dəyişikliklərini təhlil edin.

Balkanlarda da yeni ərazi dəyişiklikləri edildi. Serb-Xorvat-Sloven krallığı (sonradan Yuqoslaviya) adlı yeni dövlət təşkil edildi.

S **Birinci dünya müharibəsi ərəfəsində Balkan yarımadasında hansı dövlətlər var idi?**

Paris sülh konfransı guya öz müqəddəratını təyinetmə prinsipini rəhbər tuturdu. Bununla belə, Şərqi Avropadakı xalqların qarışıqlığı etnik əsaslarla sərhədlərin yaradılmasını qeyri-mümkün etdi. Bəzən qaliblərin maraqlarını təmin etmək üçün güzəştlərə getmək lazım idi. Məsələn, Fransa Almaniyanın şərq sərhədində əsas müttəfiqi kimi Rusiyanı itirdiyi üçün Şərqi Avropa dövlətlərini mümkün qədər gücləndirmək istəyirdi. Həmin dövlətlər daha sonra Almaniya və sovet Rusiyasına qarşı maneə rolunu oynamalı idi. Güzəştlər nəticəsində, demək olar ki, bütün Şərqi Avropa dövlətlərində etnik azlıqlar qaldı. Dövlətlər daxilində etnik azlıqlar problemi sonradan münaqişələrə səbəb oldu.

**Daha bir imperiya** – Osmanlı dövləti də parçalandı. Müharibə zamanı Osmanlı imperiyasının tərkibindəki ərəbləri öz tərəflərinə çəkmək üçün İngiltərə və Fransa onlara müstəqillik vəd etmişdi. Lakin müharibə bitdikdən sonra İngiltərə və Fransa onların ərazilərini **mandat sistemi*** adı altında bölüşdürdü.

★ *Mandat sistemi* – keçmiş alman müstəmləkələrinin və Osmanlı mülklərinin qəyyumluğa götürülmüş formada bölüşdürülməsidir.

Vudro Vilson müstəmləkə ərazilərinin müttəfiqlər tərəfindən birbaşa ilhaqına qarşı çıxmışdı. Nəticədə sülh konfransında mandat sistemi yaradıldı. Bu sistemə görə mandat sahibi Millətlər Cəmiyyəti adından müəyyən ərazini idarə edirdi, lakin ona sahib deyildi. Beləliklə, Almaniyanın Afrika və Sakit okeandakı bütün müstəmləkələri və Osmanlı imperiyasının Yaxın Şərqdəki əraziləri mandat sistemi adı altında bölüşdürüldü.



Versal sülh konfransı



Vaşinqton konfransı. 1922-ci il.

# "Qum üzərində qurulmuş sülh"

Birinci dünya müharibəsindən sonra sülh yolu ilə nizamlanma yeni sərhədlər və yeni dövlətlər yaratmaqla XIX yüzilliyin millətçilik arzularını həyata keçirməyə çalışdı. Bu isə, öz növbəsində, yeni sərhəd mübahisələrinin yaranmasına və Şərqi Avropanın gərginlik bölgəsinə çevrilməsinə səbəb oldu.

Versal müqaviləsi davamlı sülhün qurulmasını təmin etmədi. Bu, bir sıra səbəblərlə bağlı idi. Birincisi, müharibədən sonra dünyada güclü dövlətlərdən birinə çevrilən ABŞ senatı müqaviləni təsdiq etmədi. Çünki amerikalıların əksəriyyəti Avropanın işlərinə qarışmaq istəmirdi. Onlar hesab edirdilər ki, ABŞ üçün ən yaxşı sülh təminatı Avropanın işlərindən kənarda qalmaqdır. Bundan əlavə, sülh müqaviləsi, xüsusən də müharibənin günahkarı ilə bağlı maddə alman xalqında nifrət yaratdı.

Mandat sistemi adı altında maskalanan Avropa müstəmləkəçiliyi Asiya və Afrikada davam etdi. Bu isə milli azadlıq mübarizələrinin yeni mərhələlərinə səbəb oldu. Antantanın bəzi müttəfiq dövlətləri də nəticədən narazı qaldı. Müharibəyə yeni ərazilər qazanmaq üçün daxil olan Yaponiya və İtaliya istədiklərindən az qazanmışdı. Ona görə də özlərini müttəfiqləri tərəfindən aldadılmış və xəyanət edilmiş kimi qəbul etdi. ABŞ, sovet Rusiyası kimi böyük dövlətlərin dəstəyindən məhrum olması Millətlər Cəmiyyətinin təsir gücünü zəiflədirdi. Ona görə də bu və digər şikayətlərlə bağlı tədbir görmək iqtidarında deyildi. Zaman göstərdi ki, təşkilatın üzvləri təcavüzə qarşı güc tətbiq etməyə razılaşa bilməzdi.

T

Millətlər Cəmiyyətinin təsir gücünün zəifliyini, bu və digər şikayətlərlə bağlı tədbir görmək iqtidarında olmamasını müasir dövrdə BMT-in fəaliyyəti ilə əlaqələndirərək dəyərləndirin.

Paris (Versal) konfransının qərarları bir müşahidəçinin qeyd etdiyi kimi: *"qum üzərində qurulmuş sülh"* idi. Əslində, bu qərarlarla gələcəkdə yeni dünya müharibəsinin toxumları səpildi. İyirmi ildən sonra müqavilələrin uğursuz mirası dünyanı başqa bir fəlakətli müharibəyə sürüklədi.

S

**Nə üçün Paris (Versal) konfransının qərarları "qum üzərində qurulmuş sülh" kimi dəyərləndirilirdi? Birinci dünya müharibəsinə səbəb olan problemlər Versal müqaviləsində həll olundumu?**

# Vaşinqton konfransı

Paris sülh konfransında qəbul edilən qərarlar Avropa, Asiya və Afrikada siyasi münasibətləri əhatə edirdi. Uzaq Şərq və Sakit okean bölgəsində münasibətləri tənzimləmək üçün isə 1921-ci ilin sonu – 1922-ci ilin əvvəllərində **Vaşinqtonda konfrans** keçirildi. Konfransda Sakit okean bölgəsində olan




Çinin ərazi bütövlüyün tanınması. 1922-ci il.

mülklərinin tanınması haqqında ABŞ, İngiltərə, Fransa və Yaponiya arasında müqavilə imzalandı. Başqa bir müqavilə ilə Çinin müstəqilliyi və ərazi bütövlüyü tanındı. Bu və **dəniz silahlarının məhdudlaşdırılması haqqında müqavilə** Yaponiyanın maraqlarına zidd idi. Bununla da Yaponiyanın ABŞ-yə qarşı qisasçılıq siyasətinin əsası qoyuldu.

# Təzminat problemi

Maliyyə problemi ilə üzləşən Almaniya təzminat ödənişini gecikdirirdi. Fransa bundan qəzəbləndi və 1923-cü ildə Almaniyanın əsas sənaye və mədən mərkəzi olan Rur bölgəsini işğal etmək üçün qoşun göndərdi. Fransa buradakı mədən və müəssisələri istifadə etməklə təzminatı almağı planlaşdırırdı. İqtisadi çətinlik siyasi gərginliyə və münaqişəyə səbəb oldu. Tərəflər çıxış yolu axtarmağa başladı.

1924-cü ildə beynəlxalq komissiya təzminat üçün yeni plan hazırladı. Komissiyaya sədrlik edən ABŞ nümayəndəsinin adını daşıyan **Daues planı** təzminatın ödənilməsi müddətini uzatmaqla illik ödənişinin azaldılmasını nəzərdə tuturdu. Bu, Almaniyanın iqtisadi inkişafına kömək etməklə onun ödəmə qabiliyyətini artırmağa xidmət edirdi. Plana əsasən Almaniyanın bərpası üçün ona ABŞ tərəfindən borc verildi. Bu borc hesabına dirçələn Almaniya Fransa və İngiltərəyə təzminatı vaxtında ödəməyə başladı. ABŞ-nin kapital axınının artması Qərbi Avropada nisbi inkişafa səbəb oldu.

# Lokarno konfransı

Qərbi Avropada hökm sürən rifah dövrünün səbəblərindən biri də sülh və əməkdaşlıq mühitinin artması idi. 1925-ci ildə **Lokarno (İsveçrə) konfransında** Almaniyanın Fransa və Belçika ilə yeni sərhədlərinin toxunulmazlığına zəmanət verən pakt (müqavilə) imzalandı. Bu pakt Avropada yeni sülh dövrünün başlanğıcı kimi qiymətləndirildi.

Lokarno (İsveçrə) konfransı, 1925-ci il



Layihə



Brian-Kelloq paktı

**Sizcə, Lokarno paktının Avropada yeni sülh dövrünün başlanğıcı kimi qiymətləndirilməsi doğru idimi?**

Almaniyanın 1926-cı ildə Millətlər Cəmiyyətinə daxil olması ilə yeni əməkdaşlıq ruhu daha da gücləndi. İki il sonra dünyanın əksər dövlətləri tərəfindən imzalanan **Brian-Kelloq paktı**★ ilə bu əməkdaşlığın coğrafiyası genişləndi.

Hər iki paktda anlaşılmazlıq və münaqişələrin sülh yolu ilə həll edilməsi nəzərdə tutulurdu.



Frenk Kelloq



Aristid Brian

★ *Brian-Kelloq paktı* – ABŞ dövlət katibi Frenk Kelloq və Fransa xarici işlər naziri Aristid Brianın təşəbbüsü ilə imzalanmışdır. 1929-cu ildə SSRİ də bu pakta qoşulmuşdu.

**Anlaşılmazlıq və münaqişələrin sülh yolu ilə həll edilməsi həmin dövrdə mümkün idimi?**

Müasir dövrlə əlaqələndirərək debat təşkil edin.



# 10 AMERİKA BİRLƏŞMİŞ ŞTATLARI, BÖYÜK BRİTANİYA VƏ FRANSA

K.Kulic, irqi ayrı-seçkilik, Böyük böhran, "Yeni xətt", Leyborist hökuməti, Xalq Cəbhəsi

Hərbi sifarişlər və müharibəyə gec qoşulması nəticəsində ABŞ Birinci dünya müharibəsindən böyük qazanc əldə etdi. Lakin müharibədən sonra ABŞ iqtisadiyyatı işsizliklə bağlı çətinliklərlə üzləşdi. Bu dövr tətil hərəkatı və irqi zəmində iğtişaşlarla səciyyəvi idi. 1920-ci illərin əvvəllərində vergilər azaldıldı və iqtisadiyyatın dövlət tərəfindən tənzimləməsindən imtina edildi. ABŞ-nin o dövrə qədərki tarixində xarici mallar üçün ən yüksək gömrük tarifləri müəyyən edildi. Bu siyasət iqtisadiyyatın tədricən inkişafına kömək etdi. Gəlir vergisinin azaldılması və yanacağın ucuzluğu rifah səviyyəsini artırdı.

**S** **Sizcə, xarici mallar üçün ən yüksək gömrük tariflərinin müəyyən edilməsinin məqsədi nə idi?**

1920-ci illərin birinci yarısı, əsasən, inkişaf yönümlü olsa da, bəzi iqtisadi problemlər qalırdı. Böyük şirkətlər bəzi sahələr üzərində inhisarçılığı bərpa etdi. Bu isə qiymətlərin kəskin şəkildə yüksəlməsi ilə nəticələndi. Hökumət sosial tərəqqidən daha çox inhisarların maraqlarına üstünlük verən siyasət yürüdürdü. Varlılarla əksər amerikalılar arasında gəlir fərqi xeyli artmışdı. Əhalinin təxminən yarısı yoxsulluq içində yaşayırdı.

Bu dövrün mühüm hadisələrindən biri də hökumət üzvlərinin bir neçəsinin rüşvətə görə istefa verməsi idi. ABŞ tarixində ilk dəfə olaraq hökumət üzvü vəzifədə olarkən cinayət törətdiyinə görə həbs edildi. 1920-ci illərin ikinci yarısında da dövlətin iqtisadiyyatı tənzimləmə siyasətindən imtina etməsi davam etdirildi.

**T** 1920-ci illərin birinci yarısı ABŞ-nin sosial-iqtisadi vəziyyətini təhlil edərək müsbət və mənfi cəhətlərini dəyərləndirin.


**ABŞ, 1920-ci il**



**Kalvin Kulic**

Dövlətin iqtisadiyyata müdaxiləsinin azaldılması siyasəti nəticəsində inkişaf baş verdi. ABŞ prezidenti **Kalvin Kulic** hesab edirdi ki, hökumət sosial və iqtisadi problemləri həll etməməlidir.

**T**

"Hökumət sosial və iqtisadi problemləri həll etməməlidir" fikrini necə dəyərləndirirsiniz? Mövzu ilə bağlı müzakirə aparın.

Ancaq bütün amerikalılar rifah halında yaşamırdılar. Bir çoxları, xüsusən də kiçik fermerlər, afroamerikalılar və digər etnik azlıqlar daha məhdud imkanlara malik idilər.

# ABŞ-də sosial dəyişikliklər və irqi ayrı-seçkilik

1920-ci illərdə qadınlar daha çox şəxsi azadlıq əldə etdilər. Artan rifah qadınlar üçün daha çox iş imkanları açdı. ABŞ konstitusiyasına **19-cu düzəliş** qadınların səsvermə hüququnu təmin etdi.

**T**

Azərbaycanda qadınlara seçki hüququnun nə zaman verildiyini xatırlayın.

Bu dövrdə afroamerikalıların həyatında da dəyişikliklər baş verdi. Şimalda afroamerikalılar müəyyən iqtisadi və siyasi güc əldə etsələr də, hələ də iş və mənzil sahəsində ayrı-seçkiliklə üzləşirdilər. İrqi zəmində artan gərginlik iğtişaşlara səbəb olurdu.

1920-ci illərdə çoxsaylı afroamerikalının ölkənin şimalındakı şəhərlərə gəlməsi gərginliyi daha da artırdı, onlara qarşı terrorçu və irqçi təşkilatlar yenidən fəallaşdı. Nəticədə afroamerikalılara qarşı zorakılıq halları çoxaldı. Afroamerikalılar da öz hüquqlarını müdafiə etmək üçün təşkilatlar yaratmağa başladılar. Onlar vətəndaş və səsvermə hüquqlarının təmin edilməsi, irqi ayrı-seçkiliyə son qoyulması üçün çalışırdı.

**S**

**1920-ci illərdə afroamerikalıların irqçiliklə mübarizəsinin nəticələrini necə dəyərləndirirsiniz?**

**M**

Fundamentalizm adlı dini hərəkat 1920-ci illərdə çoxlu ardıcıllar və siyasi güc qazandı. Onlar dövlət məktəblərində Təkamül nəzəriyyəsinin öyrədilməsinə etiraz edirdilər. Fundamentalistlər üç ştatda təkamül təliminin öyrədilməsini qadağan etməyə müvəffəq oldular. 1925-ci ildə bu qanunu pozan biologiya müəllimi Con Skopsun məhkəməsi ölkənin diqqətini çəkdi. Skops təqsirli bilindi, lakin Ali Məhkəmə qərarı ləğv etdi. Təkamül təlimi ilə bağlı mübahisələr müasir dövrdə də davam edir.




**ABŞ, 1920-ci il. İrqi zəmində artan gərginlik**

Layihə



ABŞ, 1929-cu il

## Rifahın sonu

1920-ci illərin sonuna qədər nisbi rifah dövrü olsa da, bəzi əsas sənaye sahələrində ciddi çətinliklər mövcud idi. Orta təbəqənin və yoxsulların gəlirləri kifayət qədər deyildi. Ona görə də əhalinin alıcılıq imkanı aşağı düşdü. İstehsal edilən məhsulların satışı azaldı. Bu isə sənaye müəssisələrinin gəlirlərinə mənfi təsir göstərdi. Kənd təsərrüfatında da problemlər var idi. Texnikanın, suvarma üsullarının təkmilləşdirilməsi sayəsində fermerlər tələbatdan daha çox məhsul istehsal etdilər. İstehsalın tələbatdan artıq olması ərzaq qiymətlərinin aşağı düşməsinə səbəb oldu. Nəticədə fermerlərin müflisləşərək kəndlərdən şəhərlərə axını gücləndi. Bu da, öz növbəsində, işsizlərin sayını artırdı.

S

**1920-ci illərin rifahı müxtəlif sosial qruplara necə təsir etdi?**

Əslində, insanların böyük əksəriyyətinin gəlirləri və imkanları məhdud idi. Vəziyyəti daha da pisləşdirən, əsasən, afroamerikalılar arasında işsizliyin yüksək olması idi. Buna baxmayaraq, əhalinin əksəriyyəti kreditlə alış-veriş edirdi. Bu isə onların borclarının artmasına səbəb oldu. Həmçinin amerikalıların **birjalarda**★ səhm alması da artmışdı. Onlar daha çox səhm almaq üçün tez-tez borc götürürdülər. Amma bu, təhlükəli strategiya idi. Səhmlərin qiymətləri düşəndə borcalanlar kreditlərini qaytara bilmir, iflas edirdilər.

★ *Birja* – satıla bilən qiymətli kağızların, səhmlərin, əmtəələrin açıq şəkildə satıldığı və ya alındığı mütəşəkkil bazardır.

## Böyük böhran

1929-cu ildə Nyu-York birjasında qısa müddət ərzində səhmlərin dəyəri düşdü. Milyonlarla amerikalı bütün var-dövlətini bir neçə saat ərzində itirdi. Lakin birjanın çöküşü iqtisadi böhranın ilk mərhələsi idi. Tezliklə minlərlə bank iflas etdi. Nağd pulu az olan və ya heç olmayan insanlar ərzaq və məişət mallarını ala bilmirdilər.

Böhranın sənaye və kənd təsərrüfatını bürüməsi işsizliyin həddindən artıq yüksəlməsinə səbəb oldu. Bu, ölkə tarixindəki ən dərin iqtisadi böhran olmaqla yanaşı, tezliklə bütün dünyaya təsir etdi. Ona görə də bu, **"Böyük böhran"** adlandı.

ABŞ banklarında böhran, 1929-cu il



Bir çox Avropa ölkələri Birinci dünya müharibəsindən sonra yenidənqurma üçün ABŞ banklarından borc götürmüşdü. Ona görə də Amerika iqtisadiyyatı iflasa uğrayanda Avropa da onun təsirinə məruz qaldı. Böhran şəraitində, 1932-ci ildə demokrat **Franklin Ruzvelt** prezident seçildi.

F.Ruzvelt başa düşürdü ki, kapitalizmi "xilas etmək" üçün onu islah etmək lazımdır. Buna görə də bir qrup iqtisadçı və tarixçi alimləri bu işə cəlb etdi. Onlar xalqın problemlərini öyrənir və həll yollarını tövsiyə edirdilər. Ruzvelt "Böyük böhran"dan çıxmaq üçün "Yeni xətt" kimi tanınan iqtisadiyyata fəal hökumət müdaxiləsi siyasətini həyata keçirdi.

"Yeni xətt " siyasətinin məqsədləri

- iqtisadiyyatda islahatlar
- kənd təsərrüfatı və sənayeni bərpa etmək
- ehtiyacı olanlara kömək etmək

Yeni xəttə əsasən işsizliyi aradan qaldırmaq üçün ictimai iş yerləri açıldı. Sosial təminat haqqında qanuna əsasən əlilliyə və yaşa görə pensiya, işsizlər üçün sığorta sistemi yaradıldı. Bu, ABŞ tarixində XX yüzilliyin ən mühüm qanun layihələrindən biri kimi qəbul edilir. Beləliklə, ABŞ-də, bəlkə də, ola biləcək sosial inqilabın qarşısını alan islahatlar həyata keçirildi. Lakin işsizlik problemləri tam həll edilmədi.






**Franklin Ruzvelt**

İslahatların gedişində Ali Məhkəmənin hakimlərinin çoxu ona qarşı çıxdı. Onlar ölkə iqtisadiyyatına müdaxilə etməkdə mərkəzi hökumətə həddən artıq səlahiyyət verilməsini nəzərdə tutan qanunları konstitusiyaya zidd hesab edirdilər. Ona görə də Məhkəmə nəzarəti səlahiyyətindən istifadə edərək bu qanunlar ləğv edildi. Bu, "Yeni xətt" islahatlarının ləğv edilməsi təhlükəsini yaratdı. F. Ruzvelt konqresdən Ali Məhkəməyə yeni hakimlərin təyinatına icazə verən qanun layihəsini qəbul etməyi xahiş etdi. O bununla hökumətin rolunun artırılmasına razı olan hakimləri təyin etməyi planlaşdırırdı. Lakin konqresin hətta onun partiyasından olan üzvləri bu qanun layihəsini sərt şəkildə tənqid etdilər. Onlar bu qanun layihəsinin ABŞ Konstitusiyası ilə müəyyən edilmiş nəzarət və tarazlıq sisteminə zidd olduğunu bildirərək qəbul etmədilər.

**Konqresin hətta F.Ruzveltin partiyasından olan üzvlərinin onun təklif etdiyi qanun layihəsini sərt şəkildə tənqid etməsini necə dəyərləndirirsiniz?**

ABŞ Konstitusiyası ilə müəyyən edilmiş nəzarət və tarazlıq sistemi ilə bağlı araşdırma apararaq təqdimat hazırlayın.

1937-ci ildə iqtisadi inkişafın bərpa edildiyini hesab edən Ruzvelt "Yeni xətt" islahatlarını zəiflətmək qərarına gəldi. Lakin tezliklə iqtisadiyyat yenidən zəiflədi. Sənaye məhsulları istehsalı azaldı və işsizlik yenidən artdı. Bu tənəzzül ABŞ İkinci dünya müharibəsinə daxil olana qədər davam etdi. Yalnız müharibə nəticəsində hərbi sənaye üçün silah sifarişlərinin artması işsizliyin azalmasına səbəb oldu.

**T** F.Ruzveltin siyasətini müxtəlif sosial qrupların mənafeyi baxımından təhlil etməklə onlara münasibət bildirin.

1920-30-cu illərdə ABŞ təcridçilik siyasəti yürüdürdü. Bu siyasət ölkənin geosiyasi cəhətdən okean vasitəsilə Avropadan təcrid edildiyi üçün onun işinə qarışmamaqla əlaqələndirilirdi. Nəticədə ABŞ Millətlər Cəmiyyətinə daxil olmadı. F.Ruzveltin hakimiyyət dövründə SSRİ ilə diplomatik əlaqələr quruldu.

## BÖYÜK BRİTANİYA

Birinci dünya müharibəsi İngiltərə iqtisadiyyatında mühüm dəyişikliklər yaratdı. Hələ müharibədən əvvəl özünü göstərən iqtisadi böhranın təzahürləri daha da dərinləşdi. Müharibə dövründə ingilis mallarının ixracı əsaslı şəkildə azaldı, idxal isə artdı. İngiltərə xarici dövlətlərdən borc almağa məcbur oldu. Müharibə zamanı İngiltərə sənaye məhsulları üçün xarici bazarların çoxunu itirmişdi. Kömür, polad və toxuculuq kimi sənaye sahələri müharibədən sonra tənəzzülə uğradı və işsizliyin artmasına səbəb oldu. Böyük Britaniya borc verən ölkədən borc alan ölkəyə çevrildi. Bu isə vergilərin artırılmasına, inflyasiya və bahalılığa səbəb olurdu. Sosial-iqtisadi çətinliklər ölkənin siyasi vəziyyətinə də mənfi təsir göstərirdi. Tez-tez hökumət böhranları baş verirdi. 1924-cü ildə ölkənin siyasi tarixində ilk dəfə **Leyboristlər (işçi) partiyası** hökumət təşkil etdi. Lakin sosial-iqtisadi problemlər tezliklə onların seçkilərdə məğlub olmasına səbəb oldu. 1926-cı ildə kömür sənayesində başlayan tətil tezliklə digər sənaye sahələrini də əhatə etdi. Bu, Böyük Britaniya tarixində **ilk ümumi tətil** oldu.

**S** **Azərbaycanda ilk ümumi tətil nə vaxt baş vermişdi? Böyük Britaniyada baş verən böhranla hansı oxşar və fərqli cəhətləri var idi?**

Böyük Britaniyada ən böyük partiyaya çevrilən Leyboristlər partiyası "Böyük böhran" dövründə iqtisadi problemləri həll edə bilmədi və 1931-ci ildə hakimiyyətdən düşdü. Yeni hökumət böhrandan çıxmaq üçün işsizlərə verilən maddi yardımı azaltdı. Həmçinin yerli sənayeni qorumaq üçün xarici mallara qoyulan gömrük rüsumları artırıldı.

**S** **Yerli sənayeni qorumaq üçün xarici mallara qoyulan gömrük rüsumlarının artırılması siyasəti necə adlanır?**

Böyük Britaniyada siyasi liderlər iqtisadçı alim **Con Keynsin** yeni ideyalarına məhəl qoymayaraq hökumətin müdaxiləsi olmadan böhranın aradan qalxacağına inanırdılar. Keyns iddia edirdi ki,:

- işsizlik həddindən artıq istehsaldan deyil, tələbin azalmasından qaynaqlanır;
- tələbat insanları magistral yolların və ictimai binaların tikintisinə cəlb etməklə artırıla bilər;
- Hökumət belə layihələri büdcə kəsirləri və ya borc hesabına olsa belə, maliyyələşdirməlidir.

**S** **Hökumətin elm xadimlərinin məsləhətlərini nəzərə almasını necə dəyərləndirirsiniz? Mülahizələrinizi tarixi nümunələrlə əsaslandırın.**




Böyük Britaniya, 1926-cı il. İlk ümumi tətil



**Fransa, 1920-cı il.**

# FRANSA

Avropanın digər dövlətləri kimi Fransa da müharibədən sonra çətinliklərlə üzləşdi. Ölkə ərazisinin böyük hissəsinin döyüş meydanına çevrilməsi və müharibədə çoxsaylı gənc nəslin həlak olması sosial-iqtisadi problemlər yaratdı. Müharibə kənd təsərrüfatına da zərər vurmuşdu. İşçi qüvvəsi azalmış, səngərlər, minalar və mərmilər əkin sahələrini yararsız vəziyyətə salmışdı.

**T** Fransanın müharibədən sonra qarşısında duran ən böyük problemi müasir dövrdə II Qarabağ müharibəsindən sonra Azərbaycanın qarşısında duran problemlə müqayisə edin.

Almaniyadan alınan təzminat, Elzas və Lotaringiyanın geri qaytarılması 1920-ci illərin ikinci yarısında iqtisadi inkişafa səbəb oldu. Digər ölkələrlə müqayisədə daha **balanslaşdırılmış**★ iqtisadiyyata malik olduğu üçün Fransa "Böyük böhran"ın təsirlərini bir qədər gec hiss etdi.

★ *Balanslaşdırılmış iqtisadiyyat* iqtisadiyyatın xüsusi bir sənaye və ya sahəyə yönəlməyib, eyni zamanda müxtəlif sektorlar üzrə inkişafıdır.

**T** "Böyük böhran"ın təsirlərini başqa ölkələrdən fərqli olaraq, Fransanın bir qədər gec hiss etməsini səbəbini izah edin.

İqtisadi böhran tezliklə siyasi təsirlərə səbəb oldu. Siyasi xaos nəticəsində tez-tez hökumət dəyişikliyi baş verdi. Nəhayət, 1936-cı ildə **solçu**★ **partiyaların - sosialistlərin, radikalların** və **kommunistlərin** koalisiyası əsasında **Xalq Cəbhəsi** hökuməti təşkil edildi. Bu hökumət ABŞ-dakı "Yeni xətt" siyasətinin nümunəsində işçilər üçün islahat proqramına başladı. Bu proqram işçilərə kollektiv müqavilə hüququ (həmkarlar ittifaqının işəgötürənlərlə əmək haqqı və iş saatları ilə bağlı danışıqlar aparmaq hüququ), sənayedə 40 saatlıq iş həftəsi, iki həftəlik ödənişli məzuniyyət və minimum əmək haqqı təminatı verdi. Lakin Xalq Cəbhəsi hökumətinin siyasəti böhranın yaratdığı problemləri həll edə bilmədi.

★ *Solçu partiyalar* – Siyasətdə "sol" və "sağ" yönüm anlayışları Fransa burjua inqilabı zamanı siyasi qüvvələrin parlamentdə uyğun olaraq sağ, orta və sol yerlərdə yerləşdirilməsindən yaranmışdır. Solçular radikal inqilabi dəyişikliklərin tərəfdarı kimi tanınmışdır. Bura kommunistlər, sosialistlər, sosial-demokratlar və başqaları aiddir.





Layihə

# 11 ALMANİYA VƏ İTALİYA

Veymar Respublikası,inflyasiya, totalitar dövlət, antisemitizm, Benito Mussolini

Birinci dünya müharibəsi Almaniyada siyasi və sosial-iqtisadi vəziyyəti pisləşdirdi. 1918-ci ilin noyabrında baş vermiş inqilab nəticəsində monarxiya devrildi və respublika elan edildi. Bundan sonra Almaniya Antanta ilə atəşkəs imzaladı. Sonralar Almaniyada belə bir mif yarandı ki, guya Almaniya müharibə meydanında məğlub olmamış, inqilab nəticəsində müharibəni bitirməyə məcbur olmuşdur. Bu, Almaniya üçün arxadan zərbə kimi dəyərləndirilmişdir. 1919-cu ildə Veymar şəhərində fəaliyyətə başlayan Müəssislər Məclisi Almaniyanın yeni konstitusiyasını qəbul etdi. Ona görə də bu konstitusiyanın qüvvədə olduğu dövr (1933-cü ilədək) Almaniyada **Veymar Respublikası** adlanır. Veymar Respublikası yarandığı gündən siyasi və sosial-iqtisadi problemlərlə üzləşdi. Çünki respublikanın müdrik və qətiyyətli siyasi liderləri yox idi.

**T** **Tarixi şəxsiyyətlərin fəaliyyətini sosial qrupların mənafeyi baxımından təhlil etməklə onlara münasibət bildirin.**



**Almaniyada inqilab dövründə yeniyetmənin elan edilməsi. (Foto Bundesarxiv)**

**T** Fotonu təhlil edin: Sizcə, foto təbliğat məqsədi daşıyır, yoxsa gerçəkliyi əks etdirir? Mülahizələr irəli sürün və fikirlərinizi araşdırma apararaq əsaslandırın.

1923-cü ildə Rur bölgəsinin Fransa tərəfindən işğalına qarşı alman hökuməti passiv müqavimət siyasətini həyata keçirdi. Alman işçiləri tətilə başladılar və hökumət onların maaşlarını daha çox kağız pul çap etməklə ödəyirdi. Bu isə Almaniyada inflyasiyanı (pulun dəyərdən düşməsi) gücləndirdi. Alman pulu o qədər dəyərsizləşmişdi ki, işçilər həftəlik maaşlarını evə aparmaq üçün əl arabalarından istifadə edirdilər. İnsanlar odundan ucuz olduğu üçün kağız pulu ocaqda yanacaq kimi yandırırdılar.



**Almaniyada inflyasiya dövründə maaşları səbətlə alan işçilər**

**M** **İnflyasiya dövründə Almaniyada bir qadın mağazada olarkən bir səbət pulu unutmuşdu. Qayıdanda pul orada idi, amma səbət oğurlanmışdı. Çünki adi səbət onunla dolu olan alman pulundan daha dəyərli idi.**

Layihə

Bununla da ciddi sosial problemlər yarandı. Sabit əmək haqqı ilə yaşayan müəllimlər, dövlət qulluqçuları və başqalarının aylıq gəlirlərinin dəyərsizləşməsi sosial-iqtisadi vəziyyəti gərginləşdirdi. Nəticədə orta təbəqə respublikaya düşmən mövqedə olan radikal siyasi partiyalara rəğbət bəsləməyə başladı. Daues planına əsasən ABŞ-dən alınan borclar qısa müddətli iqtisadi inkişafa səbəb oldu. Lakin 1924–1929-cu illəri əhatə edən bu nisbi inkişaf dövründən sonra Almaniyada böyük böhran başladı. İşsizlik dəfələrlə artdı. Böhran qorxuya və **nasist (millətçi) partiyasının**★ yüksəlişinə yol açdı. I dünya müharibəsindən sonra yaranmış bu partiyaya sonralar **Adolf Hitler** başçılıq edirdi.

★ *Nasist partiyası* – Milli Sosialist Alman Fəhlə partiyasının qısa adıdır.

1923-cü ildə nasistlərin uğursuz qiyam cəhdindən sonra həbs edilən Hitler nasistlərin hakimiyyətə zorakılıqla deyil, qanuni yollarla gələ biləcəyini başa düşdü. Bu, nasistlərin seçkilərdə qalib gəlməsini təmin etmək üçün kütləvi siyasi partiyaya çevrilməsindən asılı idi. Ona görə də həbsdən çıxandan sonra nasist partiyasını ölkənin hər yerində genişləndirdi. Böyük böhran nəticəsində yaranan iqtisadi çətinliklər, işsizliyin kəskin artması və Versal müqaviləsinə nifrət nasistlərin hakimiyyətə gəlməsində həlledici amil oldu. Sənayeçilər, torpaq zadəganları, hərbi zabitlər və yüksək bürokratlar arasında kommunistlərin hakimiyyətə gəlməsi qorxusu yarandı. Ona görə də Hitleri dəstəkləməyə başladılar və 1933-cü ildə onu hökumət başçısı təyin etməsi üçün prezidentə təzyiq etdilər. Qısa müddət ərzində nasistlər hakimiyyəti ələ keçirdi. Reyxstaqın qəbul etdiyi qanunla hökumətə fövqəladə səlahiyyət verildi. Bu da əslində, konstitusiya və reyxstaqın ləğv edilməsi demək idi. Əslində, parlament tərəfindən Hitlerə diktatorluq səlahiyyəti verildi. Nasistlər bütün dövlət qurumlarını nəzarət altına almaq üçün tədbirlər həyata keçirdilər. Yəhudilər və nasist olmayanlar dövlət qulluğundan çıxarıldı.



**Adolf Hitler, 1923-cü il.**

S

**Sizcə, nə üçün nasistlər bütün dövlət qurumlarını nəzarət altına almaq istəyirdilər?**





Nasist rejiminə qarşı çıxanlar üçün həbs düşərgəsi

Nasist rejiminə qarşı çıxanlar üçün həbs düşərgələri quruldu. Nasistlərdən başqa, bütün siyasi partiyalar ləğv edildi. Həmkarlar ittifaqları nasistlərin nəzarətinə keçdi. Beləliklə, Hitler **totalitar*** dövlətin əsasını qoydu. 1934-cü ildə prezident Hindenburqun vəfatından sonra prezident idarəsi ləğv edildi. Son qərar verən və mütləq hökmdar səlahiyyətlərinə malik Hitler Almaniyanın füreri (rəhbər) oldu. Dövlət məmurları və əsgərlər fürerə şəxsi sədaqət andı içməli idilər. Nasistlər müxtəlif yollarla totalitar dövlətin yaradılmasını həyata keçirdilər.



Prezident Hindenburq və reyxkansler Hitler

★ *Totalitar dövlət* – cəmiyyət həyatının bütün sahələri üzərində tam (total) nəzarətin bərqərar olduğu dövlətdir.

Diktaturanın forması olan totalitar dövlət cəmiyyətin bütün sahələrinə – siyasi, sosial-iqtisadi və mədəni həyatına tam (total) nəzarət etməyi qarşısına məqsəd qoyur. Məqsədə nail olmaq üçün kütləvi təbliğat vasitələrindən istifadə edilir. Totalitar dövlətlərə tək lider və tək partiya rəhbərlik edir. Hakimiyyət bölgüsü və fərdi azadlıqların təminatı rədd edilir. Kütlələrin kollektiv iradəsi lider və ya siyasi partiya tərəfindən müəyyən edilir. Digər totalitar dövlətlərdə olduğu kimi, nasistlər də məqsədlərinə çatmaq üçün iqtisadi siyasət, kütləvi tamaşalar və təşkilatlanmadan istifadə edirdilər. Siyasi rəqiblərə qarşı terror və repressiyadan geniş şəkildə tətbiq olunurdu.

## Nasistlərin iqtisadi siyasəti

Hitler işsizliyi aradan qaldırmağa və iqtisadi böhrana son qoymağa çalışırdı. Hərbi sənayenin inkişaf etdirilməsi nasistlərin iqtisadi siyasətinin əsaslarından birini təşkil edirdi. Kütləvi silahlanma proqramı işsizlik problemini həll etmək üçün əsas vasitə idi. Bir neçə il ərzində işsizlik xeyli azaldıldı. Böhranın aradan qaldırılması bir çox almanların Hitleri və nasistləri qəbul etməsinə səbəb olan mühüm amil oldu.

## Təbliğat və təşkilatlanma

Alman xalqını Hitler siyasətinin alətinə çevirmək üçün kütləvi nümayişlər və tamaşalardan istifadə olunurdu. Kilsələri, ibtidai və orta məktəblər, universitetlər nasist totalitar dövlətinin nəzarəti altına alındı.

Dövlət qulluqçuları, müəllimlər, qadınlar, fermerlər, həkimlər və hüquqşünaslar üçün nasist peşə təşkilatları yaradıldı. Bundan əlavə, uşaq və gənclər təşkilatlarında nasist ideyaları təbliğ edilirdi.

**S** **Nasist peşə təşkilatlarının yaradılması hansı məqsədi daşıyırdı?**

Sample

Nasistlər qadınların ev işləri ilə məşğul olmasını təbliğ edirdilər. Ağır sənayedəki işlərin qadınların sağlam uşaq dünyaya gətirməsinə mane ola biləcəyi düşünülürdü. Bəzi peşələr, o cümlədən universitet müəllimliyi, tibb və hüquq da qadınlar, xüsusən də evli qadınlar üçün yararsız hesab edilirdi.

## Antisemitizm* siyasəti

Əsrlər boyu yəhudilər Avropada ayrı-seçkiliyə məruz qalmışdılar. **Antisemitizm** Birinci dünya müharibəsindən sonrakı sosial-iqtisadi problemlər şəraitində yenidən üzə çıxmışdı. Hakimiyyətə gəldikdən sonra nasistlər antisemitizm ideyalarını həyata keçirməyə başladılar. Yəhudilər Almaniya vətəndaşlığından çıxarıldı. Onların səbəbsiz yerə öldürülməsi və həbs düşərgələrinə göndərilməsi adi hala çevrildi.

★ *Antisemitizm* – yəhudilərə qarşı düşmənçilik siyasətidir.

Yəhudilərin bütün ictimai binalara, o cümlədən məktəblərə, xəstəxanalara və nəqliyyat vasitələrinə girişi qadağan edildi.

## Nasist Almaniyasının xarici siyasəti

Birinci dünya müharibəsində məğlubiyyətin əvəzini çıxmaq, Avropanı istila etmək və dünya ağalığı qurmaq nasistlərin xarici siyasətinin əsasını təşkil edirdi. İlk olaraq silahlanma məhdudiyyətlərindən azad olmaq üçün Almaniya 1933-cü ildə Millətlər Cəmiyyətindən çıxdı. Daha sonra Versal sülh müqaviləsində qoyulan hərbi məhdudiyyətlərin ləğvinə başlandı. İşğalçı siyasət tədricən Almaniya, İtaliya və Yaponiyanı yaxınlaşdırdı. Böyük Britaniya və Fransanın sakitləşdirmə və qarışmama siyasəti Almaniyanın əvvəlcə Avstriyanın birləşdirilməsinə, daha sonra isə Çexoslovakiyanı işğal etməsinə şərait yaratdı. Almaniyanın işğalçılıq siyasətinin genişlənməsi yeni dünya müharibəsinə gətirib çıxardı.

**Versal sülh müqaviləsində hansı hərbi məhdudiyyətlər qoyulmuşdu?**

## İtaliyada faşizmin yaranması və yüksəlişi

Digər Avropa ölkələri kimi, İtaliya da I dünya müharibəsindən sonra ciddi iqtisadi problemlər yaşadı. İnflyasiyanın artması tətil hərəkatının genişlənməsinə səbəb oldu. İqtisadi çətinliklər ölkədə siyasi vəziyyəti gərginləşdirmiş, inqilab təhlükəsi yaranmışdı. Orta təbəqə Rusiyada baş verən inqilabda olduğu kimi, kommunistlərin hakimiyyətə gəlməsindən qorxmağa başladı. İqtisadi tənəzzül, işsizlik və Paris sülh konfransında ərazi iddialarına tam nail olunmaması ölkədə millətçilik meyillərini gücləndirdi. Məhz bu amillər Avropada ilk **faşist*** hərəkatının 1919-cu ildə İtaliyada yaranmasına səbəb oldu.

★ *Faşizm* – termini italyan dilində döyüş dəstəsi mənasını verir.



İtaliyada faşizm



**Benito Mussolini**

Faşistlərin başçısı **Benito Mussolini** idi. Faşizm diktatorun rəhbərlik etdiyi güclü mərkəzi hökumətin zəruriliyini vurğulayaraq dövləti fərddən üstün tutur. Silahlı faşist dəstələri Sosialist partiyasının ofislərinə və qəzetlərinə hücum edirdilər. Onlar tətilləri dağıtmaq üçün də zorakılıq tətbiq edirdilər. Fəhlə tətillərindən qorxan sənayeçilər, iri torpaq sahibləri faşist hərəkatını dəstəkləməyə başladılar. Sosializm, kommunizm və xaos qorxusu faşistləri orta təbəqə üçün getdikcə daha cəlbedici edirdi. Bundan əlavə, Mussolini başa düşdü ki, xalq müharibədən sonra İtaliyanın daha çox ərazi ala bilməməsinə görə narazıdır. Bundan istifadə edərək millətçilik çağırışları ilə faşist təşkilatının tərəfdarlarını artırdı.

S

**Faşist hərəkatının sürətlə böyüməsi hansı səbəblərlə bağlı idi?**

1922-ci ildə faşistlər hakimiyyətin onlara verilməsi tələbi ilə Romaya yürüş elan etdilər. İtaliya kralı Mussolinini Baş nazir təyin etdi. Mussolini faşist diktaturası yaratmaq üçün tədbirlər gördü. Hökumətə və Baş nazirə qanun qəbul etmək, katolik kilsəsini, monarxiyanı və ya dövləti tənqid edən istənilən nəşrləri qadağan etmək ixtiyarı verildi.

Polis geniş səlahiyyətə malik idi. Demokratik azadlıqları tamamilə ləğv edən qanun qəbul olundu. Qeyri-məhdud **faşist diktaturası** yaradıldı. Başqa bütün siyasi partiyalar və təşkilatların fəaliyyəti qadağan edildi.

T

İtaliyada totalitar rejimin Almaniyadan daha tez yaranmasının səbəb və nəticələrini izah edin.

Faşist hökuməti İtaliya xalqı üzərində tam nəzarəti bərqərar etmək üçün müxtəlif vasitələrdən istifadə etdi. Mətbuat, mədəniyyət və digər bütün sahələr faşist dövlətinin nəzarətinə keçdi. Onlardan təbliğat aparmaq üçün istifadə olunurdu. Təbliğat ölkədə tək fikirli faşist cəmiyyəti qurmaq məqsədi daşıyırdı. İtalyan faşist təbliğatı, əsasən, "Mussolini həmişə haqlıdır" kimi şüarlardan ibarət idi. Faşizm ideyalarını təbliğ etmək və əhaliyə nəzarət etmək üçün müxtəlif təşkilatlar yaradılırdı. Məsələn, uşaq və gənclər təşkilatı onları nizam-intizamlı və müharibəsevər ruhda yetişdirmək məqsədilə yaradılmışdı. Faşistlər ailəni dövlətin sütunu, qadını isə ailənin



**İtaliyada uşaq və gənclərə faşizm ideyalarının təbliği**

Layihə

təməli kimi göstərirdilər. Mussoliniyə görə, evdarlıq və ana olmaq qadınların təbii və əsas missiyasıdır. Lakin Mussolini Hitler Almaniyasında və ya Stalinin SSRİ-də bərqərar etdiyi totalitar nəzarətə nail ola bilmədi. Bəzi qurumlar, o cümlədən silahlı qüvvələr faşist dövlətinin tam nəzarətinə keçmədi. Kral hakimiyyəti saxlanıldı.

1929-cu ildə Mussolini rejimi Vatikanda Papanın hakimiyyətini tanıdı. Mussolini rejimi kilsəyə böyük miqdarda pul ayırdı və katolikliyi "dövlətin yeganə dini" kimi tanıdı. Bunun müqabilində katolik kilsəsi italyanları faşist rejimini dəstəkləməyə çağırdı.

Almaniyada olduğu kimi, İtaliyada da yəhudilərə qarşı antisemitizm siyasəti həyata keçirilirdi. Onlara sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq, ali təhsil almaq və dövlət məmuru olmaq qadağan edilmişdi.



# Faşistlərin iqtisadi siyasəti

Böyük böhran dövründə iqtisadiyyatın bütün sahələrində dövlət korporasiyaları yaradıldı. Korporasiyaların yaradılmasında məqsəd dövlət tərəfindən iqtisadi sahələri əlaqələndirmək və sosial ziddiyyətləri aradan qaldırmaq idi. 1930-cu illərdə həyata keçirilən iqtisadi siyasətin məqsədi bu sahədə özünü təmin edən və xarici ölkələrdən asılı olmayan sistem yaratmaq idi. Ona görə də xammal ehtiyaclarını təmin etmək üçün işğalçı siyasət yeridilirdi.

# Faşistlərin xarici siyasəti

Mussolini Roma imperiyasını bərpa etmək istəyirdi. Hələ hərbi cəhətdən zəif olduğu üçün əvvəlcə işğal hədəfi olaraq Afrikada Efiopiya seçildi. 1935–1936-cı ildə bu ölkə işğal edildi. İşğalçı siyasət İtaliyanı Almaniya ilə yaxınlaşdırdı. Tezliklə onlar arasında hərbi-siyasi ittifaq yarandı.



**T** Almaniyada nasist və İtaliyada faşist hakimiyyətini müqayisə edin.

| Almaniya nasist hakimiyyəti | | İtaliyada faşist hakimiyyəti |
|---|---|---|
| Fərqli cəhətlər | Oxşar cəhətlər | Fərqli cəhətlər |
| | | |



Lahiyə

12

# SOVET SOSİALİST RESPUBLİKALARI İTTİFAQI

"hərbi kommunizm", SSRİ, sosialist yenidənqurmaları, repressiyalar, "Molotov-Ribbentrop Paktı"

## Sovet Rusiyası

1917-ci ilin fevralında Rusiyada baş verən inqilab nəticəsində monarxiya devrildi, Romanovların hakimiyyətinə son qoyuldu. Ölkəni idarə etmək üçün **Müvəqqəti Hökumət** yaradıldı. Bununla yanaşı, Fəhlə və Əsgər Deputatları Sovetlərinin təşkil olunması ikihakimiyyətliliyə səbəb oldu. Müvəqqəti Hökumətin əsas dayağı burjuaziya və mülkədarlardan, sovetlərin sosial bazası isə fəhlə və kəndlilərdən ibarət idi. Müvəqqəti hökumətin aydın hərəkət proqramının olmaması, müharibənin davam etdirilməsi və sovetlərlə olan çəkişmələr xalq kütləsinin narazılığına səbəb olurdu. Bundan istifadə edən bolşeviklər xalqı öz tərəflərinə çəkmək üçün torpağın kəndlilərə paylanması və Rusiyanı müharibədən çıxarmaq vədləri ilə çıxış edirdilər.



**V.Lenin**

S **Müvəqqəti hökumətin devrilməsinə səbəb olan amillər hansılardır?**

T Qırmızı terrorun dəhşətlərini çar II Nikolayın ailəsinin qətlə yetirilməsi nümunəsində müzakirə edin.

1917-ci ilin oktyabrında çevriliş edən bolşeviklər hakimiyyəti ələ keçirdilər. Rusiyada Sovet hökuməti quruldu. V.Lenin Xalq Komissarları Sovetinin sədri vəzifəsini tutdu.

Müəssislər Məclisinin qovulması, Brest-Litobsk müqaviləsinin imzalanması və bolşeviklərin daxili siyasəti müxtəlif siyasi qüvvələr tərəfindən narazılıqla qarşılandı. Ölkəni vətəndaş müharibəsi bürüdü. Bolşeviklər ("qırmızılar") onların əleyhinə çıxan qüvvələrə ("ağlar") qarşı qırmızı terror siyasəti həyata keçirirdi. V.Leninin göstərişi ilə ailə üzvləri ilə birlikdə güllələnən II Nikolay bu terror siyasətinin ilk qurbanlarından oldu.

Vətəndaş müharibəsi siyasi, iqtisadi və sosial vəziyyətin kəskinləşməsi ilə nəticələndi. Müharibə səbəbindən onsuz da ağır vəziyyətə düşmüş ölkədə öz hakimiyyətlərini möhkəmləndirməyə çalışan bolşeviklər sərt tədbirlər həyata keçirdilər. **Hərbi kommunizm siyasətinin**★ tətbiq olunması bolşeviklərin qələbə qazanmasında mühüm rol oynadı.

★ *Hərbi kommunizm siyasəti* – sovet Rusiyasında vətəndaş müharibəsi dövründə həyata keçirilən daxili siyasətdir.



Layihə

**HƏRBİ KOMMUNİZM SİYASƏTİNƏ DAXİL İDİ:**

- **Bütün istehsal sahələrinin dövlətin əlində mərkəzləşdirilməsi**
- **İstehsal və bölgü üzərində dövlət nəzarətinin qoyulması**
- **Kənd təsərrüfatı məhsullarına sərt vergi tətbiq edilməsi**
- **Kəndlilərə ərzaq sapalağının* tətbiq edilməsi**

*Ərzaq sapalağı* – kəndlinin artıq məhsulunu aşağı qiymətə dövlətə satmağa məcbur edilməsidir.

S

**Sizcə, Hərbi kommunizm siyasəti iqtisadi inkişafa səbəb ola bilərdimi?**

Vətəndaş müharibəsindən sonra bolşevik hökuməti siyasi narazılıqların qarşısını almaq və iqtisadi geriliyi aradan qaldırmaq məqsədilə 1921-ci ildə **Yeni İqtisadi Siyasətə** (YİS) keçdi. YİS-in tətbiq olunması nəticəsində iqtisadi inkişaf baş verdi.

**YENİ İQTİSADİ SİYASƏTƏ DAXİL İDİ:**

- **Ərzaq sapalağının ərzaq vergisi ilə əvəz olunması**
- **Ticarət azadlığının tətbiq olunması**
- **Kəndliyə artıq məhsulu bazarda satmağa icazə verilməsi**

T

Hərbi kommunizm və Yeni İqtisadi Siyasəti müqayisə edin.

# SSRİ-nin yaradılması

1921-ci ilə kimi bolşeviklər keçmiş Rusiya imperiyası ərazisinin əksər hissəsində hakimiyyəti ələ keçirdi. Bundan əlavə, Qırmızı ordu hissələri Cənubi Qafqaz respublikalarını – Azərbaycan, Ermənistan və Gürcüstanı işğal edərək onları Sovet Sosialist Respublikasına çevirdi. 1922-ci ildə bu respublikalar federativ dövlətdə (**ZSFSR**) birləşdirildi.

Sovet Rusiyasının (**RSFSR**) sosialist respublikalardan ibarət ittifaq dövləti yaratmaq planı 1922-ci ilin dekabrında çağırılan I Sovetlər qurultayında həyata keçdi. RSFSR, Ukrayna SSR, Belarusiya SSR və ZSFSR-dən ibarət **Sovet Sosialist Respublikaları İttifaqı (SSRİ)** yaradıldı. 1924-cü ildə SSRİ-nin ilk konstitusiyası qəbul olundu. SSRİ-nin ilk rəhbəri V.Lenin vəfat etdikdən sonra onu İ.Stalin əvəz etdi (1924–1953). Ölkədə bütün hakimiyyət bolşevik (kommunist) partiyasına məxsus idi.

S

**SSRİ-nin təşkil olunması hansı zərurətdən irəli gəlirdi?**





Dnepr SES-in tikintisi

# Sosialist yenidənqurmaları

1920-ci illərin ikinci yarısı –1930-cu illərdə SSRİ-də ölkənin sosialistcəsinə yenidənqurulması siyasəti həyata keçirildi. Sənayeləşdirmə xətti bu sahədə ilk addım oldu. Əvvəlki sənaye sahələrinin bərpa edilməsi, beşillik planların tətbiq olunması, yeni fabrik və zavodların istifadəyə verilməsi nəticəsində SSRİ güclü sənaye ölkəsinə çevrildi.

Sosializm quruculuğunun ən faciəli tədbiri kənd təsərrüfatının kollektivləşdirilməsi oldu. Buna görə fərdi kəndli təsərrüfatları ləğv olunaraq **kolxoz**★ və **sovxozlarda**★ birləşdirilməli idi. Böyük narazılıqla qarşılanan bu siyasət qolçomaqların ləğvinə yönəlmişdi. Etiraz edənlər həbs düşərgələrinə salınır və ya sürgünə göndərilirdi. Kollektivləşmə nəticəsində kəndlilər cəmiyyətin hüquqsuz bir təbəqəsi oldular. 1932-ci ildə ölkə əhalisinə pasport verilməsi zamanı kəndlilər nəzərə alınmadı. Pasportu olmayan kəndli yaşayış yerini tərk edə bilməzdi.

T

Kolxozçu kəndli ilə çar Rusiyası dövrünün təhkimli kəndlisini müqayisə edin və oxşar cəhətlərini müəyyənləşdirin.

Mədəniyyət sahəsində sosializm quruculuğunun aparılması da dövrün vacib problemi kimi qarşıda dururdu. Əsas diqqət bolşevik ideologiyasına uyğun mədəniyyətin qurulmasına yönəldildi. Təhsil əsas ideoloji təbliğat sahəsinə çevrildi. Ədəbiyyatda sosializm quruculuğunu tərənnüm edən əsərlər meydana gəldi. Rejimə istənilən səviyyədə "sədaqət" nümayiş etdirməyən ziyalılar təqib olunmağa başlandı.

Sosialist yenidənqurmalarının nəticəsində cəmiyyətin sosial tərkibi dəyişdi. Fəhlələr, kolxozçu kəndlilər, qulluqçular və ziyalılardan ibarət olan sosial təbəqələr formalaşdı. Sosializm quruculuğunun iqtisadi və sosial tərəfləri ilə yanaşı, siyasi nəticəsi də oldu. Ölkədə **totalitar rejim**★ bərqərar oldu. Bütün hakimiyyət Kommunist Partiyası rəhbərliyinin əlində cəmləşdi. Bütün bunlar "qalib gəlmiş sosializmin konstitusiyası"nda təsbit olundu. 1936-cı ildə qəbul olunan konstitusiya vətəndaşlara bir sıra hüquq və azadlıqlar versə də, əslində, partiya mənafeyi baxımından hazırlanmışdı.

★ *Totalitar rejim* – siyasi hakimiyyət forması, ictimai həyatın bütün sahələrinin sərt dövlət nəzarətinə tabe edilməsidir.

T

Sosialist yenidənqurmalarının nəticələri ilə bağlı cədvəli doldurun.



| SOSİALİST YENİDƏNQURMALARININ NƏTİCƏLƏRİ | | | |
|---|---|---|---|
| İQTİSADİ | SOSİAL | MƏDƏNİ | MƏDƏNİ |
| | | | |

# Kütləvi repressiyalar

XX yüzilliyin 30-cu illərində SSRİ-də mövcud olan totalitar rejimin əsas əlamətlərindən biri inzibati-amirlik sistemi idi. Bu dövrdə bütün məsələlər qanunla deyil, əmr və sərəncamlar vasitəsilə həll olunurdu. "Şəxsiyyətə pərəstiş"in tüğyan etdiyi cəmiyyətdə qorxu və yaltaqlıq hökm sürürdü. Partiya və dövlətin tarixində Stalinin xüsusi rol oynaması ideyası fəal şəkildə təbliğ olunurdu. SSRİ-də totalitar quruluşun əsaslarının möhkəmləndirilməsinə yönəldilmiş nəhəng repressiv cəza aparatı yaradılmışdı. Sosializm quruculuğunun həyata keçirilməsi və sovet cəmiyyətinin formalaşdırılması kütləvi siyasi repressiyalarla müşayiət olunurdu. Həbs düşərgələrinə göndərilənlərin, ölümə məhkum olunanların və sürgün edilənlərin ümumi sayı 20 milyon nəfərə çatırdı. Şəxsiyyətə pərəstiş, repressiyalara haqq qazandırılması, casus və "**xalq düşməni**" axtarışı sovet təbliğatının başlıca istiqamətlərini təşkil edirdi. Cəmiyyətdə vahid düşüncə yaratmaq Kommunist Partiyasının ideoloji siyasətinin əsas məqsədinə çevrilmişdi.

T Siyasi repressiyaların keçirilməsini totalitar rejimlə əlaqələndirin.



İ.Stalin

# Xarici siyasət

1920-ci illərin əvvəllərində dünyada baş verən əsas siyasi hadisələrdən kənarda qalan sovet Rusiyası ilk olaraq qonşu dövlətlərlə diplomatik əlaqələrin qurulmasına çalışırdı. 1921-ci ildə İran, Əfqanıstan və Türkiyə hökumətləri ilə müqavilələr imzalandı. Böyük Britaniya ilə ticarət müqaviləsi bağlandı. 1922-ci ildə iqtisadi məsələləri həll etmək məqsədilə keçirilən **Genuya konfransına** sovet Rusiyası da dəvət olundu. Burada Antanta dövlətləri ilə razılığa gəlmək mümkün olmadığı üçün konfrans nəticəsiz oldu. Əvəzində sovet Rusiyası Almaniya ilə **Rapallo sazişi** imzalayaraq iqtisadi blokadadan çıxdı.

Sovet dövləti ilə kapitalist ölkələri arasında diplomatik münasibətlərin olmaması onların qarşılıqlı surətdə faydalı əməkdaşlığına mane olurdu. 1920-ci illərin ortalarında bu məsələ uğurla həll edildi. Bir çox dövlətlər SSRİ ilə diplomatik əlaqələr yaradaraq onu hüquqi cəhətdən tanıdı.

S **Sovet Rusiyası ilə Almaniyanın yaxınlaşmasına səbəb nə idi?**

Böyük böhran dünya dövlətləri arasında ziddiyyətləri kəskinləşdirdi. Bu dövrdə SSRİ-nin yeritdiyi aktiv xarici siyasət ABŞ ilə münasibətlərin yaranmasına səbəb oldu. 1934-cü ildə SSRİ Millətlər Cəmiyyətinə qəbul olundu. Faşist ideologiyasına mənsub dövlətlərin təcavüzkarlığının artması SSRİ-ni Avropada kollektiv təhlükəsizlik sistemi yaradılması təşəbbüsü ilə çıxış etməyə vadar etdi. Avropa dövlətlərinin bu məsələyə ciddi yanaşmaması SSRİ ilə Almaniyanın yaxınlaşmasına səbəb oldu. 1939-cu ilin avqustunda bu iki dövlət arasında bir-birinə hücum etməmək haqqında **"Molotov-Ribbentrop paktı"** imzalandı. Gizli protokola əsasən Şərqi Avropa nüfuz dairələrinə bölündü. Əslində, SSRİ Polşanın bölüşdürülməsinə razılıq verməklə İkinci dünya müharibəsinin başlanmasına şərait yaratdı.

Uzaq Şərqdə Yaponiyanın təcavüzkarlığı artmaqda davam edirdi. Xalxin Qol yaxınlığında yaponları darmadağın edən sovet ordusu onları Monqolustandan çıxartdı. Bununla da şərq sərhədlərinin təhlükəsizliyini təmin edən SSRİ əsas diqqətini Qərbə yönəltdi.

T Almaniya ilə SSRİ-nin xarici siyasətindəki oxşar cəhətləri müəyyən edin.

Layihə

# 13 TÜRK DÜNYASI VƏ İRAN

Mustafa Kamal, Sakarya döyüşü, Lozanna müqaviləsi, İslahatlar, Pəhləvi sülaləsi, Mudros barışığı

## TÜRKİYƏ

Birinci dünya müharibəsində məğlub olan Osmanlı dövləti 1918-ci ilin oktyabrında Mudros limanında təslim olmaq haqqında müqavilə bağladı. Osmanlı dövlətinin ərazisi Antanta qüvvələri tərəfindən işğal edildi. Paytaxt İstanbulda işğal idarəsi quruldu, əhali azaldı və yoxsullaşdı. (bunların səbəbi nədir) Lakin türk xalqı işğalı qəbul etmədi və müqavimət hərəkatına başladı. 1919-cu ildə sultan Anadoluda işğalçı qüvvələrə qarşı müqavimət hərəkatını yatırmaq, Mudros barışığına əsasən Osmanlı qoşununun tərksilah edilməsinə nəzarət etmək üçün Çanaqqala döyüşlərinin qəhrəmanı olan **Mustafa Kamal paşanı** bölgəyə göndərdi. Lakin Mustafa Kamal Anadoluya gəlib bu tapşırığa qarşı çıxaraq istiqlal hərəkatına başçılıq etdi. Qurtuluş hərəkatının bir mərkəzdən idarə edilməsi məqsədilə Sivasda Milli Konqres çağrılması qərara alındı. Sultan hökuməti konqresə mane olmaq istəsə də, xalqın və ordunun Mustafa Kamalın tərəfində olması nəticəsində bu, baş tutmadı. Sivas konqresində ərazi bütövlüyünün və milli müstəqilliyin qorunması uğrunda silahlı mübarizə aparılması qərara alındı.

1920-ci ilin aprelində **Ankarada Türkiyə Böyük Millət Məclisi** açıldı. Mustafa Kamal onun sədri seçildi. TBMM ölkəni azad etmək üçün ayağa qalxmış sosial qrupları təmsil edirdi. Ölkənin siyasi gələcəyi üçün fərqli baxışlara malik olsa da, onları Türkiyənin azadlığı birləşdirirdi. 1920-ci ilin avqustunda sultan hökuməti Antanta dövlətləri ilə **Sevr müqaviləsi** imzaladı. Müqavilədə Osmanlı dövlətinin əraziləri İngiltərə, Fransa, Yunanıstan və İtaliya arasında bölüşdürülürdü. Həmçinin onun ərazisində Ermənistan və Kürdistan dövlətləri yaradılmalı idi. Lakin TBMM hökuməti bu müqaviləni qəbul etmədi və onu imzalayan sultan hökumətini vətən xaini elan etdi.

Vətəni müdafiə uğrunda vuruşan türk milli qüvvələri ilk qələbəsini şərq cəbhəsində qazandı. Antanta tərəfindən silahlandırılan erməni qoşunu türk ordusu tərəfindən məğlub edildi. Daşnak erməni dövləti 1920-ci ilin dekabrında təslim oldu və **Gümrü müqaviləsini** imzalamağa məcbur oldu. Erməni hökuməti Anadoluya ərazi iddialarından əl çəkdi.






1921-ci ildə Sakarya döyüşündə yunan ordusu məğlubiyyətə uğradıldı. Yaralanmasına baxmayaraq, sona qədər döyüş meydanını tərk etməyən **Mustafa Kamala marşal rütbəsi və qazi adı verildi**. 1922-ci ilin avqustunda Mustafa Kamalın komandanlığı ilə türk ordusunun böyük əks-hücumu nəticəsində Anadolu tamamilə azad edildi.

M

Xətti müdafiə yoxdur, səthi müdafiə vardır. Bu səth bütün vətəndir. Vətənin hər qarış torpağı vətəndaşın qanı ilə islanmadıqca tərk edilməz. Bütün hərbi birliklər dayandıqları mövqelərdə döyüşü davam etdirməlidir. Bu mövqedə sonuna qədər dayanmağa məcburdur.

*(Mustafa Kamalın Sakarya döyüşü zamanı əmri)*

S

**Mustafa Kamalın döyüş əmrini necə dəyərləndirirsiniz?**

1923-cü ildə **Lozanna sülh müqaviləsi** ilə Türkiyənin müstəqilliyi və ərazi bütövlüyü tanındı. Beləliklə, Türkiyə Birinci dünya müharibəsində məğlub olmuş dövlətlər içərisində yeganə olaraq qaliblərin diktə etdiyi müqaviləni qəbul etmədi. Qurtuluş hərəkatı nəticəsində ədalətsiz və təslimçi Sevr müqaviləsi qüvvədən düşdü.

S

**Kapitulyasiya hüququ nə idi, bu, ölkənin iqtisadi vəziyyətinə necə təsir göstərirdi?**

T

Sevr və Lozanna sülh müqavilələrini müqayisə edin.

S

**Lozanna sülh müqaviləsinin türk xalqı üçün əhəmiyyətini dəyərləndirin.**

Layihə

Türk milli qurtuluş hərəkatında qadınlar və uşaqlar da fəal iştirak etmişdilər. Qəhrəman türk qadınlardan biri də Şərifə bacı olmuşdur. O, soyuq və şaxtalı bir qış günü araba ilə döyüşçülərə mərmi daşıyarkən körpə uşağını mərmilərin arasına qoymuş, övladının və mərmilərin üzərini yorğanla örtmüşdü. Çünki körpəni donmaqdan, mərmiləri isə islanmaqdan qorumaq lazım idi. Döyüş mövqeyinə az qalmış qadın şaxtadan donmuşdu. Qəhrəman türk qadını şəhid olsa da, övladını xilas etmiş və mərmiləri döyüçülərə çatdıra bilmişdi.



Şərifə bacı abidəsi. Taşoluk köyü, Türkiyə



Atatürk

# Mustafa Kamalın islahatları

Qurtuluş hərəkatında qalib gəldikdən sonra ölkənin ağır siyasi-iqtisadi və sosial vəziyyətini aradan qaldırmaq zərurəti yaranmışdı. Bunun üçün islahatlar keçirildi.

Ordumuzun indiyə qədər əldə etdiyi qələbələr məmləkətimizi hələ əsl qələbəyə çatdıra bilməz. Bu qələbələr ancaq gələcək zəfərimiz üçün zəmin hazırlamışdır. Hərbi qələbələrimizlə məğrur olmayaq. Yeni elm və inkişaf qələbələrinə hazırlaşaq. *(M.K.Atatürkün milli təhsillə bağlı nitqləri, Bernard Luis, Modern Türkiyənin doğulması)*

İlk islahatlar siyasi sahədə həyata keçirildi. 1922-ci ildə TBMM-in qərarı ilə sultan hakimiyyətinin ləğv edilməsi nəticəsində Osmanlı dövlətinin varlığına son qoyuldu. 1923-cü ildə Türkiyə respublika elan edildi. Uzun müzakirələrdən sonra 1924-cü ildə Xilafət də ləğv edildi. Hüquq sahəsində də islahatlar keçirildi. Konstitusiya qəbul edildi. Xalq hakimiyyətin mənbəyi elan olundu. Qadınlar kişilərlə bərabər hüquqlu elan edildi. Şəriət məhkəməsi ləğv olundu. Mədəniyyət sahəsində də əsaslı islahatlar keçirildi. Ərəb əlifbası əvəzinə latın əlifbası qəbul edildi. Bu dəyişiklikdə sovet Azərbaycanında latın əlifbasına keçilməsinə hazırlıq da mühüm rol oynadı.



# İqtisadi siyasət

Lozanna konfransında əcnəbilərə iqtisadi sahədə imtiyazlar verən kapitulyasiyaların aradan qaldırılmasına nail olundu. İqtisadi sahədə əsas məqsəd sənayeləşmə və özünü təmin edən iqtisadiyyat qurmaq idi. Osmanlı dövründə tikilən dəmir yolları xarici sahiblərindən alınaraq milliləşdirildi və yeni yollar inşa edildi. Özəl sektora dəstək vermək üçün xüsusi bank yaradıldı. **Aşar (onda bir) vergisinin** ləğv edilməsi kənd təsərrüfatının inkişafına təsir göstərdi.

1929-cu il dünya iqtisadi böhranı ölkənin əsas ixrac məhsulu olan kənd təsərrüfatı məhsullarının qiymətlərinin düşməsinə səbəb oldu. Bu isə dövlətin gəlirlərini azaltdı və iqtisadi böhranla nəticələndi. Böhrandan çıxmaq üçün yaranmaqda olan milli sənayenin himayə edilməsi məqsədilə tədbirlər görüldü. Yerli sənayenin xaricdən gətirilən malların rəqabətindən qorunması üçün gömrük rüsumları artırıldı. Beləliklə, Türkiyədə böhranı dövlətin iqtisadiyyata nəzarətinin artırılması ilə aradan qaldırmaq siyasəti həyata keçirildi. **Dövlət kapitalizmi** adlanan bu siyasətə əsasən beşillik plan tətbiq edildi. Planın əsas məqsədi milli sənayenin inkişaf etdirilməsi idi.

**T** 1929-cu il dünya iqtisadi böhranından çıxmaq üçün Türkiyənin siyasətinin digər ölkələrlə oxşar və fərqli cəhətlərini təhlil edin.

**T** 1920-30-cu illərdə Türkiyədə həyata keçirilən islahatlara aid cədvəl tərtib edin.

Türkiyə iqtisadiyyatı dünya böhranından çox təsirlənmədən çıxa bildi. 1930-cu illərdə iqtisadiyyatın bərpası davam etdi və gəlirlər artdı. Ölkə əhalisinin, xüsusən də kənd əhalisinin artması sayəsində kənd təsərrüfatı inkişaf etdi. Ölkə buğda istehsalı ilə özünü təmin etdi və hətta ixrac etməyə başladı.

# Atatürkdən sonra

Türkiyə Böyük Millət Məclisi Mustafa Kamala **Atatürk** ləqəbini vermişdi. 1938-ci ildə Atatürk vəfat etdi. Milli qurtuluş hərəkatının qəhrəmanlarından biri **İsmət İnönü** prezident seçildi. Bu dövrdə dünya yeni müharibə astanasında idi. Türkiyə rəhbərliyi xarici siyasətdə Atatürkün *"Yurdda sülh, cahanda sülh"* prinsipinə uyğun olaraq bitərəflilik siyasəti yürüdürdü.

**S** **İkinci dünya müharibəsi ərəfəsində Türkiyə rəhbərliyinin bitərəflilik siyasətini necə dəyərləndirirsiniz?**

**T** Türkiyənin 1920-30-cu illər tarixi ilə bağlı zaman oxu tərtib edin.

Layihə

# MƏRKƏZİ ASİYA VƏ QAZAXISTAN

Birinci dünya müharibəsi Rusiyanın türk xalqları yaşayan bölgələrində sosial-iqtisadi ziddiyyətləri kəskinləşdirdi. Türk xalqlarının müstəmləkə əsarətinə qarşı mübarizəsi gücləndi. 1916-cı ildə Türküstanda (Mərkəzi Asiya) çar zülmünə qarşı milli azadlıq uğrunda üsyanlar baş verdi. Yerli əhalinin arxa cəbhədə işləmək üçün səfərbərliyə alınması üsyanlara səbəb oldu. Özbək, türkmən və qırğızların iştirak etdiyi hərəkat zəif təşkil edildiyi, çıxışlar bir-biri ilə əlaqələndirilmədiyi üçün məğlub oldu. Fevral inqilabından sonra Mərkəzi Asiya və Qazaxıstanda milli hökumətlər təşkil edildi. Lakin 1918–1920-ci illər ərzində sovet Rusiyası tərəfindən onlar işğal edildi. Buna baxmayaraq, bölgədə azadlıq hərəkatı davam etdi.

M

Sovet Rusiyası bölgədə möhkəmlənmək üçün Osmanlı imperiyasının keçmiş hərbi naziri Ənvər paşanın nüfuzundan istifadə etmək istəyirdi. Ənvər paşa da bundan özünün Turan ideyasını həyata keçirmək üçün istifadə etməyi qərara aldı. O, 1921-ci ildə sovet Rusiyasına qarşı basmaçılar hərəkatına qoşularaq onun rəhbərlərindən birinə çevrildi. Nəticədə hərəkat genişləndi. Lakin 1922-ci ildə milliyyətcə erməni komandirin başçılıq etdiyi bolşevik qoşunu ilə qeyri-bərabər döyüşdə Ənvər paşa qəhrəmancasına həlak oldu.

T

Əlavə mənbələr əsasında araşdırma apararaq Ənvər paşanın Turan ideyasını dəyərləndirin.

1924-cü ildə **Özbəkistan SSR** və **Türkmənistan SSR** təşkil edildi. 1936-cı ildə isə Qırğızıstan və Qazaxıstan Muxtar Sovet Sosialist respublikaları RSFSR-in tərkibindən çıxarılaraq birbaşa SSRİ-nin tərkibinə daxil edildi.

1920-ci illərin sonlarından kənd təsərrüfatında aparılan kollektivləşmə siyasəti Mərkəzi Asiyada da zorakılıq və repressiya şəraitində həyata keçirildi. Yerli şəraitin nəzərə alınmaması Qazaxıstanda böyük aclığa səbəb oldu.

# KRIM VƏ VOLQABOYUNUN TÜRK XALQLARI

Fevral inqilabından sonra Krım və Volqaboyunun türk xalqları arasında da milli azadlıq hərəkatı canlanmışdı. Krım tatarları və Volqaboyu türk xalqları milli hökumətlər təşkil etmişdilər. Lakin hər iki bölgənin vətəndaş müharibəsi meydanına çevrilməsi vəziyyəti mürəkkəbləşdirirdi. Nəticədə 1920-ci ildə sovet Rusiyası tərəfindən Krım və Volqaboyu işğal edildi.



## İRAN

Birinci dünya müharibəsində Qacarlar dövləti öz bitərəfliyini elan etsə də, onun ərazisi Rusiya, İngiltərə və Osmanlı imperiyalarının müharibə, qarşıdurma meydanına çevrildi. Bu isə ölkədə siyasi, iqtisadi və sosial böhranı gücləndirdi. 1917-ci il inqilabından sonra rus qoşunu ölkəni tərk etdi. 1919-cu ildə İngiltərə ilə bağlanan müqavilənin nəticəsində ölkə ingilislərin təsiri altına düşürdü. Lakin müqavilə ölkədə etiraz hərəkatına səbəb olduğu üçün təsdiq edilmədi. Hərəkat Cənubi Azərbaycanda demokratik mübarizə səciyyəsi daşıyırdı. Ölkədə xaosun artması və sovet Rusiyasının bölgədə fəallaşması İngiltərənin maraqlarına zidd idi. Ona görə də general Rza xanı 1921-ci ildə hərbi çevriliş etməyə təşviq etdilər. 1925-ci ildə Qacarlar sülaləsi devrildi və respublika qurulması vədi ilə hakimiyyətə gələn **Rza xan** özünün şah elan edilməsinə nail oldu. O, qədim fars dilinin adına uyğun olaraq öz sülaləsini **Pəhləvi** adlandırdı.

Rza şah Pəhləvi Türkiyədə M.K.Atatürkü nümunə götürərək modernləşmə və qərbləşmə siyasəti əsasında bir sıra islahatlar həyata keçirdi. O, ilk növbədə, mərkəzləşdirmə siyasəti yürüdərək nizami ordu və rejimi dəstəkləyən bürokratiya qura bildi. İdarəetməni, ordunu, bürokratiyanı, vergi və hüquq sistemini Avropa üslubunda modernləşdirdi. İslahatlarının mərkəzində ordunun gücləndirilməsi dayanırdı. Bu səbəbdən büdcənin əhəmiyyətli hissəsini bu sahəyə ayırdı. Məcburi hərbi xidmət tətbiq edildi. Neft gəlirlərinin artırılması Rza şahın islahatları və İran iqtisadiyyatı üçün əsas mənbə idi. Bir çox sahələrdə dövlət inhisarları yarandı. Yerli istehsalın artırılması məqsədilə gömrük rüsumları artırıldı. Qacarlar dövründə xarici dövlətlərin əldə etdikləri bəzi iqtisadi imtiyazlar (kapitulyasiyalar) ləğv edildi və onların əlində olan sahələr milliləşdirildi. Avropa tipli təhsil sisteminin yaradılması təşviq edildi. Avropa tipli geyimlərin məcburi olduğu yeni geyim forması qəbul edildi və qadınlara ictimai yerlərdə örtünmək qadağan olundu. Lakin Türkiyədən fərqli olaraq, qadınlara seçki hüququ verilmədi. **Avtokratik**★ idarəetmənin mövcud olduğu bu dövrdə siyasi və ictimai təşkilatlar, mətbuat üzərində sərt nəzarət quruldu. Məclis yalnız şahın əmrlərini təsdiq edən formal quruma çevrildi. Konstitusiya saxlansa da, nəzərə alınmırdı. Xalqın həyatının bütün sahələrinə birbaşa müdaxilə edilirdi. Lakin xalqın rifahının yaxşılaşdırılması ilə bağlı tədbir görülmürdü.

★ *Avtokratiya* – hakimiyyətin bir şəxsin əlində cəmləşdiyi idarəetmə sistemidir.

Ölkədə yaşayan müxtəlif xalqların, xüsusilə Cənubi Azərbaycanlıların öz dillərindən istifadə etməsi qadağan edilir, farslaşdırma siyasəti yürüdülürdü. 1935-cü ildə ölkə rəsmən **İran** adlandırıldı. İslahatların gedişində Rza şah təsirini azaltmaq istədiyi dindən və ruhanilərdən də istifadə etdi. Digər tərəfdən, xüsusilə hüquq və təhsil sahələrində aparılan islahatlar ruhanilərin vəziyyətinin sarsılmasına səbəb oldu. Şəriət məhkəməsi yalnız ailə-nikah məsələləri ilə məhdudlaşdırıldı. Atatürkdən fərqli olaraq, Rza şahın modernləşdirmə siyasəti sistemli və ardıcıl deyildi. Geniş torpaqlar ələ keçirən Rza şah dünyanın ən varlı insanlarından biri oldu. Diktatura və zülmün hökmranlığı altında boğulan xalq şahı yalnız özünü və ətrafını zənginləşdirən despot kimi görürdü.

Rza şah müasirləşmə səylərini yaxından izlədiyi Türkiyəyə dostluq səfəri etmişdi. Bu prosesin davamı olaraq 1937-ci ildə Türkiyə, İran, İraq və Əfqanıstanın iştirakı ilə bitərəflilik haqqında **Sədabad paktı** imzalandı. Bu, regionda sülhün möhkəmlənməsinə mühüm təsir göstərdi. İran nefti üzərində İngiltərənin üstünlüyünü azaltmaq üçün Rza şah Pəhləvi nasist Almaniyasına yaxınlaşdı.

**T** M.K.Atatürkün və Rza şah Pəhləvinin islahatlarını müqayisə edin.

| M.K. Atatürkün islahatları | | Rza şah Pəhləvinin islahatları |
|---|---|---|
| Fərqli cəhətlər | Oxşar cəhətlər | Fərqli cəhətlər |
| | | |

Layihə

# 14 HİNDİSTAN, ÇİN VƏ YAPONİYA

Mahatma Qandi, "Kölәlik konstitusiyası", "Duz yürüşü", Mao Tszedun, Mançjou-Qo

## HİNDİSTAN

Birinci dünya müharibəsindən sonra İngiltərənin Hindistanda müstəmləkə rejimini möhkəmləndirmək məqsədilə həyata keçirdiyi tədbirlər kütləvi nümayişlərə səbəb oldu. 1919-cu ildə "Hindistanın idarəsi haqqında" qanunun qəbul edilməsi milli azadlıq hərəkatına təkan verdi. və milli müstəqilliyin qorunması uğrunda silahlı mübarizə aparılması qərara alındı.

### Zülmə qarşı itaətsizlik

Hindistan Milli Konqresinə (HMK) başçılıq edən və "Xalqın atası" adlandırılan Mohandas Karamçand Qandi (**Mahatma**★ Qandi) Hindistana özünüidarə hüququ verilməsi şüarını irəli sürərək vətəndaş itaətsizliyi hərəkatına başladı. Nəticədə, ölkə ərazisində qatarların hərəkəti dayandırıldı, ingilis məhsulları boykot edildi və fəhlə tətilləri başlandı. Lakin hərəkatın rəhbər üzvləri arasında birliyin olmamasından istifadə edən ingilislər onu qəddarlıqla yatırdılar.

★ *Mahatma* – qədim hind dilində "ulu ruh" deməkdir. Bu adı M.K.Qandiyə tanınmış hind yazıçısı və şairi Rabindranat Taqor vermişdir.

T Hindistanda vətəndaş itaətsizliyi hərəkatının səbəblərini müəyyən edin.

Hind xalqı 1928-ci ildə lord Saymonun başçılığı ilə hazırlanmış yeni konstitusiya layihəsini etirazla qarşıladı. 1930-cu ildə HMK-nın qərarı ilə yeni vətəndaş itaətsizliyi hərəkatı başladı. 1930-cu il yanvarın



Mohandas Qandi Hindistan Milli Konqresinin könüllüləri ilə "Duz yürüşü"ndə



Livro



**Hindistanda vətəndaş itaətsizliyi kampaniyası**

26-sı Hindistanın İstiqlaliyyət Günü elan edildi. Duz hasilatı və satışının müstəmləkəçilərin inhisarında olması və duzun çox baha qiymətə satılması 1930-cu ilin martında "Duz yürüşü"nün başlanmasına səbəb oldu. Ölkənin hər yerində əsarətə qarşı qeyri-zorakı müqavimət hərəkatı davam edirdi. Pişəvər bölgəsində üsyan nəticəsində yüzlərlə insan ingilislər tərəfindən qətlə yetirildi və repressiyalara məruz qaldı.

**T** Cənubi Azərbaycanda Məşrutə inqilabı ilə Hindistanda vətəndaş itaətsizliyi hərəkatını müqayisə edin.

## "Köləlik konstitusiyası"

1935-ci ildə ingilis parlamentinin təsdiq etdiyi yeni konstitusiyaya görə Hindistan Britaniya Hindistanı və knyazlıqlardan ibarət federasiya elan olundu, əhalinin çox az hissəsi seçki hüququ aldı. Bu konstitusiya müsəlman və qeyri-müsəlman hindlilər arasında ixtilafları gücləndirdiyi üçün milliazadlıq hərəkatına zərbə vurdu. Xalq arasında bu konstitusiya "Köləlik konstitusiyası" adlandırılırdı.

**S** **Hansı hadisə vətəndaş itaətsizliyi hərəkatına ağır zərbə vurdu?**

## ÇİN

Birinci dünya müharibəsinin yekunlarına həsr olunmuş Paris sülh konfransı Çin üçün uğurlu olmadı. Bu konfransda müstəmləkəçi dövlətlərin Çini nüfuz dairələrinə bölmək barədə razılığa gəlməsi, əsasən də ölkə ərazisindəki alman mülklərinin Yaponiyanın nüfuz dairəsinə keçməsi haqqında qərar qəbul edilməsi milli azadlıq hərəkatının başlanmasına təkan verdi. 1919-cu ildə Pekində tələbə nümayişi zamanı əsas tələblər Versal sülh müqaviləsini imzalamaqdan imtina və yapon mallarının boykot edilməsi idi. Tələbə nümayişinin bütün ölkəni əhatə edən inqilabi hərəkata çevrildiyini görən Çin hökuməti sülh müqaviləsini imzalamaqdan imtina edib, milli mənafeyə xəyanət edən bir neçə yaponpərəst naziri istefaya göndərdi.

**T** Rusiyada 1917-ci ildə baş vermiş Fevral inqilabı ilə Birinci dünya müharibəsindən sonra Çində mövcud olan oxşar hadisələri müəyyən edin.



Layihə




**Çində milli azadlıq hərəkatı**

Milli azaqlıq hərəkatına Sun Yatsenin rəhbəri olduğu Homindan Partiyası (Milli Partiya) başçılıq edirdi. Partiyanın əsas məqsədi ölkə ərazisini müstəmləkəçilərdən azad edib, müstəqil demokratik respublika yaratmaq idi. 1921-ci ildə Çinin cənubunda, Quançjouda toplanan parlamentin fövqəladə iclasında Sun Yatsen prezident seçilsə də, ölkənin şimalında hakim təbəqə olan hərbi-feodal qüvvələr onu tanımaqdan imtina etdilər. Sun Yatsenin sovet Rusiyasından fəal dəstək alması və Çin Kommunist Partiyasının (ÇKP) lideri Mao Tszedun ilə ittifaqa girməsi genişlənməkdə olan milli azadlıq hərəkatında inqilabi ordunun və qısa müddətli hökumətin yaradılmasına səbəb oldu. Bu, ölkə daxilində hərbi-siyasi ziddiyyətləri getdikcə dərinləşdirdi. Nəticədə, SSRİ və Qərb yönümlü qüvvələr formalaşdı. Milli azadlıq hərəkatı tədricən vətəndaş müharibəsi ilə əvəz olundu.

**S** **Çində milli azadlıq hərəkatının vətəndaş müharibəsinə çevrilməsinin səbəbi nə idi?**

1925-ci ildə Sun Yatsen Quançjouda homindançılardan və kommunistlərdən ibarət Çin Milli hökumətinin qurulduğunu elan etdi. Lakin onun ölümündən sonra Milli hökumətin baş komandanı Çan Kayşi çevriliş edərək hakimiyyətə gəldi. O, 1927-ci ildə paytaxtı Nankin olan yeni hökumət qurub, kommunistlərlə ittifaqı pozaraq Qərb meyilli siyasət yürütməyə başladı. Homindançılarla kommunistlər arasında baş verən vətəndaş müharibəsi yapon təcavüzkarlarının ölkəyə hücum etməsinə şərait yaratdı. 1936-cı ildə homindançılarla kommunistlər vahid antiyapon cəbhəsi yaratmaq barədə razılığa gəlib işğalçılara qarşı milli azadlıq hərəkatına başlasalar da, İkinci dünya müharibəsində Yaponiya məğlub edildikdən sonra vətəndaş müharibəsi yenidən başlandı.

**S** **Çində vətəndaş müharibəsinin gedişi zamanı homindançılarla kommunistlər arasında razılığın əldə edilməsi hansı hadisə ilə bağlı idi?**



**Çan Kayşi və Mao Tszedun**

## YAPONIYA

Birinci dünya müharibəsindən qalib dövlət kimi çıxmış Yaponiya Uzaq Şərqdə mövqeyini möhkəmləndirməyə başladı. 1923-cü ilin sentyabrında Yaponiya tarixində ən dəhşətli zəlzələlərdən biri baş verdi. "Böyük Kanto zəlzələsi" adı ilə tanınan bu təbii fəlakət nəticəsində ölkə ərazisində 150 min nəfərə yaxın insan həlak oldu. Yaponiya həm ölkə daxilindəki dağıntının fəsadlarını aradan qaldırmaq, həm də hərbi qüdrətini gücləndirmək üçün yeni iqtisadi resurslar axtarışında idi.

**T** Birinci dünya müharibəsinin Yaponiya üçün nəticələrini müəyyən edin.

1927-ci ildə imperator Şovanın hakimiyyətə gəlməsi ilə "Böyük Asiya" ideyası inkişaf etməyə başladı. Orduda millətçilik ideyaları təbliğ edilir, imperatorun rəğbətini qazanan ali hərbi vəzifəli şəxslər Yaponiyanı "Şərqi Asiya imperiyası"na çevirməyi, işğal yolu ilə "Böyük Yaponiya" qurmağı planlaşdırırdılar. 1927-ci ildə bank böhranı ölkənin iqtisadi vəziyyətini pisləşdirdi. Bu hadisə hakimiyyətin hərbi elitanın əlinə keçməsinə şərait yaratdı. General Tanakanın başçılıq etdiyi hökumət imperatora hərbi təcavüz yolu ilə Yaponiyanın dünya ağalığına yönəlmiş yeni strateji kursu nəzərdə tutan memorandum göndərdi. Bu plana görə, ilkin olaraq, Çin, daha sonra Hindistan, Kiçik Asiya, Yaxın Şərq, Mərkəzi və Cənub-Şərqi Asiya tutulmalı idi.

1931-ci ildə yapon ordusu Çinə hücum edərək qısa müddətdə bütün Şimali-şərqi Çini özünə tabe etdi. 1932-ci ildə isə Yaponiyanın nəzarəti altında olan oyuncaq Mançjou-Qo dövləti yaradıldı. Yaponiya Çinə təcavüz etdiyi üçün 1933-cü ildə Millətlər Cəmiyyətindən çıxarıldı. 1937-ci ilin yayında Yaponiya Çinə genişmiqyaslı hücuma başladı. Tezliklə Çinin Nankin və Şanxay kimi iri şəhərləri tutuldu. 1940-cı ilin oktyabrında Yaponiyanın Almaniya və İtaliya ilə imzaladığı üçtərəfli sazişə görə Yaponiya Almaniya və İtaliyanın Avropada, həmin Avropa dövlətləri isə öz növbəsində, Yaponiyanın Asiya qitəsində ağalığını tanıdıqlarını elan etdilər.

**S** **Yaponiyanın Birinci dünya müharibəsində savaş elan etdiyi, İkinci dünya müharibəsində isə müttəfiq olduğu Avropa dövləti hansıdır?**

**M** General Honjonun 1931-ci ildə yazdığı raportda deyilirdi: *"Amerikanın təsirinin Şərqə doğru irəliləməsinin qarşısını almaq istəyiriksə, öncə Asiya qitəsində dayaqlarımızı qüvvətləndirmək və xammal ehtiyatı baxımından üstün bir mövqeyə sahib olmaq zəruridir. Bunun üçün Amerikaya müharibə elan etməzdən əvvəl həm Çin, həm də Rusiyaya qarşı hərbi üstünlüyümüzü təmin etməyimiz vacibdir. Çin və Rusiyanı, sözün tam mənasında, hərəkətsiz bir hala gətirməliyik. Əgər bu ölkələrin qüvvələrini tamamilə məhv etməyi bacara bilməsək, o zaman, heç olmasa, onları müvəqqəti olaraq zərərsizləşdirməliyik..."* Yapon generalının bu raportunda Filippin və digər Sakit okean adalarının işğalından bəhs edildiyi kimi, bütün Çin, Hind-Çin və Sinqapurun işğalı da təklif olunurdu. (*Eberhard V. En Eski Devirlerden Zamanımıza Kadar Uzak Doğu Tarihi. 3. Baskı. Ankara, Türk Tarih Kurumu Basımevi, 1992, səh. 226-227)*



# 15 İKİNCİ DÜNYA MÜHARİBƏSİ

"Qəribə müharibə", "Qış müharibəsi", "Üçlər paktı", "Barbarossa planı", "Atlantik xartiyası", Stalinqrad döyüşü, Potsdam konfransı

XX yüzilliyin 30-cu illərində Böyük böhran dünya dövlətləri arasındakı ziddiyyətləri kəskinləşdirdi. Nüfuz dairələri, xammal mənbələri və satış bazarları uğrunda mübarizə yenidən qızışdı. Versal-Vaşinqton sisteminin şərtlərinin ədalətli olmaması narazı dövlətlərdə qisasçılıq meyillərinin artmasına səbəb oldu. Bunun nəticəsində Almaniya, İtaliya və Yaponiyanın hakim dairələri **şovinist**★ siyasət yürütməyə başladı. SSRİ Şərqi Avropada və Uzaq Şərqdə öz nüfuz dairəsini genişləndirmək məqsədi güdürdü. ABŞ bitərəfliliyini qoruyub saxlamaqla baş verə biləcək müharibənin nəticələrindən faydalanmağa, Böyük Britaniya və Fransa isə öz mövqelərini qoruyub saxlamağa çalışırdı. Bunlarla yanaşı, faşizm təhlükəsinin lazımınca qiymətləndirilməməsi, SSRİ-nin Almaniya ilə əməkdaşlıq etməsi və demokratik dövlətlərin totalitar rejimləri bir-birinə qarşı qoymaq cəhdləri **İkinci dünya müharibəsinin** başlanmasının əsas səbəbləri idi.

★ *Şovinizm* – millətçiliyin ifrat formasıdır.

**S** **Sizcə, hansı amil İkinci dünya müharibəsinin başlanmasında həlledici rol oynamışdır?**

## Müharibənin başlanması

1939-cu il sentyabrın 1-də Almaniyanın Polşaya hücum etməsi ilə İkinci dünya müharibəsi başladı. Böyük Britaniya və Fransa Almaniyaya müharibə elan etdi. **"İldırımsürətli müharibə"** planı ilə hərəkət edən alman ordusu qısa müddətdə Polşanı tutdu.

Bu zaman sovet ordusu hücuma keçərək Polşanın şərq hissəsini ələ keçirdi. Polşa torpaqlarının iki dövlət arasında bölüşdürülməsi müqavilə ilə rəsmiləşdirildi. 1939-cu ilin sonlarında SSRİ Finlandiya ilə müharibəyə başladı. Buna görə onu Millətlər Cəmiyyətindən qovdular. 1940-cı ilin martınadək davam edən **"Qış müharibəsi"** nəticəsində Baltik dənizi sahilində bəzi ərazilərin tutulmasına baxmayaraq, Finlandiya müstəqilliyini qoruya bildi.

1940-cı ildə SSRİ Latviya, Litva və Estoniyanı işğal etdi. Bessarabiyanı öz ərazisinə qatdı. Bu işğallar nəticəsində keçmiş Rusiya imperiyasının qərb sərhədləri bərpa olundu.

**T** Millətlər Cəmiyyətinin təsir imkanlarının zəifliyini faktlarla sübut edin.







Adolf Hitler Parisdə



**T** Almaniyanın Böyük Britaniyanı məğlub edərək müharibədən çıxara bilməməsinin səbəblərini araşdırın.

## “Qəribə müharibə”

Almaniyaya müharibə elan etmələrinə baxmayaraq, ingilis və fransız orduları 1940-cı ilin martınadək fəal hərbi əməliyyatlara başlamadı. Onlar müdafiə strategiyası seçmişdilər. Fransa Almaniya ilə sərhəd boyunca yaratdığı güclü müdafiə istehkamlarına arxayın idi. Bütün bunlar Almaniyanın işğalçılıq planlarını genişləndirməsinə şərait yaratdı. Bir-birinin ardınca Danimarka, Norveç, Hollandiya və Belçika ələ keçirildi. Qərbi Avropada gedən hərbi əməliyyatlarda ingilis-fransız ordusunun məğlub edilməsindən sonra Almaniya Fransaya hücum etdi. Qısa müddət ərzində Fransa işğal olundu. Ölkənin şimalı Almaniyaya birləşdirildi, cənubda isə faşist hökuməti təşkil edildi.

Bundan sonra Böyük Britaniya almanların aramsız hava hücumlarına məruz qaldı. İngilis ordusunun ciddi müqaviməti Almaniyanın planını puça çıxardı. Bu, Hitler Almaniyası ilə mübarizədə ilk qələbə idi. Hava hücumları ilə istədiyinə nail ola bilməyən Almaniya Atlantik okeanında ingilis donanmasına qarşı müharibə aparmalı oldu.

## Müharibənin genişlənməsi

1940-cı ildə Afrika ərazisi də hərbi əməliyyatlar meydanına çevrildi. Buradakı italyan ordusu Liviyadan Süveyş kanalına tərəf, Efiopiyadan isə Keniya və Sudana hücum etdi. Böyük Britaniya qoşunları İtaliya ordusunun Misirə hücumunun qarşısını ala bildi. Hitler alman korpusunu italiyanların köməyinə göndərdi. Onların Süveyş kanalını tutmaq cəhdi nəticəsiz qaldı. Faşistlər bu məğlubiyyətin əvəzini Balkanlarda çıxdılar. İtalya ordusu Albaniya ərazisindən Yunanıstana soxuldu. İngilislər yunanların köməyinə gəldi. Alman və italyan qüvvələrinin birgə hücumları nəticəsində 1941-ci ilin yazında Yuqoslaviya və Yunanıstan təslim oldu. İngilis ordusu Misirə qayıtdı.

**S** **Böyük Britaniyanın Almaniya və müttəfiqlərinə qarşı mübarizəsini necə qiymətləndirirsiniz?**

Layihə



## "Üçlər paktı"

1940-cı ilin sentyabrında Berlində Almaniya, İtaliya və Yaponiya arasında "Üçlər paktı" deyilən müqavilə imzalandı. Paktda nəzərdə tutulmuşdu:

| |
|---|
| Yaponiya Avropada yeni nizamın yaradılmasında Almaniya və İtaliyanın rəhbərliyini tanıyır və hörmətlə yanaşır. |
| Almaniya və İtaliya Asiyada yeni nizamın yaradılmasında Yaponiyanın rəhbərliyini tanıyır. |
| Bu pakt imzalandıqdan dərhal sonra qüvvəyə minir və on il ərzində qüvvədə qalır. |

Dövlətlərdən hər hansı biri mövcud müharibədə iştirak etməyən bir dövlət tərəfindən hücuma məruz qalardısa, digərləri ona hərbi, siyasi və iqtisadi yardım etməyə borclu idi. Sovet İttifaqına da bu pakta qoşulmaq üçün təklif göndərilmişdi. Lakin SSRİ-nin irəli sürdüyü bəzi şərtlərin Almaniya tərəfindən qəbul olunmaması onun pakta qoşulmasına imkan vermədi. Sonradan Macarıstan, Rumıniya, Bolqarıstan və s. dövlətlər də bu müqaviləyə qoşuldu.



"Üçlər paktı"nın imzalanması

**S** Sizcə, "Üçlər paktı"nı dünyanın yenidən bölüşdürülməsi hesab etmək olarmı?

## Almaniyanın SSRİ-yə hücumu

Avropanın şəriksiz hökmranı olmaq üçün Almaniya SSRİ ilə müharibə etmək məcburiyyətində idi. Hitler düşünürdü ki, Sovet İttifaqının darmadağın edilməsi ilə Böyük Britaniyanın da taleyi həll olunacaqdır. 1941-ci ilin yayında Almaniya **"Barbarossa"*** planına əsasən SSRİ-yə hücum etdi. ***"İldırımsürətli müharibə"*** strategiyasına əsaslanan alman qoşunları qışa qədər Arxangelsk-Həştərxan xəttini tutmaq istəyirdi. İngiltərəni diz çökdürməmiş SSRİ-yə qarşı müharibəyə başlamaq Hitlerin böyük səhvi idi. SSRİ-nin müharibəyə hazır olmaması almanların sürətlə irəliləyib Moskvaya yaxınlaşmasına səbəb oldu. Dekabr ayında sovet qoşunları əks-hücum əməliyyatı ilə alman ordusunu Moskva ətrafında darmadağın etdi. Bununla da "İldırımsürətli müharibə" planı puça çıxdı.



★ *"Barbarossa planı"* – Almaniya (*Müqəddəs Roma*) imperatoru Fridrix Barbarossun adı ilə bağlı plan.

**T** Moskva döyüşünü I Dünya müharibəsində baş vermiş Marna döyüşü ilə müqayisə edin.

Layihə

# Asiyada müharibə

Asiyada müharibə. Yaponiya hələ İkinci dünya müharibəsinin başlanmasından əvvəl Çində işğalçılıq siyasəti aparırdı. Çinin əhəmiyyətli hissəsini işğal edən, Fransanın müstəmləkələri olan Vyetnam, Laos və Kampuçiyada möhkəmlənən Yaponiya dəniz yollarına nəzarəti ələ almağa çalışırdı. Onun bu siyasəti ABŞ və Böyük Britaniyanın mənafeyi ilə toqquşurdu. 1941-ci ildə SSRİ ilə Yaponiya arasında bir-birinə hücum etməmək barədə müqavilənin imzalanması sonuncunun fəallaşmasına və Uzaq Şərqdə bir sıra əraziləri işğal etməsinə səbəb oldu.



**T** Yaponiyanın geniş işğalçılıq siyasəti apara bilməsinə səbəb olan amilləri müəyyən edin.

# ABŞ müharibədə

ABŞ müharibədə. Hələ müharibənin əvvəllərindən bitərəflik siyasəti yeridən ABŞ öz təhlükəsizliyi üçün vacib hesab etdiyi dövlətlərə yardım edirdi. Bunlar Böyük Britaniya və SSRİ idi. 1941-ci ilin avqustunda ABŞ və Böyük Britaniya **"Atlantik xartiyası"**★ adlanan sənəd imzaladı. Bununla hər iki dövlət başqa əraziləri işğal etməyəcəklərini, xalqlara öz müqəddəratını təyin etmək hüququnun veriləcəyini və təcavüzkarların tərk-silah ediləcəyini öhdələrinə götürürdü. ABŞ və Böyük Britaniyanın SSRİ-yə yardım edə bilməsi üçün ən real marşrut İran ərazisi idi. Sovet və ingilis qoşunlarının İranı işğal edib nüfuz dairələrinə bölməsi bu planın reallaşdırılmasına şərait yaratdı. 1941-ci ilin dekabrında yapon təyyarələri ABŞ-nin Havay adasındakı Pörl-Harbor hərbi bazasına zərbə endirdi. Bu hadisə ABŞ-nin İkinci dünya müharibəsinə qoşulmasına səbəb oldu. 1942-ci ilin yanvarında 26 dövlət Birləşmiş Millətlər Bəyannaməsini imzalayaraq faşist blokuna qarşı birgə mübarizə aparacaqlarını bildirdilər. Anti-Hitler koalisiyasının yaranması müharibənin gedişində əsaslı dönüş yaradılmasına təsir göstərdi.

★ *"Atlantik xartiyası"* – Atlantik okeanındakı döyüş gəmisində imzalandığı üçün belə adlandırılmışdır.

**S** **ABŞ-nin müharibəyə qoşulmasının Anti-Hitler koalisiyasına hansı faydası oldu?**

# Əsaslı dönüş

Müharibənin ilk dövründə təcavüzkar dövlətlərin uğurları onların böyük hazırlıqlarının və qəfil hücumlarının nəticəsi idi. Lakin cəbhə xəttinin uzanması ordunun təchiz edilməsi və verilən itkilərin insan ehtiyatı ilə təmin olunması baxımından çətinliklərin yaranması vəziyyəti dəyişdi. 1942-ci ilin yayında **Miduey** adlı mərcan adalarının yanında baş vermiş döyüşdə yapon ordusu məğlub oldu və Sakit okeanda hücum əməliyyatlarına başlaya bilmədi. Payızda Şimali Afrikadakı ingilis ordusu **Əl-Əlameyn** döyüşündə alman-italyan qoşunlarını darmadağın etdi. Müttəfiqlərin ikinci cəbhəni açmaması Almaniyanın SSRİ-yə qarşı hücum əməliyyatlarını genişləndirməsinə səbəb oldu. Almanlar Qafqaz istiqamətində irəliləyərək **Stalinqrad** şəhərini mühasirəyə aldılar. Şəhərin işğal olunması alman qoşunlarının Bakı neftinə yaxınlaşmasına səbəb olacaqdı. Sovet ordusunun əks-hücumu nəticəsində mühasirəyə alınan alman ordusunun böyük qruplaşması 1943-cü ilin fevralında təslim oldu. Stalinqrad döyüşü ilə sovet-alman cəbhəsində əsaslı dönüş baş verdi.





Kursk döyüşü

1943-cü ilin yayında **Kurskda** baş verən ən böyük tank döyüşündə sovet ordusu qalib gəldi. Bununla da sovet-alman cəbhəsində əsaslı dönüş başa çatdı. Atlantik okeanında gedən döyüşlərdə də üstünlük müttəfiqlərin əlinə keçdi. Bütün bunlar faşist blokunun böhranına səbəb oldu. Müttəfiqlərin Siciliya adasına qoşun çıxarması nəticəsində İtaliya təslim oldu və Mussolini devrildi.

**T** Əsaslı dönüş dövrünün həlledici döyüşlərinə aid cədvəl tərtib edin.

## Avropada ikinci cəbhə

1943-cü ilin sonlarında Tehranda (İran) ABŞ prezidenti F.Ruzvelt, Böyük Britaniyanın Baş naziri U.Çörçill və SSRİ-nin rəhbəri İ.Stalinin ilk görüşü oldu. Konfransda ikinci cəbhənin Fransada açılması qərara alındı. 1944-cü ilin iyununda müttəfiq qoşunları Şimali Fransaya (Normandiyaya) çıxarıldı. Avropada ikinci cəbhə açıldı.

İlin sonuna kimi Fransa ərazisi azad olundu. Bu dövrdə ölkə ərazisini düşməndən azad edən sovet ordusu Şərqi Avropa ölkələrinə daxil oldu. ABŞ qoşunları yapon işğalı altında olan bir sıra əraziləri azad edərək dəniz yollarına nəzarəti ələ keçirdi. Qərbdən və Şərqdən hücuma keçən müttəfiq orduları 1945-ci ilin fevralında Almaniya ərazisinə girdi. Bu vaxt Yaltada (Krım) müttəfiq dövlət başçılarının ikinci görüşü təşkil edildi.



Yalta konfransı. U.Çörçill , F.Ruzvelt və İ.Stalin

**S** Sizcə, müttəfiq dövlətlərin ikinci cəbhənin açılmasını yubatmaqda məqsədləri nə idi?

| YALTA KONFRANSININ ƏSAS QƏRARLARI | | | |
|---|---|---|---|
| SSRİ-nin qərb sərhədləri tanındı. Almaniya məğlub edildikdən sonra SSRİ Yaponiya ilə müharibəyə başlamalı idi. | Cənubi Saxalin, Kuril adaları, Mancuriyadakı dəmiryolu və Port-Artur SSRİ-yə verilməli idi. | Azad olunmuş Avropa haqqında bəyannamədə xalqlara arzularına uyğun demokratik təsisatlar qurmağa təminat verilirdi. | Gələcəkdə yaradılacaq Birləşmiş Millətlər Təşkilatının (BMT)* iş qaydaları müəyyənləşdirildi. |

★ *Birləşmiş Millətlər Təşkilatı (BMT)* – Nizamnaməsi 1945-ci il iyunun 26-da San-Fransisko konfransında 50 dövlətin nümayəndəsi tərəfindən imzalanmışdır.

# Avropada sülh

1945-ci ilin aprelində sovet ordusu Berlin əməliyyatına başladı. Şəhərin ələ keçirildiyini və alman ordusunun məğlub olduğunu görən Hitler intihar etdi. Mayın 8-dən 9-na keçən gecə alman hökuməti təslim aktını imzalamaq məcburiyyətində qaldı. Avropada müharibə başa çatdı. 1945-ci ilin yayında "böyük üçlük" rəhbərlərinin iştirakı ilə Potsdam konfransı keçirildi. Məqsəd müttəfiqlərin Almaniyaya münasibətini müəyyən etmək idi.

T Yalta və Potsdam konfranslarını müqayisə edin.



K.Ettli, H.Trumen, İ.Stalin Potsdam konfransında

| POTSDAM KONFRANSININ QƏRARLARI | | | |
|---|---|---|---|
| Berlin daxil olmaqla Almaniya 4 işğal zonasına (SSRİ, ABŞ, İngiltərə, Fransa) bölündü. | Müharibə canilərini mühakimə etmək üçün Beynəlxalq tribunal yaradıldı. | Almaniyanın dövlət sərhədləri müəyyən olundu və o, ərazisinin dörddə birini itirdi. | Almaniyadan alınacaq təzminatın həcmi müəyyən edildi ki, bunun da yarısı SSRİ-yə çatmalı idi. |

# Yaponiyanın təslim olması

ABŞ ordusu Sakit okean bölgələrinin yapon işğalından azad olunması yolunda çətinliklə irəliləyirdi. Burada əsas problem yaponların güclü müqavimət göstərməsi idi. Yaponiya təslim olmaq istəmirdi. 1945-ci ilin avqustunda ABŞ öz gücünü dünyaya nümayiş etdirmək məqsədilə Yaponiyanın Hirosima və Naqasaki şəhərlərinə atom bombası atdı. Bəşəriyyət əleyhinə törədilmiş bu böyük cinayət nəticəsində on minlərlə insan həlak oldu. Avqustun 8-də SSRİ Yaponiyaya müharibə elan etdi. 1945-ci il sentyabrın 2-də Yaponiya təslim aktını imzaladı. İkinci dünya müharibəsi başa çatdı.

T ABŞ-nin atom bombasından istifadə etməklə öz gücünü nümayiş etdirməsi fikrinə münasibət bildirin.

Hirosima atom bombasından sonra



# Müharibənin yekunları

Təqribən 70 milyon insanın həlak olması ilə nəticələnən İkinci dünya müharibəsi bəşər tarixinin ən qanlı hadisəsi idi. Altmışdan çox dövlətin iştirak etdiyi bu müharibə faşist blokunun məğlubiyyəti ilə bitdi. Dörd trilyon dollara çatan müharibə xərcləri ölkələrin iqtisadiyyatına böyük zərbə vurdu, on minlərlə şəhər və kənd dağıdıldı. Müharibə nəticəsində Qərbi Avropanın dünya siyasətində rolu zəiflədi. SSRİ və ABŞ dünyanın əsas gücləri oldu. Lakin ABŞ hərbi-siyasi və iqtisadi cəhətdən daha üstün idi. Asiya və Afrikada müstəmləkəçilik əleyhinə hərəkat gücləndi. Sovet qoşunları tərəfindən işğal olunmuş Şərqi Avropa ölkələrində sosialist rejimləri quruldu. Avropa iki düşərgəyə – kapitalist Qərbinə və sosialist Şərqinə bölündü. İdeoloji mübarizə onlar arasında münasibətlərin kəskinləşməsinə səbəb oldu. İkinci dünya müharibəsinin əsas nəticələrindən biri də Birləşmiş Millətlər Təşkilatının yaradılması oldu. Müharibənin qalibi olan böyük dövlətlər – Fransa, Çin, Böyük Britaniya, SSRİ və ABŞ BMT Təhlükəsizlik Şurasının daimi üzvləri oldu. İkinci dünya müharibəsinin dəhşətləri dünyada sülhün qorunmasının vacibliyini bir daha təsdiq etdi.

T Stalinqrad döyüşü barədə əlavə məlumatlar toplayaraq təqdimat hazırlayın.

# 16 MƏDƏNİYYƏT

"Qərb cəbhəsində yenilik yoxdur", "fizikanın qəhrəmanlıq dövrü", sürrealizm, caz

İlk dünya müharibəsi bir çox avropalılarda dərin ümidsizlik hissi yaşatmışdı. Bir çox insanlar üçün Birinci dünya müharibəsinin dəhşətləri Qərb dəyərlərində nəyinsə son dərəcədə yanlış olduğunu ifadə edirdi. Böyük böhran və faşizmin inkişafı müharibənin yaratdığı ümidsizliyi daha da artırdı. Siyasi, iqtisadi və sosial qeyri-müəyyənliklərlə birlikdə, intellektual qeyri-müəyyənliklər də meydana çıxdı. Bunlar Birinci dünya müharibəsindən sonrakı illərin mədəniyyətində özünü büruzə verdi.

S

**Birinci dünya müharibəsi mədəniyyətə necə təsir göstərdi?**

## Ədəbiyyat

Ədəbiyyat bu dövrdə böyük dəyişikliyə uğramamışdı. Müharibə zamanı və müharibədən sonra yazıçılar cəmiyyət, siyasət və insan münasibətlərinə diqqəti artırdılar. Bir çox ölkələrin ədəbiyyatında müstəmləkəçiliyə, irqçiliyə qarşı əsərlər yarandı. Birinci dünya müharibəsindən sonra ədəbiyyatda yeni cərəyanlar meydana gəldi. Məsələn, yazıçılar hər bir personajın daxili düşüncələrini bildirmək üçün müxtəlif üsullardan istifadə edirdilər.

**Frans Kafkanın** (1883–1924) yaradıcılığı dünya ədəbiyyatında dönüş nöqtələrindən biri olmuşdur. Onun məşhur **"Transformasiya"** (*Çevrilmə*) əsərinin qəhrəmanı bir gün özünün həşərata çevrildiyini görür, lakin o, düşünmə qabiliyyətini itirmir. Bəzi tənqidçilərə görə, Kafkanın yaradıcılığı yadlaşma, ünsiyyətsizlik, qorxu və depressiya çərçivəsində tənhalaşan insanı ifadə edir. Bəziləri isə onun həyatın tələlərinə yumor hissi ilə müqavimət göstərdiyini və əsərlərində çox şən bir gülüşün gizləndiyini qeyd edirlər. Kafkanın əsərləri incəsənətin bir çox sahələrinə təsir göstərmişdir.

XX yüzilliyin birinci yarısında Amerika ədəbiyyatı özünün yüksəliş dövrünü yaşayır. **Con Steynbek, Ernest Heminquey** əsərlərində dövrün mühüm tarixi hadisələrindən bəhs etmişlər.

T

**Ədəbiyyatın dövrün mühüm tarixi hadisələrini özündə əks etdirməsi baxımından əhəmiyyətini dəyərləndirin.**



*F.Kafka*




*C.Steynbek*



*E.Heminquey*



*E.Remark*



*M.Şoloxov*



*M.A.Ərsoy*



*Y.K.Bayatılı*



*R.N.Güntəkin*



*X.Ə.Adıvar*

Alman yazıçısı **Erix Remarkın** ***"Qərb cəbhəsində yenilik yoxdur"*** əsərində Birinci dünya müharibəsinin dəhşətləri təsvir edilmişdir. Nasistlərin hakimiyyəti dövründə yandırılan kitablar sırasına bu roman da daxil edilmişdi. Remark bu romanda müharibələrdə iştirak edən insanların bəzilərinin fiziki, digərlərinin isə ruhən öldüyünü iddia edir. Ona görə heç kimin sağ çıxa bilməməsi müharibənin reallığıdır.

Sovet ədəbiyyatında **Mixayıl Şoloxov** sosialist realizminin əsas nümayəndələrindən hesab edilir. Şair **Vladimir Mayakovski** poeziyada yeni futurist formanın yaradıcısı kimi məşhurdur.

Türkiyə ədəbiyyatına Osmanlı mədəni irsindən respublika dövrünə mədəni keçid təsir göstərdi. Bu kontekstdə Türkiyənin "milli şairi" **Mehmet Akif Ərsoy** xüsusi əhəmiyyət daşıyır. Mehmet Akif Ərsoy İstiqlal hərəkatında iştirak etmiş, Türkiyə Böyük Millət Məclisində millət vəkili olmuşdur. Mustafa Kamalın təklifi ilə sözlərini yazdığı **İstiqlal Marşı** Türkiyənin Dövlət Himni kimi qəbul edilmişdi. **Yəhya Kamal Bayatlı** şeirlərində əruz vəznini türkcəyə uyğunlaşdırması ilə tanınır. Roman janrında **Rəşad Nuri Güntəkinin** və **Xalidə Ədib Adıvarın** əsərləri xüsusilə məşhurdur. Xalidə Ədib Adıvar Türkiyədə milli istiqlal hərəkatında fəal iştirak etmişdir. İngilislər İstanbulu işğal etdikdən sonra ölüm hökmü verilən ilk insanlar arasında Mustafa Kamalla yanaşı, Xalidə Ədib də var idi.

## Elm

1920–30-cu illər elmin müxtəlif sahələrində yeni nailiyyətlərin əldə edilməsi ilə səciyyəvidir. Müharibədən əvvəl **Albert Eynşteyn** tərəfindən fizikada başlayan inqilab Dünya müharibələri arasındakı illərdə də davam etdi. Əslində, atomun parçalana biləcəyini göstərən fiziklərdən biri **Ernest Rezerford** 1920-ci illəri *"fizikanın qəhrəmanlıq dövrü"* adlandırmışdı. Nyutonun klassik fizikası insanları bütün hadisələrin tamamilə müəyyən edilə və proqnozlaşdırıla biləcəyinə inandırmışdı. Lakin bu dövrdə qeyri-müəyyənlik prinsipi bu inamı sarsıtdı. Fiziklər atomların daha kiçik hissəciklərdən ibarət olduğunu bilirdilər. Bu hissəciklərin davranışının gözlənilməz olması qeyri-müəyyənlik prinsipinin əsasını təşkil edir. Bu nəzəriyyə bütün fiziki qanunların qeyri-müəyyənliyə əsaslandığını göstərir.

M

Almaniyada nasistlərin iqtidara gəlməsi ilə bir çox yəhudi elm xadimləri Türkiyəyə gəlməyə məcbur oldular. Bu barədə hətta fizika üzrə məşhur alim Albert Eynşteyn Türkiyə hökumətinə bir xahiş məktubu da ünvanlamışdı. M.K.Atatürk yəhudi xadimlərinə Türkiyəyə gəlməsinə imkan verməklə onları xilas etmişdir.







# Kütləvi mədəniyyət: radio və filmlər

1920-ci illərdə dünyada radiodan istifadə genişləndi. Eyni zamanda radioların kütləvi istehsalına başlandı. Radio və filmlərdən siyasi təbliğat məqsədilə də istifadə edilirdi. A.Hitler deyirdi: "Maşınlar, səsli filmlər və simsiz rabitə olmasaydı, nasizmin qələbəsi də olmazdı". Radio kütlələrə təsir etmək üçün böyük imkanlar yaradırdı. A.Hitlerin alovlu nitqlərinin geniş kütlələrə çatdırılması üçün nasist rejimi istehsalçıları ucuz radiolar istehsal etməyə çağıraraq radioya qulaq asmağı təşviq edirdi. Filmin də təbliğat potensialı var idi. Filmin "kütlələrə təsir etmək üçün ən müasir və elmi vasitələrdən" biri olduğuna inanan nasistlər Təbliğat Nazirliyində xüsusi kino şöbəsi yaratdı. Kinofilmlər kütləvi əyləncənin mühüm yeni formasına çevrilməyə başladı. Məşhur sovet rejissoru **Sergey Eyzenşteynin** "*Potyomkin zirehli gəmisi*" filmi dünya kinosunun ilk şedevrlərindən biridir. 1920–30-cu illər kino tarixində səsli filmlərə keçidlə səciyyəvidir.



Sergey Eyzenşteyn

SSRİ-də 20-ci illərin sonu – 30-cu illərin əvvəllərində ölkə rəhbərliyinin inzibati-amirlik sistemində Stalinin şəxsiyyətinə pərəstiş mədəniyyətə də öz dərin təsirini göstərdi. Mədəniyyətin bütün sahələri partiya və dövlət orqanlarının nəzarətində idi. İncəsənətin müxtəlif sahələri üzrə vahid təşkilatlar yarandı. Sosialist realizmi sovet ədəbiyyatı və incəsənətində yeganə düzgün metod hesab olundu. Bu metod bədii yaradıcılığı unifikasiya edirdi.

T

Mədəniyyətin inkişafına siyasi sistemin təsirlərini dəyərləndirin.



# İncəsənət: Yeni xüsusiyyətlər

1918-ci ildən sonra bədii cərəyanlar, əsasən, müharibədən əvvəlki inkişafları əks etdirirdi. Məsələn, abstrakt sənət getdikcə populyarlaşdı. Nəticədə sürrealizm (real olmayan) bədii cərəyanı yarandı.

Bu hərəkat maddi dünyadan kənarda reallıq axtarırdı. Fantaziyaları, yuxuları və hətta kabusları təsvir etməklə sürrealistlər fiziki görünüşlər dünyasından kənarda mövcud olan daha böyük reallığı göstərməyə çalışırdılar. İspan **Salvador Dali** sürrealizmin görkəmli nümayəndəsi idi. Dali adi əşyaları normal görünüşlərindən fərqli təsvir edirdi.

Yeni sənət növlərini hamı qəbul etmir, "Kitab dalğası", Salvador Dali bəziləri tənəzzül kimi qiymətləndirirdilər.  Xüsusilə bu, nasist Almaniyasında belə idi. 1920-ci illərdə Veymar Almaniyası müasir incəsənət və elmlər üzrə Avropanın əsas mərkəzlərindən biri idi. Lakin nasistlər müasir incəsənəti "degenerasiya" (geriləmə, pozulma) adlandıraraq rədd etdilər.





Salvador Dali

SSRİ-də və nasist Almaniyasında mədəniyyət sahəsində həyata keçirilən siyasəti müqayisə edin.

**Musiqi** janrları arasında seçilən caz sırf Amerika musiqisi deyil, Afrikanın ənənəvi musiqisini və rəqslərini özündə birləşdirən musiqi növüdür. ABŞ-da, əsasən afroamerikalı sənətçilərin ifa etdiyi bu janra bəzən də müstəmləkəçilik səbəbi ilə ingilis və Amerika yerlilərinin (hinduların) musiqisinin təsirləri olmuşdur.



Jaz orkestri

Mədəniyyətlərarası əlaqələr onun inkişafına necə təsir göstərə bilər?

# 17 AMERİKA BİRLƏŞMİŞ ŞTATLARI

"Ədalətli xətt", "Yeni hüdudlar", "Uotorgeyt hadisəsi", "Reyqanomika", 11 sentyabr terroru

## Dünya müharibəsinin nəticələri

İkinci dünya müharibəsinin ABŞ üçün bir sıra sosial-iqtisadi nəticələri oldu. O, dünyanın ən varlı ölkəsinə çevrildi. Ölkə iqtisadiyyatı inkişaf etdi. Dünya qızıl ehtiyatının yarıdan çoxu ABŞ-nin əlində cəmləndi və əsas iqtisadi güc mərkəzi oldu. Nüvə silahına malik olan ABŞ fövqəldövlət idi. Müharibə zamanı onun ərazisində hərbi əməliyyatların getməməsi iqtisadi inkişafa müsbət təsir göstərdi.

**T** Müharibədən sonra ABŞ-nin inkişafını şərtləndirən amilləri sadalayın:

1945-ci ildə F.Ruzvelt vəfat etdikdən sonra prezident vəzifəsini Harri Trumen icra etməyə başladı. Onun irəli sürdüyü "Ədalətli xətt" adlı proqramda orduda olanların tərxis olunaraq işlə təmin edilməsi və iqtisadiyyatın dinc bərpa dövrünə qədəm qoyması



Harri Trumen

nəzərdə tutulurdu. Lakin istehsalın aşağı düşməsi nəticəsində ölkəni tətil hərəkatı bürüdü. Həmkarlar İttifaqları üzərində dövlət nəzarətini gücləndirmək məqsədilə ABŞ konqresi 1947-ci ildə Taft-Xartli qanununu qəbul etdi. H.Trumen islahatlar xəttini davam etdirdi. Minimum əmək haqqı artırıldı, sosial müdafiə sistemi genişləndirildi və ucuz mənzillərin tikilməsinə başlanıldı. Bunun nəticəsində bazar iqtisadiyyatı şəraitində vətəndaşlara müəyyən sosial təminat və maddi rifah təmin edən "firavanlıq dövləti" təşəkkül tapdı. Dövlət aparatında da islahatlar aparıldı. Milli Təhlükəsizlik Şurası və Mərkəzi Kəşfiyyat İdarəsi yaradıldı. Kommunizm təhlükəsinə qarşı mübarizə geniş miqyas aldı. İqtisadi birinciliyini möhkəmləndirən və hərbi gücünü artıran ABŞ dünyada öz hegemonluğunu qurmağa çalışırdı. Bu sahədə onun əsas rəqibi SSRİ idi. H.Trumenin hakimiyyəti dövründə Sovet İttifaqının müdaxilə imkanlarını məhdudlaşdırmaq məqsədilə bir sıra doktrinalar irəli sürüldü. Türkiyə və Yunanıstanın kommunist təhlükəsindən xilas olması üçün mühüm addımlar atıldı və Avropadakı müttəfiqlərə böyük məbləğdə maliyyə yardımı edildi.

**T** ABŞ-nin 1940-cı illər tarixinə aid cədvəli tamamlayın.

| | |
|---|---|
| DAXİLİ SİYASƏT | |
| XARİCİ SİYASƏT | |

1950-ci illərdə ABŞ-də elmi-texniki tərəqqi baş verdi. İstehsal prosesi avtomatlaşdırıldı. Sənaye məhsulu istehsalı artdı. Sosial təminat sistemi genişləndirildi. Minimum əmək haqqı qaldırıldı. İrqi ayrı-seçkiliyin aradan qaldırılması üçün tədbirlər görüldü. Qara və ağ dərili uşaqların ayrı-ayrı məktəblərdə təhsil alması konstitusiya əleyhinə olan akt kimi dəyərləndirildi.

# ABŞ XX yüzilliyin 60-70-ci illərində

1960-cı ildə keçirilən prezident seçkilərində **Con Kennedi** qalib gəldi. O, andiçmə mərasimindəki nitqini belə bir cümlə ilə bitirdi: "*Ölkənizin sizin üçün nə edə biləcəyini deyil, sizin ölkəniz üçün nə edə biləcəyinizi düşünün*". Kennedinin hakimiyyəti dövründə ***"yeni hüdudlar"*** proqramının həyata keçirilməsi nəticəsində ölkə iqtisadiyyatı sürətlə inkişaf etdi. ABŞ dünya iqtisadiyyatında tutduğu aparıcı rolunu gücləndirdi. İrqi ayrı-seçkiliyin ləğvi istiqamətində ciddi addımlar atıldı. Afroamerikalı tələbələrin universitetlərə buraxılmadığı bəzi ştatlara ordu hissələri yeridildi.

Dünyada baş verən qlobal dəyişikliklər ABŞ-nin xarici siyasətinə ciddi təsir edirdi. ABŞ xarici ölkələrdə iqtisadi maraqlarını mühafizə etmək məcburiyyətində idi. Çünki İkinci dünya müharibəsindən sonra xarici ölkələrə kapital qoyuluşu dəfələrlə artmışdı. Kennedi hökumətinin yeritdiyi xarici siyasətdə SSRİ, Latın Amerikası və Avropa ölkələri ilə münasibətlər xüsusi yer tuturdu.



Con Kennedi

| KENNEDİ HÖKUMƏTİNİN XARİCİ SİYASƏTİNİN ƏSAS İSTİQAMƏTLƏRİ |
|---|
| SSRİ ilə münasibətlər qurmaq, sazişlər bağlamaq və dünyada qüvvələr nisbətini öz xeyrinə dəyişmək |
| Fəal maliyyə yardımı ilə Latın Amerikası ölkələrinin iqtisadiyyatını dirçəltmək və ABŞ ilə yaxınlaşmalarını təmin etmək |
| Qərbi Avropa ölkələri ilə iqtisadi və hərbi əməkdaşlığı möhkəmləndirmək |

**T** Cədvəl əsasında Kennedi hökumətinin xarici siyasətini qiymətləndirin.

Kennedinin siyasi xətti mühafizəkar və irqçi qüvvələrin narazılığına səbəb oldu. 1963-cü ildə o, Dallas şəhərində sui-qəsd nəticəsində öldürüldü.

1960-cı illərin ortalarında ABŞ-də yoxsulluğa qarşı mübarizə elan olundu. Afroamerikalılara işəgötürülmədə və ictimai yerlərdə ağlarla eyni hüquq verildi. Onların seçkilərdə iştirakı təmin edildi. Cinsi ayrı-seçkilik qadağan olundu. Lakin ABŞ-nin Vyetnamla müharibəyə cəlb olunması sosial-iqtisadi islahatların yarımçıq qalmasına səbəb oldu.



ABŞ əsgərləri Vyetnamda

1968-ci ildə keçirilən seçkilərdə **Riçard Nikson** prezident seçildi. Bu dövrdə baş verən iqtisadi böhran işsizliyin artmasına və inflyasiyanın güclənməsinə səbəb oldu. Yaxın Şərqdə siyasi vəziyyətin kəskinləşməsi ilə əlaqədar, bölgənin neft istehsal edən ölkələrinin ABŞ-ni neftlə təmin etməkdən imtina etməsi nəticəsində enerji böhranı başladı. Hökumət təcili tədbirlər həyata keçirdi. Yoxsullara maddi yardım göstərildi və ərzaq talonları paylanıldı.

Beynəlxalq aləmdə qüvvələr nisbətinin dəyişməsi və dünya sosializm sisteminin mövqeyinin güclənməsi nəticəsində ABŞ-nin xarici siyasətində dəyişiklik baş verdi. Sovet İttifaqı ilə danışıqlar dövrü başladı. 1973-cü ildə Vyetnamda müharibənin dayandırılmasına dair razılıq əldə olundu. Müharibədə məğlub olan Amerika ordusu Cənubi Vyetnamdan çıxarıldı.

**S** **ABŞ-nin Vyetnama müdaxiləsi onun beynəlxalq nüfuzuna necə təsir göstərdi?**

Layihə



SSRİ və ABŞ arasında raket əleyhinə müdafiə və strateji hücum silahlarının məhdudlaşdırılması və azaldılması sahəsində bağlanmış müqavilə də böyük əhəmiyyət kəsb etmişdir. Həmin müqavilələrin bağlanması nüvə müharibəsi təhlükəsini azaltmış, silahların güclü növlərinin azaldılmasını təmin etmişdir.

Növbəti prezident seçkiləri zamanı baş verən **"Uotergeyt məsələsi"** siyasi böhrana səbəb oldu. Nikson tərəfdarlarının rəqib partiyanın mənzil qərargahının yerləşdiyi Uotergeyt hotelində dinləmə qurğusu yerləşdirməsi böyük səs-küyə səbəb oldu. Vəzifədən kənarlaşdırılmaq təhlükəsi ilə üzləşən Nikson 1974-cü ildə istefa verdi.



**Riçard Nikson**

1970-ci illərin ortalarında ABŞ-də iqtisadi böhran baş verdi. İnflyasiya nəticəsində qiymətlər qalxdı, sənaye istehsalı azaldı, əmək haqqı aşağı düşdü və işsizlik artdı. Bu dövrün xarici siyasəti Birləşmiş Ştatların imperialist maraqlarının müdafiəsinə, kapitalizm dünyasında onun lider rolunun saxlanmasına, bu rolun stabilliyinin azaldılmasına qarşı yönəldilmiş bütün qüvvələrə qarşı mübarizəyə istiqamətlənmişdi.

S

**Sizcə, "Uotergeyt məsələsi" ilə bağlı yaranmış siyasi qalmaqalı demokratik dəyər hesab etmək olarmı?**

# İqtisadi inkişaf modelləri

1980-ci ildə **Ronald Reyqan** prezident seçildi. Reyqan hökuməti daxili siyasətdə ölkəni böhrandan çıxartmaq xətti götürmüşdü.

Onun **"Reyqanomika"** adlanan proqramının əsasını vergilərin və dövlət xərclərinin azaldılması tuturdu. Xüsusi sahibkarlığın dirçəldilməsi üçün tədbirlər görüldü və sənayeyə kapital qoyuluşu artırıldı. Enerji problemini həll etmək üçün daxili bazarda neft üzərində dövlət nəzarəti ləğv edildi və xaricdən gətirilən neftin həcmi artdı. İnflyasiya və işsizlik aşağı düşdü. Elmi-texniki tərəqqinin nailiyyətlərindən istifadə dünya iqtisadiyyatında ABŞ-nin mövqeyini möhkəmləndirdi. Bütün bunlarla yanaşı, hərbi xərclər də xeyli artırıldı. Qərbi Avropada ortamənzilli raketlərin yerləşdirilməsi işi davam etdirildi. Latın Amerikası ölkələrinə qarşı yenidən "Böyük dəyənək" siyasəti yeridildi. Sosialist ölkələri əleyhinə fəaliyyət genişləndirildi. Reyqan SSRİ-ni iqtisadi cəhətdən zəiflətməyi ABŞ-nin əsas məqsədi olduğunu bildirirdi. SSRİ və ABŞ arasında siyasi dialoqun inkişaf etməsi və dərinləşməsi böyük nailiyyət idi. Dövlət başçıları arasında 1985–1988-ci illərdə ikitərəfli görüşlərin keçirilməsi nəticəsində yaxınmənzilli raketlərin ləğvi haqqında müqavilə bağlandı. Bu hadisə beynəlxalq vəziyyətin yaxşılaşmasına müsbət təsir göstərdi.

T

R.Reyqanın daxili siyasətini dəyərləndirin.



**Ronald Reyqan**

Layihə



**Bakı, 1990-cı il**

1990-cı illərin əvvəllərində ABŞ İran körfəzində baş verən münaqişəyə hərbi müdaxilə etdi. Bu dövrdə SSRİ-nin dağılması ilə dövlətlərarası münasibətlərdə böyük dəyişiklik baş verdi. ABŞ dünyanın yeganə super gücü missiyasını daşımağa başladı. 1992-ci ildə **Bill Klinton** prezident seçildi. O, ***"üçüncü yol"*** siyasətini həyata keçirdi. Onun daxili siyasətinin əsasında sosial islahatların aparılması dururdu. B.Klintonun dövründə ABŞ əhalisinin həyat səviyyəsi yüksəldi. Hərbi xərclər azaldıldı. Büdcə kəsiri xeyli aşağı düşdü. B.Klinton xarici siyasətdə liberal mövqe tutdu. ABŞ-nin Rusiya ilə münasibətlərinin normallaşdırılması, Balkanlarda baş verən müharibədə sülhün imzalanmasına nail olması, İsrail və Fələstin arasında münasibətlərin nizama salınmasına cəhd göstərməsi, Qarabağ münaqişəsinin həll edilməsi məqsədilə yaradılmış ATƏT-in Minsk qrupu həmsədrlərindən biri kimi fəaliyyətə başlaması məhz Klintonun adı ilə bağlıdır. Onun xarici siyasəti İkinci dünya müharibəsindən sonra elan edilmiş "çəkindirmə strategiyası"ndan ***"genişləndirmə strategiyası"***na keçid əsasında qurulmuşdu.



**Bill Klinton**

**T** B.Klinton və R.Reyqanın fəaliyyətlərini müqayisə edin.

# ABŞ XXI yüzillikdə

ABŞ XXI yüzillikdə. ABŞ XXI yüzilliyə güclü iqtisadi potensialla daxil oldu. O, dünya iqtisadiyyatının əsas güc mərkəzlərindən biridir. ABŞ elmi-texniki tərəqqinin bütün nailiyyətlərini özündə cəmləşdirən inkişaf etmiş sənaye və kənd təsərrüfatına malikdir. Dünya ticarətində əsas rol oynayır. ABŞ-nin ümummilli məhsulu 18 trilyon dollar təşkil edir. İllik büdcə gəliri 4,5 trilyon dollara çatır. ABŞ həmçinin dünyanın əsas hərbi gücüdür. Müasir silahların yarıdan çoxu onun payına düşür.

**T** B.Klinton və R.Reyqanın fəaliyyətlərini müqayisə edin.

2001-ci il sentyabrın 11-də Nyu-York və Vaşinqtonda terror aktları törədildi. Özünü beynəlxalq terrorizmə qarşı mübarizənin başlıca qüvvəsi hesab edən ABŞ bundan istifadə edib Əfqanıstana və İraqa müdaxilə etdi. Burada mövcud olan rejimlər devrildi.

2008-ci ildə ABŞ tarixində ilk dəfə bir qaradərili – **Barak Obama** prezident seçildi. Onun hakimiyyəti dünya iqtisadi böhranının baş verdiyi bir vaxta təsadüf etdi.

2020-ci ilin prezident seçkiləri **Co Baydenin** qələbəsi ilə başa çatdı. O, xarici siyasətdə Rusiyaya qarşı sərt çıxışları ilə seçilir. Rusiyanın Ukraynaya müdaxiləsini pisləyən ABŞ açıq şəkildə Ukraynaya hərbi və maliyyə yardımı göstərir.



**Co Bayden**

**T** ABŞ prezidentlərinin xarici siyasəti ilə bağlı cədvəl tərtib edin.

Layihə

18

# BÖYÜK BRITANİYA, FRANSA, ALMANİYA VƏ İTALİYA

Uinston Çörçill, "Dəmir ledi", Folklend böhranı, "alman möcüzəsi", "Təmiz əllər"

## BÖYÜK BRİTANİYA

Böyük Britaniya müharibədən qalib çıxsa da, onun nəticələri siyasi və iqtisadi cəhətdən ağır oldu. Müharibəyə çəkilən xərclərə görə dövlət borcu xeyli artdı. Nəticədə İngiltərənin ABŞ-dən asılılığı gücləndi. Dünya müharibəsi həmçinin İngiltərənin əsas gəlir mənbələrindən biri olan müstəmləkə sisteminin dağılmasına səbəb oldu.

S **İkinci dünya müharibəsinin İngiltərə üçün nəticələri necə oldu?**

1945-ci ildə keçirilən parlament seçkilərində leyboristlər partiyası qələbə qazandı. **Klement Etli** hökumət təşkil etdi.



**Klement Etli**

Leyborist partiyasının daxili siyasətində milliləşdirmə mühüm yer tuturdu. Bir çox sənaye müəssisələri və banklar əvəzi ödənilməklə milliləşdirildi. Əhaliyə dövlət tərəfindən pulsuz tibbi yardım göstərilməyə başlandı. Həmkarlar İttifaqının hüquqları bərpa olundu. Lordlar palatasının hüquqları məhdudlaşdırıldı. Görülən tədbirlər nəticəsində sənaye məhsulu istehsalı artdı və ixracat genişləndi. Bunda ABŞ-dən böyük miqdarda maliyyə yardımı və borcun alınması da mühüm rol oynadı. Leyboristlər ABŞ ilə müttəfiqlik münasibətlərini möhkəmləndirdilər. İngiltərə 1949-cu ildə ABŞ-nin rəhbərliyi ilə yaradılan **NATO**★ hərbi-siyasi təşkilatına üzv oldu.

★ *NATO* – Şimali Atlantika Müqaviləsi Təşkilatı.

Xaricə kapital qoyuluşuna görə Böyük Britaniya ABŞ-dən sonra ikinci idi. Milli azadlıq hərəkatının güclənməsi nəticəsində leyboristlər bəzi müstəmləkələrə müstəqillik verdi.

T Leyborist hökumətinin daxili və xarici siyasətinə aid cədvəl tərtib edin.

1950-ci illərin əvvəlində ölkəni böhran bürüdü. Növbədənkənar parlament seçkilərində mühafizəkarlar qalib gəldilər. **Uinston Çörçill** yenidən hökumət təşkil etdi (1951–1955).



**Uinston Çörçill**

Səhiyyə, təhsil, mənzil tikintisi və sosial sığortaya ayrılan xərclər azaldıldı. Bəzi sahələrdə milliləşdirmə ləğv edildi. Avtomobil yük nəqliyyatı sahəsi və poladtökmə zavodları əvvəlki sahiblərinə qaytarıldı.

Layihə

1950-ci illərdə Böyük Britaniya iqtisadi yüksəliş zolağına daxil oldu. Lakin o, inkişaf sürətinə görə ABŞ və qabaqcıl Avropa ölkələrindən geri qalırdı. Buna təsir edən əsas amillərdən biri isə İngiltərəni xammal və ərzaqla təmin edən müstəmləkələrin müstəqillik qazanması idi. Müstəmləkə imperiyasının saxlanması üçün hərbi xərclərin artırılması da iqtisadi inkişafa zərbə vurdu. Artıq müstəmləkə imperiyasını qoruyub saxlamaq mümkün deyildi.

T Böyük Britaniyanın iqtisadi geriliyinə səbəb olan amilləri müəyyən edin.

Bu dövrdə Qərbi Avropada siyasi və iqtisadi sahədə əməkdaşlığın gücləndirilməsi istiqamətində mühüm addımlar atıldı. 1957-ci ildə Avropa İqtisadi Birliyi (AİB) təşkil edildi. Böyük Britaniya qitədə gedən bu prosesdən kənarda qalmışdı. 1973-cü ildə Böyük Britaniya da AİB-ə daxil oldu. 1960-cı illərin sonlarında Şimali İrlandiyanın katolik azlığı vətəndaş bərabərliyi uğrunda mübarizəyə başladı ki, bu da öz növbəsində, kütləvi iğtişaşların baş verməsinə səbəb oldu. İngiltərənin Olsterə qoşun yeritməsi isə vəziyyəti daha da gərginləşdirdi.

S **Ölkədə baş verən siyasi gərginliyin əsas səbəbi nə idi?**

1979-cu ildə keçirilən parlament seçkilərində mühafizəkarlar partiyası qalib gəldi. **Marqaret Tetçer** Baş nazir oldu (1979–1990). O, ölkə tarixinin ilk qadın Baş naziri idi. *"Dəmir ledi"* adlandırılan Tetçerin daxili siyasətinin əsas istiqamətini xüsusi sahibkarlığın dirçəldilməsi təşkil edirdi. Buna görə iqtisadiyyatın dövlət tənzimlənməsini ixtisar etmək üçün qəti addımlar atıldı.Vergilər azaldıldı, bir sıra sənaye sahələri özəlləşdirildi. Keyfiyyət xarakterli dəyişikliklərin aparılması nəticəsində iqtisadi inkişaf baş verdi.

Xarici siyasətdə ABŞ ilə əməkdaşlıq daha da gücləndirildi. 1982-ci ildə baş verən Folklend böhranı Böyük Britaniyanın beynəlxalq aləmdə siyasi dirçəlişinin nümayişi oldu. Argentinanın Folklend adalarını işğal etməsi İngiltərə ilə münaqişəyə gətirib çıxartdı. Adaya qoşun yeridən İngiltərə Argentinanı təslim olmağa məcbur etdi. Böyük Britaniyanın qələbəsi ilə başa çatan bu hadisə Tetçer hökumətinin şöhrətini artırdı.

T M.Tetçerin daxili və xarici siyasətini dəyərləndirin.



**Marqaret Tetçer**

XX yüzilliyin sonları – XXI yüzilliyin əvvəllərində İngiltərədə mühafizəkar və leyborist hökumətlərinin yeritdiyi xarici siyasət xətti eynilik təşkil edir. Bu xətt ABŞ və NATO ilə əməkdaşlığa əsaslanır. 11 sentyabr hadisələrindən sonra Böyük Britaniya ABŞ-nin Əfqanıstan və İraqda apardığı hərbi əməliyyatlara yardım etdi. Nüvə silahına malik, BMT və NATO-da əsas söz sahiblərindən biri olan Böyük Britaniya beynəlxalq əhəmiyyətli məsələlərin həllində aktiv iştirak edir. O, dünyanın iri maliyyə mərkəzlərindən biri olub, xaricə kapital qoyuluşuna görə yalnız ABŞ-dən geri qalır. Hazırda Britaniyanın Baş naziri əslən hindli olan **Rişi Sunak**dır.



**Rişi Sunak**

S **Böyük Britaniyanın ABŞ ilə yaxın münasibətlərə malik olmasının səbəbləri hansılardır?**

Layihə

# FRANSA

İkinci dünya müharibəsi Fransa həyatının bütün sahələrinə ciddi təsir etdi. Dörd il davam edən işğal və hərbi əməliyyatlar ölkəyə böyük ziyan vurdu. Fransa işğaldan azad olunduqdan sonra – 1944-cü ilin payızında **Şarl de Qoll**un rəhbərliyi ilə **Müvəqqəti hökumət** təşkil edildi. Şarl de Qoll demokratik rejimi bərpa etdi. Nasistlərlə əməkdaşlıq edənlər məhkəmə məsuliyyətinə cəlb olundu. Fransanın aparıcı siyasi partiyaları ölkənin idarəetmə formasını parlamentli respublika şəklində görürdü. Şarl de Qoll isə ABŞ nümunəsində prezidentli respublikanın yaradılmasını istəyirdi. Fikir ayrılıqları nəticəsində Şarl de Qoll istefa verməyə məcbur oldu.



Şarl de Qoll

S

**Fransada baş verən siyasi fikir ayrılıqlarının səbəbi nə idi?**

T

Verilmiş məlumat əsasında Şarl de Qollun şəxsiyyətini dəyərləndirin.

M

Fransanın azad olunması uğrunda mübarizədə Şarl de Qollun döyüş yoldaşlarından biri də azərbaycanlı Əhmədiyyə Cəbrayılov olmuşdur. Saysız-hesabsız döyüş tapşırıqlarını yerinə yetirən Əhmədiyyə fransız ordusunun tərkibində döyüşlərə qatılır. O, vətənə qayıtmaq istəyəndə Şarl de Qoll ona mane olmaq istəsə də, xeyri olmur. Armed Mişel ləqəbli Əhmədiyyə Cəbrayılov SSRİ-yə qayıdır. Şarl de Qoll Sovet rəhbərlərinin iştirakı ilə keçən məclislərin birində Əhmədiyyə barəsində onları riqqətə gətirəcək bir söz deyir: "Mən bu Azərbaycan oğluna görə SSRİ ilə Fransanın yaxınlaşmasına qərar verdim".



Əhmədiyyə Cəbrayılov

1946-cı ildə Fransada yeni konstitusiya qəbul edildi. Bununla da ölkə tarixində **Dördüncü Respublika** fəaliyyətə başladı. Daxili siyasəti narazılıqla qarşılanan Dördüncü Respublikanın xarici siyasətində əsas məsələlərdən biri müstəmləkələrin qorunub saxlanılması idi. Müharibədən sonra dünya müstəmləkə sisteminin dağılması prosesi Fransa işğalı altında olan ərazilərdən də yan keçmədi. Əlcəzairdə etiraz çıxışlarının baş verməsi Fransanın ora hərbi müdaxilə etməsinə səbəb oldu. Fransa ordusu Əlcəzairdə



Fransız əsgərlərinin əlcəzairliləri əsir alması

bəşəriyyət əleyhinə kütləvi qətliamlarla müşahidə olunan cinayətlər törətdi. Bu, hökumətin nüfuzuna böyük zərbə vurdu və Dördüncü Respublika süqut etdi.

**T** Dördüncü Respublikanın süqutunun səbəblərini müəyyən edin.

1958-ci ildə Şarl de Qollun təklif etdiyi konstitusiya qəbul edildi. Fransa prezident respublikası oldu. Beşinci Respublikanın ilk Prezidenti Şarl de Qoll seçildi. İqtisadiyyatın modernləşdirilməsi nəticəsində Fransa inkişaf etmiş müasir sənaye dövlətinə çevrildi. Müstəmləkə məsələsi dinc yolla həll olundu. Onlara müstəqillik verilməsi nəticəsində Fransa müstəmləkə imperiyası süqut etdi və on dörd yeni dövlət yarandı.

Şarl de Qoll ABŞ-nin Avropadakı təsirini zəiflətmək üçün Fransanın nüvə dövləti olmasına nail oldu və ölkənin müdafiə qüdrətini artırdı. Fransa NATO-nun hərbi strukturundan çıxdığını elan etdi.

1969-cu ildə Fransanın yeni ərazi bölgüsü ilə bağlı keçirilən referendumda iştirak edənlərin əksəriyyəti Şarl de Qollun təklifinə səs vermədi. Nəticədə Şarl de Qoll istefa verdi və bir daha siyasətlə məşğul olmadı.

**S** **Şarl de Qollun iki dəfə hakimiyyətdən istefa verməsini necə qiymətləndirirsiniz?**



1970-ci illərdə iqtisadi vəziyyətin pisləşməsi sosialistlərin hakimiyyətə gəlməsinə şərait yaratdı. 1981-ci ildə **Fransua Mitteran** prezident seçildi.



**Fransua Mitteran**

Yeni hökumətin ilk vəzifəsi ölkəni iqtisadi böhrandan çıxarmaq idi. Sosial-iqtisadi sahədə islahatlar aparıldı. Sənayedə dövlət bölməsinin payı artırıldı. Əmək münasibətləri tənzimləndi. NATO və ABŞ ilə əməkdaşlıq inkişaf etdirildi. 1991-ci ildə Fransa AİB-nin Avropa İttifaqına çevrilməsinin əsasını təşkil edən sazişi imzaladı.

XXI yüzilliyə Fransa dünyanın inkişaf etmiş ölkələrindən biri kimi qədəm qoydu. Bu dövlət beynəlxalq aləmdə zəif inkişaf etmiş dövlətlərə və onların xalqlarına qarşı aqressiv münasibəti ilə seçilir. Xüsusilə türk və müsəlman xalqlarına qarşı Fransanın tutduğu mövqeni düşmənçilik siyasəti hesab etmək olar. Bu siyasəti 30 ildən artıq davam edən Ermənistan-Azərbaycan münaqişəsində Fransanın oynadığı rolda da izləmək mümkündür. Bunu Fransanın Cənubi Qafqaz regionunda vəziyyətin gərginləşməsinə xidmət edən, sülh prosesinin həyata keçirilməsinə, iki ölkə arasında münasibətlərin normallaşmasına zərbə vuran fəaliyyəti sübut edir.

Hazırda Fransanın prezidenti **Emmanuel Makron**dur. O, sələflərinin ona miras qoyub getdiyi siyasəti davam etdirir.

**S** **Fransanın türk və müsəlman xalqlarına qarşı yeritdiyi siyasəti irqçilik hesab etmək olarmı?**



Berlin səddi

# ALMANİYA

İkinci dünya müharibəsi Almaniyanı fəlakətli bir vəziyyətə saldı. Ölkə ABŞ, Böyük Britaniya, Fransa və SSRİ arasında bölüşdürüldü.

**S** **Almaniyanın bölünməsi nəyin nəticəsi idi?**

Almaniyaya qarşı münasibətdə Qərb dövlətlərinin SSRİ ilə mənafeləri toqquşurdu. Onlar SSRİ-nin tabeliyində olan ərazidən kommunist ideyalarının öz işğal zonalarına sıçramasından ehtiyat edirdilər.

Almaniyanın iqtisadi cəhətdən zəifləditməsindən imtina edən Qərb dövlətləri təzminatın alınmasını da dayandırdılar. 1949-cu ildə ingilis, fransız və amerikan işğal zonalarının birləşdirilməsi nəticəsində paytaxtı Bonn şəhəri olan **Almaniya Federativ Respublikası** yaradıldı.

Həmin ildə SSRİ-nin nəzarəti altında olan ərazidə paytaxtı Şərqi Berlin olan **Almaniya Demokratik Respublikası** təşkil edildi. AFR-in ilk federal kansleri (Baş naziri) **Konrad Adenauer** oldu.

Adenauerin hakimiyyəti dövründə “alman möcüzəsi” baş verdi, ölkə yüksək iqtisadi inkişafa qədəm qoydu. İstehsal olunan məhsulun böyük əksəriyyətinin ixrac olunması nəticəsində milli gəlir çoxaldı. Almaniyanın sürətli inkişafına hərbi xərclərin az olması və ABŞ kapitalının ölkəyə daxil olması da təsir göstərdi. 1950-ci illərdə ərazisində işğal rejimi ləğv olunan AFR NATO üzvlüyünə qəbul olundu. O, Avropa İqtisadi Birliyinin təsisçilərindən biri oldu.



Konrad Adenauer

Layihə



Berlin səddinin dağıdılması, 1989-cu il

1970-ci illərdə ADR-lə münasibət yaradıldı. Bu hər iki dövlətin BMT-yə üzv qəbul edilməsinə şərait yaratdı. İki alman dövləti arasında münasibətlərin qurulması gələcəkdə onların birləşməsinə yol açdı. ADR ərazisində yaşayan almanlar iqtisadi cəhətdən daha inkişaf etmiş AFR-ə birləşməni məqbul hesab edirdi. Bu yöndə xalq hərəkatının baş verməsi nəticəsində 1990-cı ildə Almaniya vahid dövlətdə birləşdirildi. O, Qərbi Avropanın ərazisinə görə üçüncü, əhalisinin sayına görə isə birinci ölkəsi oldu.

**S** **Sizcə, vahid Almaniyanın yaradılması iki yerə bölünmüş ölkələrin birləşdirilməsi yolunda nümunə ola bilərmi?**



AFR və ADR-in birləşməsi

## İTALİYA

1946-cı ildə İtaliya respublika elan edildi. Yeni konstitusiyaya əsasən hər cür ayrı-seçkilik qadağan olundu. Qadınlarla kişilərə bərabər hüquq verildi. İqtisadi inkişaf üçün tədbirlər görüldü. Ucuz işçi qüvvəsinin olması və ABŞ-dən alınan maliyyə yardımı nəticəsində iqtisadiyyatda dirçəliş baş verdi. 1960–80-ci illərdəki iqtisadi yüksəliş daxili problemləri tamamilə aradan qaldırmadı. Mafiya qruplarının və terrorçu təşkilatların fəaliyyət göstərməsi, məmur aparatında korrupsiya və rüşvətxorluq hallarının artması ziddiyyətləri daha da kəskinləşdirdi. Nəticədə 1992-ci ildə ölkədə "*Təmiz əllər*" adını almış məhkəmə prosesləri keçirildi. XXI yüzilliyin əvvəllərində İtaliya iqtisadi və siyasi böhranla üzləşdi. Hazırda İtaliyanı tarixinin ilk qadın Baş naziri olan **Corca Meloni** idarə edir.

**T** İtaliyanın daxili siyasətində müsbət və mənfi cəhətlərini cədvəl şəklində təqdim edin.

| | |
|---|---|
| Müsbət cəhətlər | |
| Mənfi cəhətlər | |

19

# SSRİ, RUSİYA MÜASİR DÖVRDƏ

Nikita Xruşşov, SSRİ-nin "qızıl əsri", Mixail Qorbaçov, "Yenidənqurma", Vladimir Putin, Cövhər Dudayev, Müstəqil Dövlətlər Birliyi

## SSRİ İkinci dünya müharibəsindən sonra

SSRİ İkinci dünya müharibəsindən qalibiyyətlə çıxdı. Qələbə onun dünyadakı siyasi nüfuzunu xeyli artırdı. O, dünyanın super güclərindən birinə çevrildi. Bununla yanaşı, SSRİ bu müharibədə milyonlarla insan itkisi vermiş və böyük təsərrüfat dağıntılarına məruz qalmışdı. Müharibədən sonra qarşıda duran əsas vəzifə dinc quruculuq yolu ilə ölkəni inkişaf etdirmək idi. Qısa müddət ərzində minlərlə sənaye müəssisəsi bərpa edildi, yeniləri açıldı, kənd təsərrüfatına diqqət artırıldı. Pul islahatı keçirildi, məhsul bölgüsündə talon sistemi ləğv edildi, eləcə də dövlət tərəfindən kütləvi tələbat mallarının qiymətinə nəzarət artırıldı. Nəticədə Sovetlər İttifaqının iqtisadi vəziyyəti düzəlməyə başladı.



Müharibədən sonra da ölkədə repressiya davam etdirilirdi. 1953-cü ildə Stalinin ölümü ölkəni yeni repressiya dalğasından xilas etdi. Beləliklə, hakimiyyətə **Nikita Xruşşov** gəldi. Xruşşovun hakimiyyətə gəlməsi ilə siyasi sistemdə nisbətən yumşalma baş verdi. Stalinin şəxsiyyətinə pərəstiş pislənildi, 30–40-cı



Nikita Xruşşov

illərdə repressiyaya məruz qalmış yüz minlərlə insan bəraət aldı. Xruşşovun təşəbbüsü ilə kənd təsərrüfatının inkişaf etdirilməsi yolunda tədbirlər planı hazırlandı. Bu plana görə xam torpaqların hesabına əkin sahələrinin artırılması və kənd təsərrüfatının dirçəldilməsi nəzərdə tutulurdu. Lakin sərf edilən böyük zəhmət gözlənilən nəticəni vermədi.
Xruşşovun yürütdüyü daxili və xarici siyasətdən narazı olan qüvvələr 1964-cü ildə onu vəzifədən kənarlaşdırdılar. Hakimiyyətə **Leonid Brejnev** (1964–1982) gəldi.



Leonid Brejnev

**Sizcə, Xruşşovun hakimiyyəti dövrü ilə Stalinin hakimiyyəti dövrü arasında əsas fərq nə idi? Fikrinizi əsaslandırın.**

Stalin və Xruşşovun hakimiyyəti dövrünə aid sinxron cədvəllər hazırlayın.

Brejnevin hakimiyyəti dövrü **SSRİ-nin "qızıl əsri"** kimi qiymətləndirilir. Bu dövrdə Stalini ittiham etməkdən əl çəkildi, Xruşşovun dövründə irəli sürülmüş bir sıra tədbirlər ləğv edildi. Yeni sənaye müəssisələri açıldı, xammal yataqlarının kəşfi hesabına xaricə xammal ixracı artırıldı. Lakin əldə edilən gəlirdən düzgün istifadə edilmədi. İqtisadiyyatın davamlı inkişafının təmin edilməsi əvəzinə vəsaitlər silahlanmaya sərf olundu, geridə qalmış "sovet respublikalarına" qardaş yardımı kimi xərcləndi. Siyasi həyatda ordunun və təhlükəsizlik orqanlarının rolu daha da artdı. Müdafiə proqramının maliyyələşdirilməsi yüksəldi. Nəticədə Brejnevin hakimiyyətinin sonuna yaxın SSRİ iqtisadi böhran dövrünə qədəm qoydu. Böhranlı vəziyyətin əlamətləri hələ 1970-ci illərin ortalarından görünürdü. Elmi-texniki tərəqqi ləngiyirdi. Sənayedə avadanlığın köhnəlməsi, infrastrukturun zəifliyi, maddi ehtiyatlar qıtlığının meydana gəlməsi nəzərə çarpırdı. Əmək məhsuldarlığının orta illik artımı iki dəfədən çox azalmışdı.





SSRİ-nin dağılması

Belə bir dövrdə – 1985-ci ildə hakimiyyətə **Mixail Qarbaçov** gəldi. Ölkəni iqtisadi və siyasi böhrandan çıxartmaqdan ötrü **"Yenidənqurma"** siyasəti irəli sürüldü. Yenidənqurmanın iqtisadi dəyişikliklər və yeni obyektlərin tikilməsi ilə deyil, mövcud müəssisələrin modernləşdirilməsi hesabına aparılması nəzərdə tutulurdu. Başlıca olaraq maşınqayırmanın sürətli inkişaf etdirilməsi irəli sürüldü. İslahata əsasən maşın və avadanlığın istehsalı sənayenin başqa sahələrini ötüb keçirdi. İntizamın möhkəmləndirilməsi və maddi maraq prinsipinin artırılması vasitəsilə "insan faktorunun" fəallaşdırılmasına xüsusi diqqət ayrıldı. Ticarət və xidmət sahəsində xüsusi sahibkarlığa icazə verildi. Bütün bu dəyişikliklər, təbii olaraq, sosializm çərçivəsində həyata keçməli idi.

Görülən tədbirlərə baxmayaraq, ölkədə dərinləşən sosial-iqtisadi və siyasi böhranın qarşısını almaq mümkün olmadı. SSRİ-nin bir sıra yerlərində (Mərkəzi Asiyada, Qafqazda, Dnestryanı bölgədə) milli münaqişə ocaqları yarandı və dövlət dağılmağa başladı. 1990-cı ildə Baltikyanı ölkələrin SSRİ-nin tərkibindən çıxması ittifaqın süqutunu labüd etdi. 1991-ci ilin dekabrında SSRİ mövcudluğunu dayandırdı və onun yerinə 15 müstəqil respublika yarandı.

**Sizcə, SSRİ-də baş verən iqtisadi böhranın əsas səbəbi nə idi? Fikrinizi əsaslandırın.**

SSRİ-nin dağılmasını özündə əks etdirən cədvəl hazırlayın.

# Rusiya

Yeni yaranan dövlətlərdən biri də Rusiya idi. Keçmiş İttifaqın bir çox idarə və təsisatı Boris Yeltsinin prezidentliyi ilə Rusiyanın sərəncamına verildi. Rusiya dövlətinin rəsmi adı – RSFSR dəyişdirilərək Rusiya Federasiyası (RF) oldu. Müstəqil Rusiyanın daxili siyasi vəziyyəti son dərəcə mürəkkəb idi. İslahatlar lazım idi. İslahatların əsasını yeni dövlətçiliyin formalaşması, planlı sosialist iqtisadiyyatının bazar iqtisadiyyatına keçməsi təşkil edirdi. İctimai həyatın yenilənməsi ləngiyirdi. İstehsalın aşağı düşməsi, əhalinin böyük əksəriyyətinin həyat səviyyəsinin pisləşməsi, böyük həcmdə xarici borclar, müxalifətçilik əhvali-ruhiyyəsi islahatlara mane olurdu. Bununla belə, tədricən cəmiyyətin modernləşdirilməsi gedirdi. Seçkili idarəetmə orqanları yaradılır, çoxpartiyalılıq formalaşırdı. İqtisadi sahədə xüsusi mülkiyyət, kapitalist istehsalı, bazar münasibətləri bərqərar olurdu.

2000-ci ildə keçirilən seçkilərin nəticəsində **Vladimir Putin** ölkə prezidenti oldu. V.Putinin əsas məqsədi cəmiyyətin sabit inkişafının təminatı olan güclü dövlət idarəçiliyinin yaradılması idi. Cəmiyyətin kriminallaşmasının aradan qaldırılması, iqtisadiyyatın inkişafı üçün hüquqi və əlverişli investisiya şərtlərinin yaradılması, həyat səviyyəsinin yüksəldilməsinə diqqət artırıldı.

S

**Rusiyada kapitalist münasibətlərinin inkişafı prosesini necə qiymətləndirirsiniz?**



# Çeçenistan problemi

Rusiya Federasiyasına SSRİ-dən miras qalan ən mürəkkəb məsələlərdən biri millətlərarası münasibətlər problemidir. Vəziyyəti gərginləşdirən şərait ondan ibarət idi ki, yeni Rusiyaya federativ quruluşun əvvəlki etnik prinsipi miras qalmışdı. Fərq isə yalnız onda idi ki, federasiyanın subyektləri keçmiş Rusiya muxtariyyətləri idi. 1992-ci ildə Rusiya prezidenti ilə respublikaların nümayəndələri arasında imzalanan federasiya müqaviləsi problemi siyasətdən hüquq sahəsinə keçirməklə, ölkənin parçalanması təhlükəsinin qarşısını aldı. Milli respublikalar vilayət və diyarlardan fərqli olaraq, daha çox səlahiyyət alırdı. **Çeçenistan** və **Tatarıstan** müqaviləni imzalamadığından Rusiya Federasiyasının bütövlüyü sual altında qalırdı. Bir çox milli hərəkatların proqram sənədlərində separat tələblər yer alırdı.





Cövhər Dudayev

Müstəqillik uğrunda cərəyan edən hadisələrin mərkəzi Şimali Qafqaz oldu. 1990-cı ilin yazında Çeçen Xalq Konqresi Çeçenistanın müstəqilliyi haqqında qətnamə qəbul edərək, onu **İçkeriya Respublikası** elan etdi. İstefada olan general **Cövhər Dudayev** Çeçen-İnquşetiya Respublikasının prezidenti seçildi. 1992-ci ilin iyununda İnquşetiya Çeçenistandan ayrılaraq, Rusiya Federasiyasının tərkibində İnquş Respublikasını elan etdi.

Çeçenistanı mərkəzi hakimiyyətə tabe etmək üçün Rusiya Çeçenistana qoşun yeritdi. **1994–1996-cı illəri əhatə edən Birinci Çeçen müharibəsi başladı.** Müharibənin gedişində C.Dudayev öldürülsə də, vəziyyət dəyişmədi. Bağlanan sazişə əsasən rus qoşunları Çeçenistanı tərk etdi.

Çeçenistanın statusunun həlli məsələsi beş il müddətinə təxirə salındı. 1999-cu ilin payızında Çeçenistan ətrafında vəziyyət yenidən kəskinləşdi. **İkinci Çeçen müharibəsi başladı.** Müharibəyə daha ciddi hazırlaşan Rusiya istəyinə nail olmağı bacardı.

**S** **Sizcə, İkinci Çeçen müharibəsində Rusiyanın qələbə qazanmasına onun ciddi hazırlaşması səbəb oldu?**

## Qonşu dövlətlərlə problemlər

1991-ci ilin dekabrında SSRİ dağıldıqdan sonra onun tərkibindən ayrılan respublikalar **Müstəqil Dövlətlər Birliyini** (MDB) yaratdı. Baltikyanı respublikalarından başqa, keçmiş sovet respublikalarının hamısı MDB-də təmsil olundu. Rusiya keçmiş sovet məkanında nüfuzunu və varlığını MDB çərçivəsində səmərəli əməkdaşlıq mexanizmi əsasında davam etdirmək niyyətində idi. Birlik Rusiyanın aparıcı rolunu saxlamaq şərtilə möhkəm geosiyasi ittifaqa çevrilməli idi. MDB-yə daxil olan bir sıra dövlətlər arasında həll olunmamış problemlər, münaqişələr var idi.

Qara dəniz donanmasına görə Rusiya ilə Ukraynanın münasibətləri gərgin olaraq qalırdı. Qəti olaraq bu məsələ 1997-ci ilin mayında öz həllini tapdı.



İkinci Çeçen müharibəsi



Sevastopol hərbi-dəniz bazası



Rusiya-Ukrayna müharibəsi

Rusiya Qara dəniz donanmasının 87 faizinə sahib olmaqla, Sevastopol hərbi-dəniz bazasını icarəyə götürmək hüququ aldı. Rusiya və Ukrayna Dostluq, əməkdaşlıq və tərəfdaşlıq haqqında müqavilə imzaladı. Müqavilənin imzalanmasına baxmayaraq, Krım yarımadası Ukrayna ilə Rusiya arasında mübahisəli yer kimi qalırdı.

S

Qərblə Rusiya arasında qalan Ukraynada vəziyyətin mürəkkəbləşməsindən istifadə edən qüvvələr Krımın Rusiyaya birləşdirilməsi məsələsini gündəmə gətirdilər. Krım yarımadasında yaşayanların əksəriyyətini Rusiya-Ukrayna ikili vətəndaşlığı olan ruslar təşkil edir. Ukraynada hakimiyyət əleyhinə etiraz aksiyaları başladı.

2013-cü ilin dekabrında ölkədə vəziyyət nəzarətdən çıxdı. Yüz minlərlə aksiya iştirakçısı Azadlıq meydanında iqtidarın istefasını tələb etdi. Ukraynada hakimiyyətin dəyişilməsi Rusiya Prezidenti V.Putin üçün sərfəli deyildi. Belə ki Putin böyüklüyünə görə



Ukraynada məhv edilmiş rus tankı





ikinci şərqi slavyan ölkəsi olan Ukraynanın gələcəkdə Avropa İttifaqının yanında yer almasından ehtiyat edirdi. Odur ki Rusiya rusdilli əhalinin əksəriyyət təşkil etdiyi rayonlarda olduğu kimi, Krımda da yeni hakimiyyətə qarşı müxalifəti dəstəklədi. İlk növbədə, 2014-cü ilin martında Krımın statusu haqqında referendum keçirildi və səs çoxluğu ilə **Krım Muxtar Respublikası** Rusiya Federasiyasının tərkibinə daxil edildi. Krımın Rusiyaya ilhaq edilməsi ilə yanaşı, Ukraynanın **Luqansk** və **Donetsk** bölgələrində separatçı qüvvələr Ukrayna hakimiyyətinə tabeçilikdən imtina etdilər.

S

Ukraynanın NATO-ya üzv olmağa can atmasını öz təhlükəsizliyinə təhdid sayan Rusiya **2022-ci ilin fevralında** bu ölkəyə hücum etdi. Rusiyanın Ukrayna ilə müharibəyə başlaması Qərb ölkələrinin Rusiyaya qarşı yeni sanksiyalar tətbiq etməsinə gətirib çıxartdı.



## Gürcüstan

Rusiyanın Cənubi Osetiyaya görə Gürcüstanla münasibətləri gərgin olaraq qalmaqdadır. Belə ki 2008-ci ilin avqustunda Gürcüstan hərbi qüvvələri Cənubi Osetiyada qayda-qanunu bərpa etmək və yerli separatçı qüvvələrin hərəkətlərinin qarşısını almaq məqsədilə əyalətin ərazisinə daxil oldular. Cavab olaraq Rusiya hərbi qüvvələri müstəqil Gürcrüstanın ərazisinə hücuma keçdilər. Beləliklə, 5 günlük Rusiya-Gürcüstan müharibəsi başladı.



Canlı qüvvə və hərbi texnika cəhətdən Gürcüstan ordusundan qat-qat üstün olan rus qoşunları tezliklə Cənubi Osetiyanın yerli əsgərləri ilə birlikdə gürcü qoşunlarını məğlubiyyətə uğratdılar. Bu müharibə rus və gürcü xalqı arasında dərin uçurum yaratdı. **Abxaziya** və **Cənubi Osetiya** üzərində nəzarəti itirməklə, Gürcüstan suveren ərazisinin 20 faizindən məhrum oldu. Rusiya Gürcüstan münasibətləri bu gün də gərgin olaraq qalmaqdadır.



S

**XX yüzilliyin sonları və XXI yüzilliyin əvvəllərində Qafqazda gedən siyasi prosesləri necə şərh edərdiniz?**

T

Topladığınız materiallar əsasında V.Putinə dair hekayə yazın.

# 20 TÜRK DÜNYASI VƏ İRAN

"Torpaq islahatı haqqında" Qanun Demokrat partiyası Kipr problemi "Ağ inqilab" İslam inqilabı Türk Dövlətləri Təşkilatı

İkinci dünya müharibəsindən sonra yaranmış dövlətlərarası siyasi və iqtisadi sistem Türkiyəyə də təsir göstərdi. SSRİ-nin ərazi iddiaları irəli sürməsi Türkiyəni ABŞ ilə yaxınlaşmağa məcbur etdi. ABŞ Türkiyəyə hərbi-iqtisadi yardım göstərdi.

Ölkədə sosial-iqtisadi və siyasi sahələrdə islahatlar keçirildi. 1945-ci ildə qəbul edilən **"Torpaq islahatı haqqında"** Qanunun məqsədi torpaqsız kəndliləri torpaq mülkiyyətçisinə çevirmək və kənd təsərrüfatında istehsalı artırmaq idi.

Qanunda böyük torpaq sahiblərinin mülklərinin bir hissəsinin ödəniş müqabilində dövlət mülkiyyətinə keçməsi və dövlət torpaqlarının torpaqsız kəndlilərə paylanması nəzərdə tutulurdu. Lakin qanun torpaq sahibləri olan millət vəkillərinin təzyiqi ilə yumşaldıldı. Yalnız dövlət torpaqlarının bir hissəsi kəndlilərə verildi.

T — Torpaq sahibləri olan millət vəkillərinin "Torpaq islahatı haqqında" Qanuna münasibətini dəyərləndirin.

Siyasi sahədə demokratikləşmə həyata keçirildi. Partiyaların yaradılmasına icazə verilməklə çoxpartiyalı sistemə keçildi. 1950-ci il seçkilərində **Demokrat Partiyası** qalib gələrək hakimiyyətə gəldi. Bu dövrdə xarici siyasətdə ABŞ ilə yaxınlaşma gücləndi. SSRİ-nin davam edən təhlükəsinə qarşı Türkiyə 1952-ci ildə NATO-ya daxil oldu.

T — İkinci dünya müharibəsindən sonra Türkiyənin daxili və xarici siyasətində baş vermiş dəyişiklikləri təhlil edin.

İqtisadi sahədə dövlətin fəaliyyətini azaltmaqla özəl bölmənin inkişafı üçün müəyyən işlər görüldü. Qapalı və proteksionist iqtisadi siyasətdən imtina edildi. İqtisadiyyatı inkişaf etdirmək üçün xarici kapital təşviq edildi. Nəticədə Demokrat Partiyasının hakimiyyətinin ilk dövründə iqtisadiyyatda mühüm irəliləyişlər oldu. Lakin 1950-ci illərin ortalarından iqtisadi geriləmə və inflyasiya başlandı. Bu isə əhalinin sosial vəziyyətinə mənfi təsir göstərdi. Hökumət iqtisadi rifahın mövcud olduğunu iddia etsə də, əslində, vəziyyət fərqli idi. İqtisadi vəziyyətin pisləşməsi, hakimiyyətin mətbuat, məhkəmə və ali məktəblərə təzyiqi artırması siyasi vəziyyəti gərginləşdirdi. Belə bir şəraitdə 1960-cı ildə **hərbi çevriliş** baş verdi və ordu hakimiyyəti ələ keçirdi. 1961-ci ildə qəbul edilən yeni Konstitusiya ilə hakimiyyət bölgüsü prinsipi gücləndirildi və icra hakimiyyətinin səlahiyyətləri məhdudlaşdırıldı. İqtisadi sahədə yenidən dövlət nəzarətinin artırılması və xarici məhsulların idxalının məhdudlaşdırılması siyasəti yürüdülməyə başlandı. Planlı və bazar iqtisadiyyatının birgə tətbiq edildiyi **qarışıq iqtisadiyyata** keçildi.

S — **Hakimiyyət bölgüsü prinsipi nədir? Onun əhəmiyyətini dəyərləndirin.**

**Türkiyənin NATO-nun üzvlüyünə qəbul edilməsinə təsir göstərən amillər**

- **Koreya müharibəsində türk əsgərlərinin BMT qüvvələrinin tərkibində iştirak etməsi**
- **ABŞ-nin SSRİ-nin mümkün nüvə hücumuna cavab vermək üçün ona yaxın bölgələrdə hərbi bazalara ehtiyac duyması**

Layihə



Türkiyə, 1950-ci il

## Daxili və xarici köç

XX yüzilliyin ortalarından kənd yerlərindən şəhərlərə köç baş verdi. Kənd təsərrüfatında mexanikləşdirmənin artması, torpaq çatışmazlığı, şəhərlərdə kəndlərə nisbətən iş imkanlarının daha çox olması buna səbəb olmuşdu. Nəticədə bəzi iqtisadi və sosial problemlər yarandı. Əkin sahələri və kənd təsərrüfatı məhsulları istehsalı azaldı. Böyük şəhərlərə əhalinin axını müxtəlif problemlərə səbəb oldu. Əsas problemlər ətraf mühitin çirklənməsi, gecəqondular və planlaşdırılmamış şəhərləşmə, təhsil, səhiyyə, infrastruktur xidmətlərinin zəif olması və cinayətkarlığın artması idi.



Bu dövrdə Türkiyədə baş vermiş digər sosial dəyişiklik xaricə köç ilə bağlı idi. İnsanlar müxtəlif Avropa və bəzi Yaxın Şərq ölkələrinə köç edirdilər.

T

XX yüzilliyin otalarından Türkiyədə əhalinin kəndlərdən şəhərlərə köç etməsinin səbəblərini Azərbaycanın müasir dövrü ilə əlaqələndirərək təhlil edin və onun sosial-iqtisadi nəticələri ilə bağlı mülahizələr irəli sürün.

## Kipr (Kıbrıs) məsələsi

XX yüzilliyin ikinci yarısında Kipr (Kıbrıs) məsələsi Türkiyənin xarici siyasətinin əsas problemlərindən birinə çevrildi. Adanı Yunanıstana ilhaq etmək istəyən millətçi yunanlar türk əhalisinə qarşı terror və soyqırımı həyata keçirirdilər. 1974-cü ildə Yunanıstan Kipri ilhaq etməyə cəhd etdi. Buna cavab olaraq Türkiyə adaya qoşun çıxardı. Siyasi təzyiq və iqtisadi embarqo tətbiq edilməsinə baxmayaraq, Türkiyə qətiyyət göstərərək geri addım atmadı. Kiprin şimalında türk dövlətinin yaradılması ilə ada iki hissəyə bölündü.

T

Müasir dövrdə Şimali Kipr Türk Respublikası ilə bağlı araşdırma apararaq onun perspektivini dəyərləndirin.



Türk ordusu Kiprdə

Layihə



Türkiyədə hərbi çevriliş, 1980-ci il

## Yeni hərbi çevriliş

1970-ci illərdə Türkiyədə baş verən siyasi böhranlar tez-tez hökumət dəyişikliyinə səbəb olurdu. Bu isə ölkədə mövcud siyasi və iqtisadi problemlərin həll edilməsinə imkan vermirdi. Tətil hərəkatı gücləndi. Siyasi gərginliyin artması və iqtisadi tənəzzül nəticəsində ölkədə vəziyyət pisləşdi. Belə bir siyasi şəraitdə 1980-ci ildə yeni hərbi çevriliş baş verdi. Türkiyə Böyük Millət Məclisi ləğv edildi, konstitusiyanın fəaliyyəti dayandırıldı.

1983-cü ildə fövqəladə vəziyyət ləğv edildi və seçkilərin keçirilməsinə icazə verildi. **Turqut Özal** baş nazir oldu. Onun hakimiyyəti illərində Türkiyənin iqtisadi inkişafında ixraca daha çox önəm verildi. O, xarici sərmayənin ölkəyə daxil olmasına imkan verməklə işsizliyin azaldılmasına çalışırdı. Azad bazar iqtisadiyyatını təmin etmək üçün dövlətin iqtisadiyyata müdaxiləsi azaldıldı. *"Ölkənin ən vacib məsələsi iqtisadiyyatdır"*, – deyən Özalın xarici siyasəti də iqtisadi yönümlü idi.



Türkiyədə fövqəladə vəziyyət, 1982-ci il

## Terrorizmə qarşı mübarizə

1970–80-ci illərdə ASALA (Ermənistanın azadlığı naminə gizli erməni ordusu) erməni terror təşkilatı Türkiyəyə qarşı terrorlar həyata keçirdi. Sonralar bu terror təşkilatı Azərbaycana qarşı da terrorçuluq fəaliyyəti göstərmişdi. Həmçinin PKK-nın (Kürd İşçi Partiyası) terrorçuluq və separatçılıq fəaliyyəti Türkiyənin siyasi inkişafına mənfi təsir göstərdi.

## Türkiyə müasir dövrdə

1990-cı illər Türkiyəsi üçün iqtisadi böhran və qeyri-sabit siyasi vəziyyət səciyyəvi idi. Gəlirlərin bölüşdürülməsində ədalətsizlik və korrupsiya ölkənin əsas sosial problemlərindən birinə çevrildi. Xarici dövlətlərin əlində alətə çevrilən separatçı PKK-nın terrorçuluq fəaliyyəti genişləndi. 2000-ci illərin əvvəllərində iqtisadi böhran kəskinləşdi. Belə bir şəraitdə **Rəcəb Tayyib Ərdoğan**ın rəhbərlik etdiyi **Ədalət və İnkişaf Partiyası** hakimiyyətə gəldi. Siyasi sabitliyin yaranması və həyata keçirilən islahatlar Türkiyənin nisbi iqtisadi inkişafına təsir göstərdi. Azərbaycanın strateji müttəfiqi olan Türkiyə bölgənin ən güclü dövlətlərindən birinə çevrildi. Qabaqcıl hərbi texnologiyaların sürətli inkişafı və yerli avtomobilin istehsal edilməsi müasir Türkiyənin uğurlarından biridir.



Rəcəb Tayyib Ərdoğan



Sovet əsgərləri, İran 1941

# İRAN

İkinci dünya müharibəsində İranın bitərəfliliyinə baxmayaraq, onun ərazisi 1941-ci ildə SSRİ və İngiltərə qoşunları tərəfindən işğal edildi. Faşist Almaniyası ilə yaxınlaşmaq siyasəti yürüdən Rza şah devrildi və onun oğlu **Məhəmməd Rza** (1941–1979) şah elan edildi. Müharibə bitdikdən sonra İngiltərə qoşunları 1945-ci ildə İranı tərk etdi. Lakin sovet qoşunları Cənubi Azərbaycanda qaldı. İran məsələni BMT-nin Təhlükəsizlik Şurasında müzakirəyə çıxardı. Türkiyə kimi İran da yerləşdiyi coğrafi mövqeyə görə mühüm geosiyasi əhəmiyyət daşıyırdı. Ona görə də **Cənubi Azərbaycan məsələsi** Soyuq müharibənin başlanmasına təsir edən amillərdən biri idi. Şah hökuməti SSRİ-yə güzəştli neft müqaviləsi vəd edərək **1946-cı ildə** sovet qoşunlarının İranı tərk etməsinə nail oldu. Bundan sonra İran ordusu hücum edərək Cənubi Azərbaycan muxtar hökumətini ləğv etdi. Ölkədə ziyalılara və demokratik qüvvələrə qarşı repressiya siyasəti həyata keçirildi.



Məhəmməd Rza

1940-cı illərin sonunda ölkədə yeni ictimai-siyasi hərəkat başlandı. Hərəkatın əsas tələbləri İranın siyasi həyatının demokratikləşdirilməsi, neft sənayesi üzərində ingilis inhisarına son qoyulması və onun milliləşdirilməsi idi. Nəticədə Milli Məclis neft sənayesinin milliləşdirilməsi haqqında qanun qəbul etdi. Şahın səlahiyyətləri məhdudlaşdırıldı.

Şah ölkəni tərk etməyə məcbur oldu. Neft sənayesinin milliləşdirilməsindən narazı olan, həmçinin İranın SSRİ ilə yaxınlaşa biləcəyindən narahat olan ABŞ və İngiltərənin iştirakı ilə 1953-cü ildə dövlət çevrilişi baş verdi. Şahın hakimiyyəti bərpa edildi. Bundan sonra İranda ABŞ-nin təsiri gücləndi.

S

**Cənubi Azərbaycan məsələsinin Soyuq müharibənin başlanmasına təsir edən amillərdən biri olmasının səbəbi nə idi?**



**İran İslam İnqilabi**

1960-cı illərin əvvəllərində iqtisadi böhranın dərinləşməsi sosial ziddiyyətləri gücləndirdi. Şah hökuməti sosial, iqtisadi və mədəni sahələri əhatə edən islahatlar keçirməyə məcbur oldu. Bu islahatlar dinc yolla həyata keçirildiyi üçün **"Ağ inqilab"** adlandırıldı. İslahatlar o qədər də uğurlu olmadı, eyni zamanda yeni sosial-iqtisadi problemlər də yaratdı.

T

Ağ inqilabın səbəb və nəticələrini təhlil edin.

1973-cü ildə dünyada neftin qiymətinin kəskin artması ilə İranın gəlirləri artdı. Şah İranı regionun ən böyük hərbi gücünə çevirmək üçün müttəfiqi ABŞ-dən milyardlarla dollar dəyərində silah aldı. Eyni zamanda, sənayeləşmə siyasəti də sürətləndirildi. Lakin əhalinin böyük hissəsi yoxsulluq içində yaşayırdı. Həmçinin sənayeləşmə kənd yerlərindən şəhərlərə axını sürətləndirdi. Bu, kənd təsərrüfatı istehsalının azalmasına səbəb olmaqla yanaşı, işsizliyin artması ilə nəticələndi. İnflyasiya sosial və iqtisadi bərabərsizliyi daha da artırdı. Ölkə sərvətinin böyük hissəsi şah ailəsinin və yaxın ətrafının əlində cəmləşmişdi. Şahın idarəçiliyi öz yaxınlarının və tərəfdarlarının sərvətini artırmağa əsaslanırdı. Bu, ölkədə korrupsiyanın və sui-istifadənin geniş vüsət almasına səbəb oldu. Belə şəraitdə ölkədə sol və dini yönümlü müxalifət gücləndi. **Ruhullah Xomeyni** və **Seyid Kazım Şəriətmədarinin** başçılıq etdiyi dini müxalifət tədricən gücləndi. Daha mötədil olan Şəriətmədari Azərbaycan türkü idi. Şahın hakimiyyətinə qarşı çıxanlar həbs edilir və repressiyalara məruz qalırdı. Bu isə rejimə qarşı müxtəlif müxalifət qruplarının terror fəaliyyətlərinə başlamasına təkan verdi. 1978-ci ilin əvvəlində başlayan iğtişaşlar tezliklə inqilaba çevrildi. İnqilabın əsas xüsusiyyətlərindən biri şah hakimiyyətinə qarşı mübarizənin bütün sosial təbəqələri birləşdirməsi idi. Cənubi Azərbaycan inqilabın əsas mərkəzlərindən biri oldu. Belə bir şəraitdə 1979-cu ilin yanvarında şah ölkəni tərk etdi. Xomeyni Fransa polisinin müşayəti ilə Parisdən Tehrana gəldi. Referendum nəticəsində monarxiyaya son qoyuldu. **İran İslam Respublikası** elan olundu.



**Xomeyni Fransa polisinin müşayəti ilə Parisdən Tehrana gəlməsi**

# Cənubi Azərbaycan və İslam inqilabı

Azərbaycan türkləri və onların rəhbəri Ayətullah Şəriətmədarinin şahın devrilməsində mühüm rolu oldu. Şəriətmədari dini dərəcə baxımından Xomeynidən böyük idi. Bu səbəbdən Xomeyni Şəriətmədariyə qarşı tədbirlər gördü. Şəriətmədari din xadimlərinin hökumətdə fəal rol almasına qarşı idi. Azərbaycan türklərinin böyük hissəsi 1979-cu ildə keçirilən konstitusiya referendumunu boykot etdi. Bundan sonra Xomeyni tərəfdarları Şəriətmədarinin evinə hücum etdilər. 1982-ci ildə Şəriətmədari həbs edildi.

T

İslam inqilabının səbəblərini təhlil edərək cədvələ yazın.

| | |
|---|---|
| Siyasi | |
| Sosial-iqtisadi | |

Müasir dövrdə İranda sosial-iqtisadi problemlər vaxtaşırı olaraq etiraz çıxışlarına səbəb olur. Nüvə proqramının elan edilməsinə cavab olaraq ABŞ və bəzi Qərbi Avropa dövlətlərinin İrana qarşı iqtisadi embarqo tətbiq etməsi ölkədə sosial-iqtisadi vəziyyəti çətinləşdirir. Korrupsiya və milli ayrı-seçkilik siyasəti ölkənin daxili vəziyyətinin daha da gərginləşməsinə səbəb olur.



# Mərkəzi Asiya və Qazaxıstan

Müharibədən sonra təbii resursları və coğrafi mövqeyinə görə Mərkəzi Asiya və Qazaxıstanın SSRİ üçün əhəmiyyəti daha da artdı. Sənayenin və kənd təsərrüfatının inkişafına diqqət artırıldı. Lakin bölgəyə əsasən SSRİ-nin xammal mənbəyi (neft, təbii qaz və pambıq) kimi baxılırdı.

XX yüzilliyin 80-ci illərində SSRİ iqtisadiyyatında dərinləşən böhran bölgədə də özünü göstərirdi. Yenidənqurma xəttinin ilk fəsadları Qazaxıstanda özünü büruzə verdi. Qazaxıstana milliyətcə rus olan rəhbərin təyin edilməsi narazılığı artırdı. Narazılıq zor gücünə yatırılsa da, sovet rəhbərliyi güzəşt etməyə məcbur oldu. Sovet İttifaqının rəhbərliyi bölgədə milli azadlıq hərəkatını zəiflətmək üçün ənənəvi etnik münaqişələr törətmək siyasətindən istifadə etdi. 1989-cu ildə Özbəkistanda İkinci dünya müharibəsindən sonra buraya deportasiya edilmiş Ahıska türklərinə qarşı terror və talanlar törədildi. Onların bir çoxu qardaş Azərbaycana pənah gətirdi.

SSRİ-nin süqutundan sonra bölgədə müstəqil türk dövlətləri – **Qazaxıstan, Özbəkistan, Türkmənistan** və **Qırğızıstan** yaradıldı. Müasir dövrdə Azərbaycan və Türkiyə ilə birlikdə Qazaxıstan, Özbəkistan, Qırğızıstan **Türk Dövlətləri Təşkilatını** yaratmışdır. Macarıstan, Türkmənistan və Şimali Kipr Türk Respublikası isə təşkilatda müşahidəçi statusa malikdir. Bu, türk dövlətləri arasında siyasi, sosial-iqtisadi və mədəni əlaqələrin genişlənməsində mühüm rol oynayır.

S

**Türk Dövlətləri Təşkilatınn yaranmasının əhəmiyyətini necə dəyərləndirirsiniz?**

İkinci dünya müharibəsi dövründə SSRİ tərkibində olan bir çox türk xalqları – **Krım tatarları, Ahıska türkləri, qaraçay** və **balkar türkləri** deportasiyaya məruz qaldılar. Stalinin ölümündən sonra onlara bəraət verildi və bəzilərinin milli muxtariyyəti bərpa edildi. Volqaboyu türk respublikaları –Tatarıstan və Başqırdıstan hazırda Rusiya Federasiyasının tərkibində muxtariyyət statusuna malikdir.

T

Türk dünyası və İranda baş verən mühüm hadisələrlə bağlı zaman oxu tərtib edin.

# 21 HİNDİSTAN, PAKİSTAN VƏ ƏRƏB ÖLKƏLƏRİ

Hindistan Respublikası, Pakistan Respublikası, Kəşmir münaqişəsi, ərəb-İsrail münaqişəsi, Kemp-Devid sazişi, İran-İraq müharibəsi, Körfəz müharibələri, Türkməneli

## HİNDİSTAN

### Müstəmləkə əsarətinə son

İkinci dünya müharibəsi dövründə Hindistanda ingilis müstəmləkəçilərinin yerli əhalidən əsgər toplaması milli azadlıq hərəkatının yeni dalğasının başlanmasına təkan verdi. Milli azadlıq hərəkatının lideri Mohandas Qandi əhalini müstəmləkə əsarətinə qarşı mübarizəyə çağırdı. 1947-ci ildə İngiltərə parlamenti Hindistana müstəqillik verdi. Lakin ölkə daxilində dini münaqişə güclü olduğundan vahid birliyi qoruyub saxlamaq mümkün olmadı. Müsəlman əhalinin çoxluq təşkil etdiyi ərazidə Pakistan, əsasən hindli əhalinin yaşadığı ərazidə isə Hindistan adlı müstəqil dövlət yaradıldı. Hindistanda şovinizm meyilləri o qədər güclənmişdi ki, M.Qandinin müsəlmanlara qarşı ədalətli davranmağa çağırış etməsindən qəzəblənən bir hindli terrorçu onu qətlə yetirdi.

T M.Qandinin başçılıq etdiyi milli azadlıq hərəkatının nəticələrini müəyyən edin.

### "Nehru xətti" və müasir inkişaf

Hindistanın ilk Baş naziri olan **Cəvahirləl Nehru** daxili və xarici siyasətin əsas istiqamətlərini hazırlamışdı. O, M.Qandinin siyasi davamçısı və Hindistanın milli azadlıq hərəkatının fəal üzvlərindən biri olmuş-



Lahiyə



Cəvahirləl Nehru

dur. “Nehru xətti”nin mahiyyətini xarici siyasətdə hərbi bloklara qoşulmamaq, sülh və əməkdaşlığın müdafiəsi, milli birlik və iqtisadiyyatın planlı şəkildə inkişafı (iqtisadi modernləşdirmə) təşkil edirdi. 1950-ci ildə Hindistan respublika elan edildi. Ölkənin ilk qadın Baş naziri olan İndira Qandinin dövründə iri sənaye sahələri və banklar milliləşdirilsə də, etnik-dini münaqişələr gücləndiyindən iqtisadi və siyasi vəziyyət gərginləşdi. 1984-cü ildə İ.Qandi terror nəticəsində öldürüldü.

**S**

**M.Qandi ilə C.Nehrunun fəaliyyətində oxşar cəhət hansıdır?**



İndira Qandi

Hazırda Hindistan əhalisi sayına görə dünyada Çindən sonra ikinci yeri tutsa da, əhalinin əksəriyyəti kasıb şəraitdə yaşayır və yazıb-oxumağı bacarmır. Cənubi Asiyada ən böyük dövlət olan Hindistanın müasir inkişafı üçün səciyyəvi cəhətlər iqtisadiyyatın liberallaşdırılması, özəlləşdirmənin inkişafı və xarici kapitalın geniş cəlb olunmasıdır.



## Kəşmir münaqişəsi

Hindistanın Pakistana qarşı ərazi iddiaları bu iki dövlət arasında uzun sürən müharibəyə səbəb oldu. Münaqişə əsasən Kəşmir bölgəsində daha da kəskinləşdi. Kəşmir Pakistanın Hindistanla sərhədində yerləşən, əhalisi, əsasən, müsəlmanlardan ibarət olan bölgədir. 1949-cu ildə BMT-nin vasitəçiliyi nəticəsində Kəşmir münaqişəsinin atəşkəslə dayandırılması haqqında razılıq əldə olundu. Bu razılığa görə Kəşmir bölgəsinin üçdə bir hissəsi Pakistanın, qalan hissəsi isə Hindistanın nəzarətinə verildi. Lakin bu razılıq münaqişəni tamamilə həll etmədi. Pakistan Kəşmir münaqişəsinin beynəlxalq səviyyədə həll olunmasına çalışsa da, Hindistan bu bölgənin əhalisinə qarşı dəfələrlə kütləvi qətliamlar həyata keçirmişdi. Həm Hindistanın, həm də Pakistanın nüvə silahına malik olması bu məsələni beynəlxalq problemə çevirmişdi. Kəşmir münaqişəsi indiyədək davam etməkdədir.

# PAKİSTAN

Pakistan dövləti yaranarkən ərazisi iki hissədən ibarət idi: Şərqi Pakistan (müasir Banqladeş) və Qərbi Pakistan (müasir Pakistan). Hər iki bölgənin əhalisinin əksəriyyəti müsəlman idi. Dövlətin qurucusu **Məhəmmədəli Cinnə** torpaq və vergi islahatları həyata keçirdi. O, Pakistanın "Ulu Öndər"i və "Millət Atası" adlanır. 1956-cı ildə Pakistan federativ respublika elan olundu. 1971-ci ildə Hindistanın hərbi müdaxiləsi nəticəsində Şərqi Pakistan ərazisində müstəqil Banqladeş dövləti yaradıldı. Pakistan Banqladeşi müstəqil dövlət kimi tanıdı. 1979-cu ildə Pakistan islam respublikası elan edildi. Soyuq müharibə dövründə Pakistan ABŞ-nin NATO üzvü olmayan mühüm müttəfiqlərindən biri idi. 1988-ci ildə Pakistanın Baş naziri seçilən Benazir Bhutto bütün İslam dünyasında bu vəzifəyə seçilən ilk qadın oldu. O, 2007-ci ildə sui-qəsd nəticəsində öldürüldü.



Məhəmmədəli Cinnə



Pakistanın ilk Konstitusiyası 1956-cı il

**T** Mustafa Kamalın və Məhəmmədəli Cinnənin fəaliyyəti arasında oxşar cəhətləri müəyyən edin.

Hazırda Pakistan nüvə silahı olan yeganə müsəlman ölkəsidir və dünyanın ən güclü ordularından birinə sahibdir. Onun nüvə silahları türk-müsəlman dünyasının məşhur sərkərdələri Sultan Mahmud Qəznəlinin, Əmir Teymurun və Babur şahın adlarını daşıyır. Müsəlman əhalisinin sayına görə isə Pakistan İndoneziyadan sonra dünyada ikinci dövlətdir. Pakistan Çinlə diplomatik əlaqələr quran ilk müsəlman dövlətidir. Ölkənin xarici siyasətində və beynəlxaq ticarətində Çin mühüm yer tutur. Pakistan Çinin müsəlman ölkələri ilə əlaqələrində "əsas qapı" rolunu oynayır.

Pakistan Azərbaycan Respublikasının müstəqilliyini tanıyan ilk dövlətlərdən biridir. Azərbaycanın Respublikasının strateji müttəfiqi olan Pakistan Xocalı soyqırımını bəşəri cinayət kimi tanıyan ilk dövlətdir. Bu ölkə Azərbaycanın tarixi torpaqlarını işğal etdiyi üçün Ermənistanı müstəqil dövlət kimi tanımamış və onunla diplomatik əlaqələr qurmamışdır. 2020-ci ilin payızında İkinci Qarabağ müharibəsində də Pakistan Azərbaycana siyasi və mənəvi dəstək göstərmişdir. Azərbaycan Respublikası da Kəşmir münaqişəsinin həllində beynəlxalq hüquqa və qarşılıqlı müttəfiqlik əlaqələrinə əsaslanaraq Pakistanın mövqeyini dəstəkləyir.

**S** **Pakistanın Qarabağ müharibəsində Azərbaycan Respublikasının mövqeyini dəstəkləməsinin səbəbləri hansılardır?**





Layihə



1948-ci ilin martında ərəb birlikləri Yəhudi Haganah döyüşçülərinə qarşı döyüşərkən

ƏRƏB ÖLKƏLƏRİ

# Ərəb-İsrail münaqişəsi

İkinci dünya müharibəsindən sonra Yaxın Şərqdə siyasi vəziyyət tamamilə dəyişdi və ərəb xalqlarının azadlıq mübarizəsi nəticəsində müstəqil dövlətlər yarandı. 1947-ci ildə BMT Təhlükəsizlik Şurasının qərarı ilə Fələstinin ərazisi iki hissəyə bölünərək burada Fələstin və İsrail dövlətləri yaradılmalı, Qüds şəhəri isə beynəlxalq statusa malik olmalı idi. Lakin ərəb ölkələri bu qərara qarşı çıxdı. 1948-ci ildə İsrail dövlətinin yaradılmasına etiraz edən ərəb dövlətləri İsrailə müharibə elan etsə də, məğlub oldular. Bu hadisə nəticəsində indiyədək davam edən ərəb-İsrail münaqişəsinin əsası qoyuldu. Fələstin əraziləri İsrail tərəfindən nəzarətə götürüldüyündən yüz minlərlə fələstinli öz yaşayış yerini tərk edərək BMT-nin təşkil etdiyi qaçqın düşərgələrində məskunlaşdırıldı. 1964-cü ildə Yasir Ərəfatın başçılığı ilə yaradılan Fələstin Azadlıq Təşkilatı İsrailə qarşı partizan müharibəsinə başladı.

**T** Qarabağ münaqişəsi ilə Fələstin münaqişəsinin oxşar və fərqli cəhətlərini müəyyən edin.

1967-ci ildə Altıgünlük müharibədə İsrail ordusu ərəb qoşunlarına qalib gəldi. Bu müharibə nəticəsində İsrail Qəzza bölgəsini, Sinay yarımadasını və digər əraziləri ələ keçirdi. Ərəb ölkələrinin məğlubiyyətinin səbəbi isə orduda korrupsiyanın olması və pis idarəetmə idi. Bundan sonra fələstinli hərbi-siyasi qruplar beynəlxalq terror hadisələrinə başladı. 1973-cü ildə ərəb dövlətləri itirilmiş əraziləri geri qaytarmaq məqsədilə yenidən müharibəyə başladı. Bu hadisə ərəb-İsrail münaqişəsinin beynəlxalq miqyas alması ilə nəticələndi. SSRİ ərəb ölkələrinə, ABŞ isə İsrailə yardım edirdi. Əsas neft ixracatçıları olan ərəb dövlətləri neftin qiymətini dörd dəfə artıraraq dünyada ilk neft şokuna səbəb oldu. Neft artıq beynəlxalq münasibətlərə təsir vasitəsi kimi istifadə edildi.

**S** **Ərəb dövlətlərinin Fələstinin azadlığı uğrunda mübarizədə İsrailə qarşı vahid cəbhə yaratmasına hansı amillər mane olub?**



İsrail qüvvələri 1967-ci ildəki 6 Günlük müharibədə ələ keçirdikləri Şərqi Qüdsə gedərkən

Layihə



1978-ci ildə ABŞ-nin vasitəçiliyi ilə Misirlə İsrail arasında imzalanmış Kemp-Devid sazişinə görə Misir İsraili müstəqil dövlət kimi tanıdı, İsrail isə Sinay yarımadasını Misirə qaytardı. Lakin bu saziş ərəb dövlətlərinin əksəriyyətinin narazılığına səbəb olduğundan onlar Misirlə siyasi-iqtisadi əlaqələri kəsdi. İsrailin Qüds şəhərini özünün "vahid və bölünməz paytaxt"ı elan etməsi siyasi vəziyyəti daha da kəskinləşdirdi. 1993-cü il Vaşinqton sazişinə görə Qəzza zolağı və Əriha şəhərində Fələstin muxtariyyətinin yaradılması nəzərdə tutulsa da, tərəflər arasında münaqişə hələ də davam etməkdədir.

M

*"1973-cü ildə Misir və Suriya İsrailin mövqelərinə hücum təşkil etmək üçün birgə razılığa gəldi. Bu barədə bir-birlərinə mümkün qədər az məlumat ötürdülər. Lakin ABŞ və İsrailin kəşfiyyat qrupları ərəb hücumuna dair bir çox siqnal alsa da, belə bir addımın baş verəcəyinə inanmadılar... Misirin hava hücumu və toplarla bombardmanı nəticəsində israillilərin Süveyş kanalındakı ön mövqeləri vuruldu. Bundan sonra misirlilər kanalı almaq və israilliləri qovmaq üçün irimiqyaslı bir hücum təşkil etdilər. Çox dəqiqliklə həyata keçirilən bu hücum nəticəsində ... İsrailin müdafiə mövqeləri təcrid edildi... Özünə həddindən artıq güvənməsi və düşməni kiçik görməsi səbəbindən xalqını çox təhlükəli bir vəziyyətə salan İsrail qəfil ova çevrilsə də, bütün gücünü toplayaraq vəziyyəti nəzarətə götürdü... Ərəblər cəsarətlə döyüşsələr də, orduları müasir texnologiya baxımından zəif olduğu üçün həmlələri uğurla nəticələnmədi".*
Cambridge Savaş Tarihi. Hazırlayan: Geoffrey Parker. Çeviren: F. Tayanç, T. Tayanç. İstanbul, Türkiyə İş Bankası Kültür Yayınları, 2014, səh. 426-429

## İRAQ

1958-ci ildə İraqda hərbi çevriliş nəticəsində monarxiya devrildi və İraq respublikasının yaradıldığını elan etdi. 1967-ci ildə İraq İsrailə müharibə elan etdikdən sonra İsraili müdafiə etdiyi üçün ABŞ, Böyük Britaniya və Almaniya Federativ Respublikasına neft satışını dayandırdı. İraqın ABŞ ilə diplomatik münasibətləri pisləşdiyindən o, SSRİ ilə yaxınlaşdı.



**14 iyul inqilabının liderləri. İraq, 1958-ci il**

1979-cu ildə hakimiyyətə gələn **Səddam Hüseyn** ölkədə diktatura rejimi yaradaraq əsasən İran körfəzi bölgəsində liderliyi ələ almaq siyasəti yürütdü. 1980-ci ildə İraq İrana müharibə elan etdi. Bu müharibədə ABŞ İraqa silah (hətta kimyəvi silahlar) satır və kəşfiyyat sahəsində yardım edirdi. İran-İraq müharibəsi (1980–1988) zamanı S.Hüseyn bütün ərəb ölkələrini İranın hakim şiə ideologiyasının təsirindən qoruduğunu elan edərək onlardan böyük dəstək aldı. Küveyt də bu müharibə dövründə İraqı müda-



**Səddam Hüseyn**

Layihə



**“Səhrada tufan” əməliyyatı nəticəsində İraqda “Ölüm şosesi” (80-ci magistral) kimi tanınan yolda məhv edilmiş texnika**

fiə etdi və ona hərbi təchizatını gücləndirmək üçün borc verdi. Lakin müharibə bitən kimi S.Hüseyn Küveytdən borcların silinməsini tələb etdikdə rədd cavabı aldı. Digər tərəfdən Küveytin dünya bazarına tələb olunandan artıq neft çıxararaq neftin qiymətini ucuzlaşdırması Körfəz müharibəsinin (1990–1991) baş verməsinə səbəb oldu. 1990-cı ilin avqustunda İraq Küveyti işğal etdi. Buna cavab olaraq BMT Təhlükəsizlik Şurası regiona çoxmillətli silahlı qüvvələrin göndərilməsi və Küveytin işğaldan azad edilməsi haqqında qətnamə qəbul etdi. S.Hüseyn isə bu qətnamədən imtina etdiyi üçün ABŞ-nin komandanlıq etdiyi koalisiya qüvvələri 1991-ci ilin yanvarında hücuma keçərək, **“Səhrada tufan”** əməliyyatı nəticəsində İraq qoşunlarını ağır məğlubiyyətə uğratdı və Küveyt azad edildi.



2003-cü ildə ABŞ Səddam Hüseyni devirmək üçün İkinci Körfəz müharibəsinə başladı. “İraqın azadlığı” adı altında keçirilən hərbi əməliyyat nəticəsində S.Hüseyn devrildi. Lakin ABŞ qoşunlarının 8 il İraqda qalması ölkənin daxili vəziyyətini daha da gərginləşdirdi. 2011-ci ilin dekabrında isə ABŞ qoşunları İraqdan çəkildi.

T Səddam Hüseynin diktatura rejiminin devrilməsinin səbəblərini müəyyən edin.

# İRAQ TÜRKMƏNLƏRİ

Müasir İraq ərazisi XI yüzillikdə Böyük Səlcuqlu dövlətinin, XV–XVI yüzilliklərdə isə Qaraqoyunlu, Ağqoyunlu və Səfəvi dövlətlərinin tərkibində olduğu zamanlarda burada oğuz türkləri sıx məskunlaşmış və “türkmən” (və ya türkman) adı ilə tanınmışlar. Onların yaşadığı tarixi bölgə isə **Türkməneli** adlanır. Türkmənelinin mərkəzi Kərkük şəhəridir. Keçən yüzillikdə İraqda türkmənlərin hüquqları dəfələrlə pozulmuş, onlara qarşı repressiya, terror və soyqırımı həyata keçirilmişdir. 1959-cu ildə Kərkük qətliamı törədilmişdi. Səddam Hüseynin diktaturası dövründə türkmənlərə qarşı ayrı-seçkilik siyasəti daha da güclənmiş, onlara məxsus qədim yer-yurd adları müasir ərəb adları ilə əvəz edilmiş və əhali əzəli torpaqlarından deportasiya edilmişdir. 1991-ci il martın 28-də **Kərkükün Altun Köprü** (Altın Körpü) qəsəbəsində yaşayan türkmənlər S.Hüseynin əmri ilə xüsusi silahlı dəstə tərəfindən soyqırımına məruz qalmışdır. 2003-cü ildə S.Hüseynin devrilməsindən sonra İraq ərazisinin ABŞ və İngiltərə tərəfindən işğalından sonra türkmənlərin vəziyyəti daha da pisləşmişdi. 2014-cü ildə isə İŞİD (İraq Şam İslam Dövləti) terror təşkilatı tərəfindən türkmənlərin yaşadıqları şəhər və kəndlərlə yanaşı, tarixi abidələr də dağıdılmışdı. Telafer və Diyala yaşayış məntəqələrində qədim kitabxanalar, onlarla dini abidə (əsasən tarixi şəxsiyyətlərin türbələri) yerlə-yeksan edilmişdi. 2014–2017-ci illərdə İŞİD tərəfindən törədilmiş “İraq Tükmən soyqırımı” nəticəsində 3500 nəfərdən çox türkmən qətlə yetirilmişdi.

T İraq türkmənləri ilə Qərbi Azərbaycanın yerli əhalisi olan azərbaycanlıların tarixində oxşar cəhətləri müəyyən edin.



Layihə

# 22 ÇİN, YAPONİYA, KOREYA

Çin Xalq Respublikası, Tayvan, “Böyük sıçrayış”, “Mədəni inqilab”, Şərqi Türküstan Cümhuriyyəti, Uyğur soyqırımı, Yapon möcüzəsi, Koreya müharibəsi

ÇİN

## İki Çin respublikası – ÇXR və Tayvan

İkinci dünya müharibəsi dövründə Çində yapon işğalçılarına qarşı millətçilərin (homindançılar) və kommunistlərin vahid cəbhəsi yaradıldı. Müharibənin sonunda yapon işğalçıları ölkədən qovulduqdan sonra millətçilər və kommunistlər arasında yenidən vətəndaş müharibəsi başlandı. 1949-cu ildə qalib gələn kommunistlər **Çin Xalq Respublikasının (ÇXR)** yaradıldığını elan etdilər. Məğlub olan millətçilər isə Çan Kayşinin rəhbərliyi altında Çinin materik hissəsini tərk edərək Tayvan adasına çəkilib, burada Çin Respublikasının yaradıldığını elan etdilər. 1950-ci ildə Çin Xalq Respublikası ilə SSRİ arasında dostluq müqaviləsinin imzalanması ABŞ-nin antikommunist fəaliyyətini gücləndirdi. Bundan sonra ABŞ **Tayvana** (*rəsmi adı Çin Respublikası*) hərbi-siyasi dəstəyini gücləndirdi. 1950–1971-ci illərdə BMT-də Çini Tayvan dövləti təmsil etdi.

S

**İkinci dünya müharibəsindən əvvəl və sonra Çində daxili vəziyyətin sabit olmamasının səbəbi hansı hadisə ilə bağlı idi?**




**15 noyabr 1971-ci ildə ÇXR nümayəndə heyəti ilk dəfə BMT Baş Assambleyasında iştirak etdi**

## Tibetin işğalı

ÇXR-in Xalq Azadlıq Ordusu 1950-ci ildə Tibeti işğal etdi. Tibetin 15 yaşlı dini və siyasi lideri **XIV Dalay Lamaya** siyasi və dini muxtariyyət vəd olunaraq, zorakı yolla onunla 17 maddəlik gizli anlaşma imzalandı. Bir qədər sonra Tibetin paytaxtı Lhasada Çinin işğal rejiminə qarşı baş vermiş üsyan amansızlıqla yatırıldı və XIV Dalay Lama Hindistana qaçdı. Çinin tərkibində Tibet Muxtar Vilayəti yaradıldıqdan sonra yerli əhaliyə qarşı dini-siyasi təzyiqlər gücləndi.



**Tibet**



# Çin kommunizmi və qırmızı terror

İkinci dünya müharibəsi Çində böyük dağıntılara səbəb olduğundan kommunist lideri Mao Tszedun ölkə iqtisadiyyatını yenidən qurmaq üçün islahatlara başladı. 1950-ci illərdə ÇXR-də aqrar islahat nəticəsində iri mülkədarların torpaq sahələri əllərindən alınaraq kəndlilər arasında bölüşdürüldü və zorakı kollektivləşdirmə başlandı. Sənaye sahəsində islahatlar nəticəsində özəl şirkətlər tədricən milliləşdirildi. Çin millətçilərinə və uyğurlara qarşı repressiya tədbirləri başlandı.

1958-ci ildə sənaye və kənd təsərrüfatının sürətli inkişafını təmin etmək məqsədilə başlayan **"Böyük sıçrayış"** planı iri kollektiv təsərrüfatların yaradılmasını nəzərdə tutsa da, ölkənin daxilində iqtisadi böhran yarandığından və milyonlarla insanın aclıqdan ölməsi ilə nəticələndiyi üçün ləğv edildi. **"Böyük sıçrayış"**ın uğursuzluğu və SSRİ ilə münasibətlərin pisləşməsi M.Tszedunun mövqeyini zəiflətdi.

1966-cı ildə M.Tszedunun gənclərə çağırışından sonra milyonlarla şagird və tələbə "Qırmızı keşikçilər" adlı dəstələr yaratdı. "Mədəni inqilab" dövründə (1966–1976) kəndlilər cəmiyyətin təkanverici qüvvəsi, ziyalılar isə təhlükəli təbəqə elan edildi, məktəblər və universitetlər bağlandı, ziyalılar ucqar kəndlərdə ağır işlərə cəlb edildi, 20 milyondan çox insan repressiyaya məruz qaldı. Nəticədə, kənd təsərrüfatı zəiflədi, sənaye müəssisələri bağlandı və ölkədə vətəndaş müharibəsi təhlükəsi yarandı. M.Tszedun vəziyyətin ağırlaşdığını görüb "Mədəni inqilab"ı dayandıraraq "Qırmızı keşikçilər"i ləğv etdi. 1969-cu ildə SSRİ ilə Çin arasında Damansk sərhəd münaqişəsi baş verdi. Damansk döyüşündə sovet ordusu ilk dəfə "Qrad qurğusu"ndan istifadə edərək hərbi-texniki üstünlüyünü nümayiş etdirdi. 1991-ci ilin may ayında SSRİ-Çin arasında sərhəd müqaviləsinə görə Damansk adası Çinə verildi.

Çinin "Mədəni inqilab" illərində dünya siyasətindən kənarda qalması və SSRİ ilə sərhəd münaqişəsi Qərblə münasibətləri yumşaltmağa səbəb oldu. 1971-ci ildə ABŞ Çin Xalq Respublikasının BMT-yə üzv qəbul edilməsinə razılıq verdi.

**T** XX yüzilliyin 20-ci illərində SSRİ-də, 50-ci illərində isə Çində aqrar sahədə oxşar tədbirləri və onların ağır nəticələrini müəyyən edin.

**S** **SSRİ-də "Stalin terror" dövründə, Çində "Mədəni inqilab" dövründə baş vermiş hadisələrin oxşar və fərqli cəhətləri hansılardır?**

Layihə

# Kommunistlərin “kapitalist” tədbirləri

1970-ci illərin sonunda Çində hakimiyyətə gələn islahatçıların rəhbəri **Den Syaopin** “Mədəni inqilab”ın ağır nəticələrini aradan qaldırmağa başladı. Kommunist olmasına baxmayaraq, D.Syaopin iqtisadiyyatın inkişafı üçün kapitalist üsullarının tətbiq olunmasına şərait yaratdı. “Dörd modernləşmə” adlanan islahatlar nəticəsində kollektiv təsərrüfatlar ləğv edildi, torpaqlar kəndlilərə icarəyə verildi, azad ticarətə, xaricdən texnologiya gətirilməsinə və kapital qoyuluşuna imkan yaradıldı. Elm və texnologiya sahəsində müasir yenilikləri öyrənmək üçün xarici universitetlərdə təhsil almaq üçün xeyli sayda tələbə göndərildi. Bu islahatlar nəticəsində bir sıra xarici şirkətlər Çində istehsalat müəssisələri açmağa başladı, sənaye istehsalı sürətlə artdı və həyat səviyyəsi yüksəldi.



Den Syaopin

D.Syaopinin islahatları təkcə Qərb kapitalının ölkəyə daxil olmasına yox, həmçinin demokratik siyasi düşüncənin də inkişafına şərait yaratdı. Nəticədə, Çin Kommunist Partiyasının insan hüquqlarını və siyasi azadlıqları məhdudlaşdırması açıq şəkildə tənqid edilməyə başlandı. 1989-cu ildə tələbələr demokratiya və insan hüquqları tələbləri ilə Pekinin **Tyananmen meydanında kütləvi nümayişlər** keçirdilər. ÇXR hakim dairələri nümayişləri ordu tərəfindən amansızcasına yatırdıqdan sonra siyasi düşüncə azadlığını məhdudlaşdıraraq media üzərində dövlət nəzarətini artırdı. Böyük Britaniya Nankin müqaviləsinə görə icarəyə götürdüyü Honkonqu 1997-ci ildə Çinə qaytardı. Lakin Böyük Britaniya və Çin arasında razılığa əsasən Honkonq 2047-ci ilə kimi xüsusi idarəetmə statusunu saxlayacaq, Çin həmin vaxtadək yalnız Honkonqun müdafiə və xarici siyasət məsələlərini həll edəcək.

Hazırda əhalisinin sayına görə dünyada ilk yeri tutan Çində iqtisadiyyat və xarici ticarət inkişaf etsə də, insan hüquqları və siyasi azadlıqlar hələ də məhdudlaşdırılır. Bu özünü daha çox uyğur türklərinə qarşı milli ayrı-seçkilik siyasətində göstərir.




Pekin indiki zamanda




# Uyğur türklərinə qarşı soyqırımı

Uyğur türkləri müasir Çin ərazisinin qədim əhalisi olub, yerli dövlətçilik ənənəsinin əsasını qoymuşlar. Çində vətəndaş müharibəsi dövründə **Şərqi Türküstan İslam Cümhuriyyəti** qurulsa da, SSRİ və Çinin hərbi müdaxiləsi nəticəsində bu dövlətə son qoyuldu. 1944-cü ildə paytaxtı Qulca olan Şərqi Türküstan Cümhuriyyəti quruldu. Lakin onun ərazisi 1949-cu ildə ÇXR ordusu tərəfindən işğal edilərək süquta uğradıldı.

Çin hakimiyyəti 2014-cü ildən etibarən Sincan-Uyğur bölgəsində yaşayan türk-müsəlman əhalisinə qarşı etnik və dini ayrı seçkilik siyasətini daha şiddətli halda həyata keçirərək, həbs düşərgələri yaradıb, **soyqırımı** törətdi. Uyğur türklərinin tarixi-mədəni abidələrinin viran edilməsi, onların assimilyasiyası, kütləvi həbsləri ilə yanaşı, 1 milyondan artıq dinc sakin soyqırımı nəticəsində məhv edildi.

T

Xocalı soyqırımı ilə Uyğur soyqırımını müqayisə edin, oxşar və fərqli cəhətləri sxem şəklində əks etdirin.



## YAPONİYA

İkinci dünya müharibəsi Yaponiya üçün faciə ilə nəticələndi. ABŞ tərəfindən **Hirosima** və **Naqasaki** şəhərlərinə atılan atom bombalarının ağır fəsadları özünü uzun müddət göstərdi. Yaponiya müharibədə məğlub olduqdan sonra ABŞ qoşunları ölkə ərazisini işğal etdi. Yaponiya silahlı qüvvələri ləğv edildi və ölkənin hərbsizləşdirilməsinə başlanıldı.

T

İkinci dünya müharibəsindən sonra Yaponiyada, İkinci Qarabağ müharibəsindən sonra Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində vəziyyəti müqayisə edin.



**Ağdam**

1947-ci ildə Yaponiyanın yeni Konstitusiyası qüvvəyə mindi. Yeni Konstitusiyaya görə hakimiyyətin mənbəyinin xalq olduğu təsbit olundu, Yaponiya Böyük Britaniya nümunəsində parlamentli monarxiyaya çevrildi, imperatorun siyasi fəaliyyəti əhəmiyyətli dərəcədə azaldıldı, qadınlar da daxil olmaqla, bütün vətəndaşlara seçki hüququ verildi, müharibədən imtina edildi.

1951-ci ildə ABŞ və İkinci dünya müharibəsində Yaponiyaya qarşı vuruşmuş digər dövlətlərlə Yaponiya arasında imzalanmış sülh müqaviləsinə görə işğal rejimi aradan qaldırıldı. SSRİ və onun bəzi müttəfiqləri isə bu müqaviləni imzalamaqdan imtina etdi. Yapon silahlı qüvvələri ləğv edildiyi üçün ABŞ ölkəni qorumaq bəhanəsi ilə ordusunu saxlayıb hərbi bazalar yaratdı.



Tokio indiki zamanda

Yaponiyanın hərbsizləşdirilməsi ölkənin iqtisadi cəhətdən sürətli inkişafına yol açdı. XX yüzilliyin 50-ci illərində **"Yapon iqtisadi möcüzəsi"** hökumətin iqtisadi sahədə himayəçi və müdaxiləçi siyasət yürütməsi, yalnız xammal və əsas ehtiyac məhsulları üçün aşağı gömrük haqqının qoyulması, təhsilə xüsusi önəm verilməsi, insan kapitalının sənayeləşmədə əsas rol oynaması və ölkədə sənaye cəmiyyətinin formalaşması nəticəsində baş verdi. Hökumətin iqtisadiyyatda fəal rol oynaması Yaponiyanın dünyanın sənaye nəhənglərindən birinə çevrilməsinə səbəb oldu.

S

**İkinci dünya müharibəsindən sonra Yaponiya iqtisadiyyatının sürətlə inkişaf etməsinin əsas səbəbləri nə idi?**

Hazırda Yaponiyanın paytaxtı Tokio şəhərinin əhalisi 40 milyon nəfərdən çox olub, dünyanın ən böyük **meqapolisidir***. Yaponiya elmi tədqiqatlar üzrə, xüsusilə texnologiya və tibb sahələrində dünyanın ən aparıcı ölkələrindən biridir. Kosmik raketlər, süni peyklər və sənaye robotları istehsalı inkişaf etmişdir. Yaponiyanın 2010-cu ildə buraxdığı **"Akatsuki"** kosmik gəmisi 2015-ci ildə Venera ətrafında orbitə çatmışdır. Hazırda ölkənin əsas kosmik hədəflərindən biri 2030-cu ilədək Ayda elmi tədqiqat bazası tikmək və tədqiqatları bilavasitə orada aparmaqdır.

★ *Meqapolis* – yunan dilində "böyük şəhər" deməkdir. Müasir dövrdə böyüyərək ətrafındakı yaşayış məntəqələrini də əhatə edən nəhəng şəhər meqapolis adlanır.

M

*"ABŞ Yaponiyaya müharibə elan etmiş 52 dövləti (Türkiyə daxil olmaqla) sülh barışığını müzakirə etmək üçün 1951-ci ildə San-Fransiskoda keçirilən konfransa dəvət etdi. Onların arasında SSRİ, Polşa və Çexoslovakiya da vardı. Konfrans sülh sazişi hazırladı. SSRİ, Polşa və Çexoslovakiya bu sazişi imzalamaqdan imtina etdi. San-Fransiskoda imzalanan sazişə əsasən Yaponiya Koreya, Tayvan, Peskadores (Penxu), Kuril adaları və Saxalin adasının cənub hissəsi, Spratli və Parasel adaları üzərindəki bütün iddialarından imtina etdi. Yaponiya təzminat ödəməli idi. Sülh sazişi qüvvəyə mindiyi gündən etibarən doxsan gün ərzində Yaponiyadakı işğalçı qüvvələr ölkəni tərk etməli idilər. Bu sonuncu şərtə görə ABŞ ordusu Yaponiyadan çıxmalı idi. Amma Uzaq Şərqdə mövcud vəziyyət bu şərtin yerinə yetirilməsinə imkan vermirdi. ABŞ öz ordusunun Yaponiyada qalmasını zəruri hesab edirdi və buna görə də Yaponiya ilə təhlükəsizlik sazişi imzaladı. Bu sazişə görə "Uzaq Şərqdə millətlərarası sülh və təhlükəsizliyin qorunması üçün" Yaponiya öz ərazisində ABŞ-yə quru, dəniz və hava qüvvələrini saxlamağa icazə verirdi..."*

İstinad: Armaoğlu F. 20. Yüzyıl Siyasi Tarihi. 1914–1995. 18. Baskı. İstanbul, Alkım Yayınevi, 2012, səh. 555–556

T

# KOREYA

İkinci dünya müharibəsindən sonra Koreyada yapon işğalına son qoyulsa da, ölkənin cənubu ABŞ, şimalı isə SSRİ tərəfindən işğal edildi. 1948-ci ildə ölkənin cənubunda ABŞ-nin fəal dəstəyi ilə Koreya Respublikası, şimalında isə SSRİ-nin kömək etdiyi və kommunistlərin hakim olduğu **Koreya Xalq Demokratik Respublikası** yaradıldı. 1950–1953-cü illərdə bu dövlətlər arasında baş verən Koreya müharibəsi BMT-nin müdaxiləsi ilə beynəlxalq miqyas aldı, nəticədə Cənubi Koreya qalib gəldi.

S

**Koreyada yapon işğalına son qoyulduqdan sonra vahid dövlətin yaranmamasının səbəbi nə idi?**




1960-cı illərin ortalarından başlayaraq Cənubi Koreyada həyata keçirilən islahatlar ölkənin müasir iqtisadi inkişafının – **"Koreya möcüzəsi"**nin əsasını qoydu. "Koreya möcüzəsi" özəlləşdirmə, iri yerli şirkətlərin himayə edilməsi, ölkəyə ABŞ və Yaponiya kapitalının daxil olması nəticəsində baş verdi və iqtisadi inkişaf sürətləndi.



Hazırda Koreya xalqı iki hissəyə bölünmüş tarixi vətənlərini birləşdirmək istəyir. Cənubi və Şimali Koreya dövlət başçıları arasında danışıqlar həyata keçirilsə də, son dövrdə Şimali Koreya rəhbərliyinin təcavüzkar siyasəti, nüvə sınaqları keçirməsi bölgədə və dünyada sülh üçün təhlükə yaratdığından bu məsələnin yaxın vaxtlarda həll olunması real deyil.

T

Azərbaycan və Koreya xalqlarının tarixində oxşar cəhəti müəyyən edin.

M

*"...Koreya müharibəsinin davam etməsini nə ABŞ, nə də Çin istəyirdi. Amma Stalin Koreya məsələsinin ABŞ-də böyük bir təzyiq yaratdığını gördüyü üçün müharibənin davam etməsi fikrində idi... ABŞ Hərbi Hava Qüvvələrinin geniş önləyici tədbirləri Çinin quru qoşunlarının fəaliyyətini məhdudlaşdırdığı üçün amerikalılar strateji səbəblərə görə qüvvələrini yetərincə artırmadılar. Bu isə Çinin inqilabçı əsgər yığını qarşısında Qərbin atəş zərbəsini zəiflətdi. Savaşın uzun və nəticəsiz olması H.Trumeni amerikalıların gözündən saldı və 1952-ci ilin noyabrında Duayt Eyzenhauer prezident seçildi. D.Eyzenhauerin seçkilərdə qalib gəlməsi yalnız xalq tərəfindən dəstəkləndiyi üçün deyil, sonu görünməyən bir savaşı dayandırmaq inamını da əks etdirirdi. Buna görə də D.Eyzenhauer sülh üçün addım atılmadığı təqdirdə nüvə silahlarından istifadə edəcəyini düşündüyünü açıqca bəyan etdi. Amma gərginlik 1953-cü ilin martında Stalinin ölümü nəticəsində azaldı. Çünki yeni rus hakim dairələri savaşın uzanması barədə diktatorla – xüsusilə də Sovetlər Birliyində varislik məsələsi qızışdığı zaman – eyni fikirdə deyildilər".*

İstinad: Cambridge Savaş Tarihi. Hazırlayan: Geoffrey Parker. Çeviren: F. Tayanç, T. Tayanç. İstanbul, Türkiyə İş Bankası Kültür Yayınları, 2014, səh. 407–408

# 23 DÖVLƏTLƏRARASI MÜNASİBƏTLƏR

"Torpaq islahatı haqqında" Qanun Demokrat partiyası Kipr problemi "Ağ inqilab" İslam inqilabı Türk Dövlətləri Təşkilatı

## Birləşmiş Millətlər Təşkilatı

İkinci Dünya müharibəsinin baş verməsi Millətlər Cəmiyyətinin dövlətlərarası münasibətlərə təsirinin zəif olduğunu ortaya qoydu. Sülh və əməkdaşlığın inkişaf etdirilməsi üçün yeni bir beynəlxalq təşkilatın yaradılması zəruri idi. 1945-ci ilin aprel-iyun aylarında keçirilən **San-Fransisko** (ABŞ) konfransı **Birləşmiş Millətlər Təşkilatının** yaradılması ilə nəticələndi. Təşkilatın nizamnaməsi 50 dövlət tərəfindən imzalandı. Dünyanın ən böyük beynəlxalq təşkilatı olan BMT-nin mənzil qərargahı **Nyu-York** şəhərindədir. Onun əsas məqsədi sülh və təhlükəsizliyi qorumaq, ölkələr arasında dostluq münasibətlərini inkişaf etdirmək, siyasi, iqtisadi və sosial problemlərin həllində beynəlxalq əməkdaşlığı həyata keçirməkdir. BMT-nin ali orqanları ildə bir dəfə öz sessiyasını keçirən Baş Məclis və fasiləsiz fəaliyyət göstərən Təhlükəsizlik Şurasıdır. Təhlükəsizlik Şurası daimi – ABŞ, Böyük Britaniya, Fransa, Çin, SSRİ (Rusiya) və iki ildən bir seçilən qeyri-daimi üzvlərdən təşkil olunur. BMT-nin gündəlik fəaliyyətinə rəhbərliyi Baş katib həyata keçirir. Bundan başqa, BMT-nin ixtisaslaşdırılmış qurumları və fondları da vardır. Bunların içərisində adlarına tez-tez rast gəlinən UNESKO (Elm, Təhsil və Mədəniyyət təşkilatı), **ÜST** (Ümumdünya Səhiyyə Təşkilatı), **BVF** (Beynəlxalq Valyuta Fondu) və **UNİSEF**-i (Uşaq Fondu) qeyd etmək olar. Hazırda BMT 190-dan çox üzv dövləti birləşdirir. Onun Baş Katibi **Antonio Quterres**dir.



T

BMT-nin yaradılmasının əhəmiyyətini izah edin.




Layihə




Marşal planı

## Soyuq müharibənin başlanması

Dünya müharibəsindən sonra qalib dövlətlər arasında ziddiyyətlər baş verdi. Bunun əsas səbəbi SSRİ-nin öz ərazilərini genişləndirmək siyasəti idi. Onun Türkiyədən ərazi tələb etməsi və İranın şimalında (Cənubi Azərbaycanda) möhkəmlənmək cəhdləri Qərb dövlətləri tərəfindən narazılıqla qarşılandı. ABŞ-də səyahətdə olan U.Çörçillin Fulton şəhərindəki çıxışı **"Soyuq müharibə"**yə ilk çağırış oldu. O, çıxışında narahatlıqla Avropa qitəsinin üzərinə **"dəmir pərdə"** endiyini, Mərkəzi və Şərqi Avropa ölkələrinin SSRİ-nin nəzarəti altına keçdiyini və kommunist təhlükəsinin get-gedə böyüdüyünü bildirdi. Trumen və Çörçill SSRİ-nin qarşısının alınmasında əsas rolun ABŞ-nin üzərinə düşməsi fikrində yekdil idilər. Türkiyə və Yunanıstanda artan sovet təsirini aradan qaldırmaq məqsədilə **Trumen doktrinası** qəbul edildi. Hər iki ölkəyə ABŞ tərəfindən maliyyə yardımı edildi. Bunun ardınca ABŞ-nin Qərbi Avropa ölkələrinə böyük məbləğdə maliyyə yardımını nəzərdə tutan **Marşall planı** qəbul edildi. Bununla da Avropanın parçalanması faktı qaçılmaz oldu. Qitədəki qütbləşmə Almaniyanın taleyinə təsir göstərdi. SSRİ tərəfindən Qərbi Berlinin mühasirəyə alınması Qərb dövlətlərinin öz işğal zonalarını birləşdirmələrinə səbəb oldu. Nəticədə ölkə ərazisində müxtəlif iqtisadi inkişaf yolunu seçən iki dövlət – AFR və ADR meydana gəldi. Berlinin mühasirəsi Qərb dövlətlərinin hərbi cəhətdən təşkilatlanmasının zəruriliyini ortaya qoydu. Onlar ABŞ-nin rəhbərliyi ilə qərargahı Brüssel şəhərində yerləşən NATO-nu yaratdılar. ABŞ və müttəfiqləri sosialist ölkələri əleyhinə sürətlə silahlanma yoluna qədəm qoydu.

**T** "Soyuq müharibə"nin başlanma səbəblərini müəyyən edin.

## Qütbləşmənin dərinləşməsi

İkinci dünya müharibəsinin sonlarında Sovet İttifaqı tərəfindən işğal olunan Mərkəzi və Şərqi Avropa ölkələrində kommunist rejimi bərqərar oldu. ABŞ-nin gələcəkdə müttəfiqlərinə çevriləcək Avropa ölkələrinə maliyyə yardımına cavab olaraq sosialist ölkələrinin əksəriyyətini birləşdirən **Qarşılıqlı İqtisadi Yardım Şurası** (QİYŞ) yaradıldı. SSRİ-də atom bombasının uğurla sınaqdan keçirilməsi ilə ABŞ-nin bu sahədə ağalığına son qoyuldu. Çində baş verən vətəndaş müharibəsi nəticəsində kommunist rejiminin qurulması ilə sosialist cəbhəsi daha da genişləndi. 1955-ci ildə SSRİ başda olmaqla Avropanın sosialist ölkələrinin iştirakı ilə **Varşava Müqaviləsi Təşkilatı** yaradıldı.

**S** **Sosialist ölkələrinin iqtisadi və siyasi təşkilatlanması nə ilə nəticələndi?**



Çin – Cənubi Koreya müharibəsi

## Siyasi böhranlar

Dünya müharibəsindən sonra növbəti qarşıdurma meydanı Koreya ərazisi oldu. Ölkənin şimalı SSRİ, cənubu isə ABŞ tərəfindən işğal edilmişdi. Bu bölünmə 1948-ci ildə cənubda Koreya Respublikasının, şimalda isə sosialist dövlətinin qurulması ilə nəticələndi. Çox keçmədən bu dövlətlər arasında müharibə başlandı. ABŞ və müttəfiqləri Cənubi Koreya Respublikasına, SSRİ və Çin isə Şimali Koreyaya yardım göstərirdi. Bir neçə ildən sonra müharibə qurtarsa da, Koreyanın birləşdirilməsi baş vermədi.

Sürətlə silahlanma SSRİ və ABŞ-də hərbi-sənaye kompleksinin görünməmiş şəkildə inkişafına səbəb oldu. Nüvə fizikası və elektronikanın tərəqqisinə kosmik tədqiqatların genişləndirilməsi əlavə edildi.

Növbəti böhranın ünvanı yenə Almaniya oldu. Şərqi Berlində yaşayan almanların Qərbə qaçışının qarşısını almaq məqsədilə Sovet İttifaqı tərəfindən 1961-ci ildə Berlin divarı ucaldıldı. Bir il sonra baş verən Kuba böhranı nəticəsində bəşəriyyət nüvə müharibəsi təhlükəsi ilə qarşılaşdı. İnqilab nəticəsində Kubada hakimiyyətə gələn siyasi qüvvələrin SSRİ-yə meyilli siyasət yeritməsi ABŞ-ni narahat edirdi. SSRİ Kubanı xarici müdaxilədən qorumaq adı altında burada nüvə raketləri yerləşdirdi. ABŞ isə, öz növbəsində, Kubanı blokadaya aldı. Hər iki tərəfin geri addım atması nəticəsində böhran həll olundu.

T Cədvəli tamamlayın:

| SİYASİ BÖHRANLAR | | | |
|---|---|---|---|
| ADLARI | KOREYA | BERLİN | KUBA |
| SƏBƏBİ | | | |
| NƏTİCƏSİ | | | |




**Azərbaycanın dövlət başçısı İlham Əliyevin Qoşulmama hərəkatında çıxışı**

## Qoşulmama Hərəkatı

Son Dünya müharibəsinin başa çatmasından sonra müstəmləkə sisteminin dağılması prosesi gücləndi. Dünyanın müxtəlif bölgələrindəki müstəmləkə ölkələrinin müstəqillik əldə etməsi nəticəsində **"Üçüncü dünya ölkələri"** yarandı.

Bu dövlətlər **"soyuq müharibə"** nəticəsində yaranan hərbi-siyasi bloklara daxil olmadı. 1961-ci ildə Belqradda tərəfsiz dövlətlərin iştirakı ilə keçirilən konfransda əldə olunan razılığa əsasən **"Qoşulmama hərəkatı"** təşəkkül tapdı. Hərəkatın ideya bazası əvvəllər meydana gəlmişdi. İndoneziyada keçirilən Bandunq konfransında onun əsas prinsipləri işlənib hazırlanmışdı. Bu prinsiplərə bir-birinin ərazi bütövlüyünə və suverenliyinə hörmət; təcavüz etməmək; daxili işlərə qarışmamaq; bərabərlik və qarşılıqlı fayda; dinc birgəyaşayış məsələləri daxil idi. Bu hərəkat hazırda öz ətrafında 120-dək dövləti birləşdirir. Bu, BMT üzvü olan dövlətlərin təxminən üçdə ikisinə yaxındır. Müstəqillik əldə etdikdən sonra bütün dövlətlərlə bərabərhüquqlu əməkdaşlığa çalışan Azərbaycan Respublikası Qoşulmama hərəkatına üzv olduqdan sonra buradakı aktiv fəaliyyəti ilə seçilir.

T

"Üçüncü dünya ölkələri" ifadəsinin yaranma səbəblərini araşdırın.

## Regionlar münaqişələr

Ayrı-ayrı regionlarda baş verən silahlı münaqişələr dövlətlərarası münasibətlərin gərginləşməsinə səbəb olurdu. Lakin bunların səciyyəvi cəhəti ondan ibarət idi ki, ABŞ və SSRİ bu və ya digər tərəfə yardım etməklə açıq qarşıdurmadan çəkinirdi. İsrail-Fələstin münaqişəsini və Vyetnam müharibəsini buna misal göstərmək olar. Müstəqillik əldə etdikdən sonra Vyetnam iki hissəyə parçalanmışdı. Şimalda kommunist rejimi, cənubda isə Qərb meyilli hökumət qurulmuşdu. 1965-ci ildə ABŞ Cənubi və Şimali Vyetnam arasındakı münaqişəyə hərbi müdaxilə etdi. Kommunist rejiminin nəzarətində olan ərazilər bombalanmağa başlandı. SSRİ Şimali Vyetnama kömək göstərdi. Müharibədə böyük itkilər verən ABŞ 1973-cü ildə qoşunlarını bölgədən çıxardı. Cənubi Vyetnam hökuməti süqut etdi. Ölkə kommunistlərin rəhbərliyi altında birləşdirildi. Vyetnam müharibəsindən fərqli olaraq, İsrail-Fələstin münaqişəsi nəinki öz həllini tapmayıb, hətta keçən müddət ərzində öz təsir dairəsini daha da genişləndirib.

S

**Sizcə, regional münaqişələr dünya müharibəsinə çevrilə bilərmi? Fikrinizi əsaslandırın.**



**Vyetnam müharibəsi**

# Yumşaq rəqabət

Dünyada baş verən siyasi böhranlar və hərbi qarşıdurmalar sürətlə silahlanmanın nizamlanmasının vacib olduğunu açıb göstərdi. 1960-cı illərin sonlarında hər iki fövqəldövlət qarşıdurmadan yoruldu. ABŞ Vyetnam müharibəsinə görə, SSRİ isə Çin ilə münasibətlərdə böyük çətinliklərlə üzləşdi. SSRİ ilə Çin arasında silahlı sərhəd münaqişəsi baş verdi. Sovet rəhbərliyi ABŞ və Çinin SSRİ-yə qarşı mübarizədə yaxınlaşacağından ehtiyat etməyə başladı. Bu qorxu SSRİ-Amerika münasibətlərindəki gərginliyi azaltmağa sövq edirdi. Hər iki tərəf rəqabəti zəiflətməyi qərara aldı. Strateji silahların məhdudlaşdırılması üzrə SSRİ ilə Amerika arasında danışıqlar başladı. Bir neçə görüşün gedişində raket əleyhinə müdafiə sistemlərinin genişləndirilməsinə məhdudiyyətlər qoyuldu. Strateji hücum silahlarının həddi müəyyən edildi. Mülayimləşmə Avropaya da təsir etdi. 1975-ci ildə 33 Avropa dövləti, ABŞ və Kanada Finlandiyanın Helsinki şəhərində **Avropada Təhlükəsizlik və Əməkdaşlıq üzrə Müşavirənin** Yekun aktını imzaladı (ATƏM). ATƏM-ə (1994-cü ildən ATƏT) daxil olan ölkələr bir-birinin ərazi bütövlüyü və siyasi müstəqillik hüququna hörmətlə yanaşacaqlarını öhdələrinə götürdü.

T

Dövlətlərarası münasibətlərin mülayimləşməsinin səbəblərini izah edin.






Sovet əsgərləri Əfqanıstanda

# Son tutaşma

Sovet İttifaqının Avropada ortamənzilli nüvə raketlərini yerləşdirməsi və 1979-cu ildə Əfqanıstanı işğal etməsi dövlətlərarası münasibətləri yenidən gərginləşdirdi. Bu **"soyuq müharibə"**də **"son tutaşma"**ya səbəb oldu. Əfqan xalqı işğalçılara qarşı mübarizəyə başladı. ABŞ bu müharibəyə kəskin reaksiya verdi və əfqan döyüşçülərinə hərtərəfli yardım göstərməyə başladı. Prezident Reyqan Strateji müdafiə təşəbbüsünə uyğun olaraq raketlərə qarşı yeni silahların yaradılacağını elan etdi. Bu silahlar qismən kosmosda yerləşdirilməli olduğundan proqram **"ulduzlar müharibəsi"** adlandırıldı. Sovet raketlərinə cavab olaraq NATO Avropada bu qəbildən olan ABŞ silahlarını yerləşdirdi. Beynəlxalq münasibətlər böhranlı həddə çatdı. Bu vəziyyət SSRİ-nin yeni rəhbəri M.Qorbaçovun ənənəvi xarici siyasət kursunda etdiyi dəyişikliyədək davam etdi. SSRİ və ABŞ rəhbərləri arasında keçirilən yüksək səviyyəli görüşlər nəticəsində ortamənzilli raketlərin ləğv olunması barədə müqavilə imzalandı. Bir qədər sonra sovet qoşunları uğur qazana bilmədikləri Əfqanıstandan çıxarıldı. Ən əsası da Sovet İttifaqı Şərqi Avropada baş verən dinc inqilablara və Almaniyanın birləşdirilməsi prosesinə heç bir müdaxilə etmədi. ATƏM-in iştirakçısı olan ölkələrin nümayəndələrinin 1990-cı ildə Paris zirvə görüşündə Yeni Avropa üçün Xartiya qəbul olundu. 1991-ci ildə SSRİ-nin süqutu ilə **"soyuq müharibə"** başa çatdı.

T

Vyetnam və Əfqanıstan müharibələrini müqayisə edin.

| | |
|---|---|
| VYETNAM MÜHARİBƏSİ | |
| ƏFQANISTAN MÜHARİBƏSİ | |

# Yeni dünya nizamı

**"Soyuq müharibə"** başa çatdıqdan sonra **yeni dünya nizamı** formalaşmağa başladı. Dünyanın siyasi xəritəsi dəyişdi. SSRİ, Çexoslovakiya və Yuqoslaviyanın dağılması nəticəsində yeni müstəqil dövlətlər yarandı. Birləşmiş Avropa böyük Avropa dövlətinə çevrildi. Geosiyasi təsir dairələri yenidən bölüşdürüldü. Nüvə silahını saxlayan Rusiyanın müdafiə qüdrəti və iqtisadi potensialı zəiflədi. ABŞ yeganə fövqəldövlət kimi qaldı. Qərb ölkələri arasındakı münasibətlərdə dəyişiklik baş verdi. Hərbi blokların qarşıdurması bitsə də, NATO buraxılmadı. Onun başlıca vəzifəsi Qərbin xeyrinə formalaşmış qüvvələr nisbətini qorumaq və sabitliyi təmin etmək oldu. "**Sülh naminə tərəfdaşlıq**" proqramının qəbul edilməsi təşkilatın genişlənməsinə şərait yaratdı. NATO-nun regional hərbi-siyasi təşkilatdan qlobal güc təşkilatına çevrilməsi baş verdi. Avropada inteqrasiya prosesi gücləndi. Maastrixtdə **Avropa İttifaqı** (Birliyi) haqqında müqavilə imzalandı. ATƏT-in 1999-cu ildə İstanbul sammitində qəbul olunmuş **"Avropa təhlükəsizliyi"** xartiyasında yenilənmiş dünya birliyinin təhlükəsizlik konsepsiyası ifadə olundu. ABŞ-nin təkbaşına dünyada hökmranlıq etməsinə yol verməmək üçün Rusiya və Çin arasında yaxınlaşma baş verdi.



NATO

**S** **Sizcə, regional münaqişələr dünya müharibəsinə çevrilə bilərmi? Fikrinizi əsaslandırın.**

Müasir dünyanın qlobal problemləri içərisində əsas yeri bəşəriyyətə vurduğu zərbənin miqyasına görə regional münaqişələr və beynəlxalq terrorizm tutur. Buna qarşı mübarizə apara bilmək üçün dünyanın aparıcı dövlətləri öz maraqlarına uyğun olaraq terrorçu təşkilatları maliyyələşdirməkdən və himayə etməkdən əl çəkməli, bu sahədə hərtərəfli əməkdaşlıq etməlidir. Azərbaycanın otuz il müddətində ərazisində **"yuva salmış"** erməni terrorizminə qarşı apardığı uğurlu mübarizə bu baxımdan nümunə ola bilər.



Azərbaycan əsgəri

Yeni dünyada ideoloji mübarizələr artıq öz yerini iqtisadi sahədə rəqabətə təhvil verib. Qloballaşan dünya iqtisadiyyatında 1999-cu ildən fəaliyyət göstərən **İyirmilər qrupu (G20)** xüsusi rola malikdir. Ümumi daxili məhsulunun təxminən 90%-i bu qrupa daxil olan ölkələrin payına düşür. G20 qrupunun iqtisadi çəkisi və geniş üzvlüyü ona yüksək dərəcədə legitimlik, qlobal iqtisadiyyatın və maliyyə sisteminin idarə olunmasında təsir imkanları verir. BMT üzvü olan 173 ölkənin G20 qrupundan kənarda qalması onun tez-tez tənqid olunmasına və sammitlərinin keçirildiyi şəhərlərdə qloballaşma əleyhdarlarının etiraz çıxışlarına səbəb olur.

**T** İyirmilər qrupuna daxil olan ölkələr barədə araşdırma aparın. Onların içərisində 3 ən böyük iqtisadiyyata malik dövlətin iqtisadi göstəricilərini əks etdirən cədvəl tərtib edin.

24

# MƏDƏNİYYƏT

Kosmosun fəth edilməsi, ilk süni peyk, kompüter, Genetik mühəndislik, klonlaşdırma, rok, abstraksionizm, Yaşıl inqilab, postmodernizm, “mədəni imperializm”

## Elm və texnologiya

İkinci dünya müharibəsindən sonra əldə edilən elmi və texnoloji nailiyyətlər insanların həyatında inqilab etdi. Elmin əldə etdiyi nailiyyətlərdən biri də kosmosun fəth edilməsi idi. 1950-ci illərin sonlarından başlayaraq ABŞ və SSRİ kosmosun tədqiqində rəqabət aparırdı. SSRİ Yerin ilk süni peykini buraxdı və ilk insanı orbitə çıxardı. ABŞ astronavtları 1969-cu ildə Aya endi. Kosmos yarışının tələb etdiyi elm və texnologiyaya böyük diqqət bütün dünyada insanların həyatını dəyişdirən məhsulların inkişafına səbəb oldu. İlk illərdə kosmos yarışında ABŞ və Sovet İttifaqı arasında rəqabət sonradan əməkdaşlıq üçün uğurlu sahələrdən birinə çevrildi. 1975-ci ildə iki ölkənin kosmik gəmilərinin ekipajları kosmosda görüşdülər.

Texnoloji irəliləyişlərin ətraf mühitə ziyanları da özünü göstərirdi. Daha çox məhsul yetişdirmək üçün istifadə olunan kimyəvi gübrələr həm də təbiətin ekoloji tarazlığını pozurdu.

XXI yüzilliyin əvvəllərində elmin qida istehsalındakı rolu ilə bağlı fikir ayrılıqları davam edirdi. Üzvi əkinçilik və genetik cəhətdən dəyişdirilmiş qida ilə bağlı mübahisələr genişlənməkdə idi.

T Texnoloji irəliləyişlərin ətraf mühitə ziyanlarını necə dəyərləndirirsiniz?

## Qlobal kommunikasiyaların genişləndirilməsi

1960-cı illərdən etibarən Yer kürəsinin orbitinə buraxılan süni peyklər dünya miqyasında kommunikasiyaya kömək edir. Peyk rabitəsi ilə tədricən qloballaşma güclənir. Bu gün dünyanın bir yerində baş verən siyasi və mədəni hadisələr qısa müddət ərzində minlərlə kilometr uzaqlıqdakı insanlar tərəfindən canlı olaraq müşahidə edilir.

1940-cı illərdə ilk dəfə istifadəyə verilən kompüter böyük bir otağı tuturdu. Sonradan ölçüləri kiçildilmiş, lakin daha güclü hala gətirilmişdir. Bu dəyişiklik qis-



Layihə



Genetik klonlaşdırma

mən kosmos proqramı ilə bağlı idi. Çünki avadanlığı kiçik məkana sığdırmaq üçün onu kiçiltmək lazım idi. 1990-cı illərdən internetdən istifadə genişlənməyə başladı. Kompüterlər və kommunikasiya şəbəkələri ilə əldə edilən irəliləyişlər təkcə insanların iş üsullarını deyil, həm də həyat tərzini dəyişdirdi. Elmin bütün sahələrində, tibdə və kənd təsərrüfatında texnoloji tərəqqi insanların həyat keyfiyyətini yaxşılaşdırdı. Daha güclü mikroskoplar, lazer və ultrasəs kimi yeni texnologiyalar cərrahi üsulları inkişaf etdirdi. 1980-ci illərdə genlər üzərində tədqiqatlar vasitəsilə irsiyyəti öyrənən genetika sürətlə inkişaf edən elm sahəsinə çevrildi. Genetik mühəndislik vasitəsilə elm adamları orqanizmə yeni xüsusiyyətlər vermək üçün yeni genlər təqdim edə bildilər. Genetik mühəndisliyin başqa istiqaməti ***klonlaşdırmadır***. Bu, irsiyyəti təyin edən genlərin kimyəvi zəncirləri olan **DNT**★-nin eyni nüsxələrinin yaradılmasıdır. Klonlaşdırma, əslində, elm adamlarına eyni olan həm bitkiləri, həm də heyvanları çoxaltmağa imkan verir. Genetika ilə bağlı tədqiqatların gündəlik həyata tətbiqi xüsusilə kənd təsərrüfatında bir çox irəliləyişlərə səbəb olmuşdur.

★ *DNT (DEZOKSİRİBONUKLEİN TURŞULARI)* – canlı orqanizmdə genetik məlumatı saxlayan və ötürən yüksək molekullu təbii üzvi birləşmə. Ali orqanizmlərdə, bakteriya və bir çox viruslarda genetik məlumatın daşıyıcısıdır.

## Yaşıl inqilab

1960-cı illərdə bütün dünyada kənd təsərrüfatı alimləri Yaşıl inqilab kimi tanınan bir kampaniyaya başladılar. Bu bütün dünyada ərzaq istehsalını artırmaq cəhdi idi. Alimlər gübrələrin, **pestisidlərin**★ və müxtəlif bitkilərin yüksək məhsuldar, xəstəliklərə davamlı ştammlarının istifadəsini təşviq edirdilər.

★ *Pestisidlər* – Kənd təsərrüfatında becərilən mədəni bitkiləri və məhsulları ziyanvericilərdən qorumaq, eləcə də bitkilərin məhsuldarlığını artırmaq üçün istifadə olunan kimyəvi zəhərli maddələrdir.

Yaşıl inqilab dünyanın bir çox yerlərində aclığın qarşısını almağa və məhsuldarlığı artırmağa kömək etdi. Ancaq yaşıl inqilabın mənfi tərəfləri də var idi. Gübrə və pestisidlərin tərkibində çox vaxt xərçəngə səbəb ola biləcək və ətraf mühiti çirkləndirən təhlükəli kimyəvi maddələr var. Həmçinin daha çox məhsul əldə etmək üçün kimyəvi maddələrin və avadanlıqların dəyəri kiçik kəndli fermerlər üçün çox baha idi. Nəticə etibarilə onlar kənd təsərrüfatındakı irəliləyişlərdən az faydalanırdılar. Bəzi hallarda fermerlər daha böyük kənd təsərrüfatı şirkətləri tərəfindən bazardan sıxışdırılıb çıxarıldı.

T

Yaşıl inqilabın müsbət və mənfi tərəflərini təhlil edin.

# İncəsənət

İkinci dünya müharibəsindən sonra ABŞ Qərb incəsənət dünyasına, əsasən, hakim oldu. **Abstraksionizm*** II dünya müharibəsindən sonra incəsənətin ən populyar forması idi.

1980-ci illərdə bəzilərinin postmodern adlandırdığı üslublar meydana çıxdı. **Postmodernizm*** ənənəvi elementlərin və texnikanın, o cümlədən təkcə rəsm üslublarının deyil, həm də sənətkarlığın canlanması ilə əlamətdardır. Postmodernizm müxtəlif əsərlərdə tək bir həqiqətin olmasını rədd edir.

XX yüzilliyin sonlarında bir çox rəssamlar yeni sənət formaları yaratmaq üçün rəqəmsal kameralar və kompüter proqramları kimi inkişaf etməkdə olan texnologiyalardan istifadə edirdilər. Bu yeni sənət formaları tez-tez interaktiv olur və onlar tamaşaçıya sənət əsərinin istehsalına təsir etmək imkanı verirdi.

★ *Abstraksionizm* cisim və hadisələrin real təsvirini rədd edən sənət istiqamətidir.

★ *Postmodernizm (modernizm sonrası)* XX yüzilliyin ikinci yarısında incəsənətdə, ədəbiyyatda və s. bütün formaları, qaydaları, ehkamları inkar edən, onları sintetik və qarışıq şəkildə təqdim edən cərəyandır.



1950 ci il



Müasir rəqəmsal kamera

# Populyar mədəniyyət

Sivilizasiyanın başlanğıcından bəri insanlar üçün mədəniyyətlərarası əlaqə mühüm əhəmiyyət kəsb etmişdir. Texnologiyanın inkişafı sayəsində bu, müasir dövrdə daha sürətli baş verir və daha geniş əraziləri əhatə edir. Mədəni mübadilə sürətlənir. Mədəniyyət mübadiləsinə töhfə verən bütün texnologiyalar arasında televiziya, filmlər və digər kütləvi informasiya vasitələri xüsusilə fərqlənir.

ABŞ Qərbdə və qismən dünyada populyar mədəniyyətin formalaşmasında ən güclü qüvvə idi. Filmlər, televiziya və musiqi vasitəsilə ABŞ öz ideyalarını və dəyərlərini dünyada milyonlarla insana təbliğ edirdi. Eyni zamanda digər ölkələr Amerika mədəniyyətinin təsirinə etiraz edirdilər. Onu çox vaxt "mədəni imperializm" adlandırırdılar. Bəzi xalqlar öz mədəniyyətlərinin amerikanlaşmasına müqavimət göstərmək üçün fəal tədbirlər görürdü.

S **"Mədəni imperializm" nədir? Onu müasir həyatımızda hiss edirikmi?**

İkinci dünya müharibəsindən dərhal sonra filmlər ABŞ-nin populyar mədəniyyətinin yayılması üçün mühüm vasitə idi. 1960-cı illərdə bütün dünyada televiziyadan istifadə ABŞ filmlərinin həm Avropa, həm də Amerika bazarlarında dominantlığına şərait yaratdı. Dünyada ən populyar musiqi formaları olan **caz, rok** və **rep** janrları afroamerikan musiqi formaları əsasında ABŞ-də yaranmışdı. Amerikanın populyar musiqisi dünyanın müxtəlif bölgələrində yayıldıqca, yerli sənətkarlar onları özünəməxsus şəkildə təkmilləşdirirdilər.

T Cazın Azərbaycan musiqisinə təsirləri ilə bağlı təqdimat hazırlayın.

Rok ictimai və siyasi mövzuları özündə əks etdirirdi. Müharibə, irqi ayrı-seçkilik, militarizm və s. pislənirdi.



Layihə



1980-ci il Avropa çempionatı,  SSRİ – Almaniya Federativ Respublikası

## İdman və siyasət

Müharibədən sonrakı illərdə idman həm populyar mədəniyyətin, həm də istirahət sənayesinin əsas sahəsinə çevrildi. Televiziya vasitəsilə idman dünyada geniş yayıldı.  Məsələn, Olimpiya oyunları dünyanın istənilən yerindən yayımlanırdı. Əslində, bəzi idman təşkilatları əvvəlcə televiziya tədbirlərinə müqavimət göstərirdilər, çünki bunun bilet satışına zərər verəcəyindən qorxurdular. Lakin televiziya müqavilələrindən əldə edilən böyük gəlir onların fikirlərinin dəyişməsinə səbəb oldu. İdman böyük siyasətə və biznesə çevrildi. Həqiqətən də, siyasiləşmə idmanda son zamanların ən mühüm tendensiyalarından biridir. Məsələn, futbol milli hissləri oyatmaq  üçün vasitədir.

Siyasət və idmanın qarışmasının ən bariz nümunəsi Olimpiya oyunlarıdır. SSRİ yarışlara qoşulandan sonra olimpiada Soyuq müharibənin bir hissəsi oldu, "silahsız müharibə" kimi tanındı. SSRİ olimpiadadan kommunist sistemini ictimai tərəqqinin ən yaxşı yolu kimi tanıtmaq üçün istifadə edirdi. Oyunların siyasi mahiyyəti başqa formalarda da öz ifadəsini tapırdı. ABŞ 1980-ci il Moskva olimpiadasını boykot etdikdən sonra SSRİ 1984-cü ildə Los-Anceles oyunlarında iştirakdan imtina etdi.

İdmanın siyasiləşməsini necə dəyərləndirirsiniz?

## Ədəbiyyat

İkinci dünya müharibəsindən sonra ədəbiyyatda yeni inkişaf mərhələsi başlandı. Müharibə və onun dəhşətləri ədəbiyyatın əsas mövzularından birinə çevrildi. **Əziz Nesin** və **Yaşar Kamalın** əsərləri bu dövrdə türk ədəbiyyatının inkişafında xüsusi rol oynadı. Böyük Britaniyalı yazıçı **Ceyms Oldricin** *"Diplomat"* əsəri XX yüzilliyin 40-cı illərində Cənubi Azərbaycanda baş verən demokratik hərəkata aid hadisələrdən bəhs edir.

**XX yüzilliyin 40-cı illərində Cənubi Azərbaycanda baş verən demokratik hərəkatdan bəhs edən daha hansı bədii əsərlər tanıyırsınız?**




Layihə

Lavihe